# QƏLƏBƏ BİZİMLƏDİR

Bakı – 2002

476

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

**REDAKTOR:**
Məmməd Araz

TƏRTİBÇİ MÜƏLLİF:
Sabir Hüseynov

**BURAXILIŞA MƏSUL:**
Kəmaləddin Məmmədli

Kitabda Milli Olimpiya Komitəsinin prezidenti, Neft Şirkətinin birinci vitse-prezidenti, YAP sədrinin birinci müavini, millət vəkili, İlham Heydər oğlu Əliyevin keçdiyi şərəfli həyat yolundan, onun Azərbaycanımızı işıqlı sabahlara yönəltmək uğrunda var qüvvəsi ilə çalışmaq missiyasından söhbət açılır.

Kitabın işıq üzü görməsində göstərdiyi köməyə görə H.Z.Tağıyev mükafatı laureatı" Süleyman Adil oğlu İsmayılova minnətdarlığımızı bildiririk.

ISBN-9952-403-04-06

© Hüseynov

# ÖN SÖZ

Şəxsiyyətlər, dahilər, müdriklər doğma torpağını canından artıq sevənlər, xalqının xoş güzəranı yolunda daim mübarizə aparanlar haqqında yazmaq olduqca çətin və məsuliyyətlidir. Lakin mən bu hissi yaşasam da, əsla tərəddüd etmirəm. Çünki ünvanına ürək sözlərimi ərmağan etdiyim insan günəş kimi işıqlı, hərarətli, Ay kimi nurlu, şəffafdır. O şəxs İlham Heydər oğlu Əliyevdir. Milli Olimpiya Komitəsinin prezidenti, millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti, dünyanın çox ölkələrində görkəmli ictimai-siyasi xadim kimi tanınan İlham Əliyev peşəkar siyasi mühitdə püxtələşib. Bu gün ardıcıl, yorulmaz, diqqətəlayiq ictimai-siyasi fəaliyyəti ilə "zəfəri siyasətə küçədən deyil, siyasətdən gələnlər qazanır" – bu səbəbdən də İ. Əliyevin siyasi perspektivi daha önəmli, gərəkli, şanslıdır, O, təkcə iqtidar partiyası YAP-ın deyil, həm də mühüm sosial bazaya malik digər təşkilatların da dəstəyinə arxalana, güvənə bilər.

İlham Əliyev hələ büruzə vermədiyi siyasi gediş və manevr imkanlarından, perspektivini şərtləndirən qabiliyyət və istedadından, sosial baza ilə işləmək bacarığından da xali deyil. O, hadisələri qabaqlamaq kimi fitri uzaqgörənliyə malik olsa da, zərurətə daha çox önəm verir. O, nə populist vədlərlə divident toplayır, nə də siyasi düşüncələrini ucuz gedişlərə sərf edir. Azərbaycanımızı işıqlı sabahlara yönəltmək, onun uğrunda var qüvvəsi ilə çalışmaq, xoşbəxt gələcəyimizi təmin etmək daha çox onun missiyasına aiddir. O, müdrik insan, bütöv əqidə, şəxsiyyət olan atasının layiqli davamçısıdır. İlham Əliyev ölkəmiz haqqında beynəlxalq arenada ürəkaçan, müsbət rəy yaradır. Amma daxildə-Azərbaycanda isə hələ özünü tanıtmağa tələsmir. Bunu yaddaqalan əməllərinin və ardıcıl fəaliyyətinin nəticəsi olaraq müəyyənləşdirmək üçün xalqımıza həvalə edir. İ. Əliyev ictimai rəy üçün işləmir. Hakimiy-

yətə gəlişi üçün əsas zəmini ən sadiq müttəfiqi olan hadisələrin təbii-tarixi inkişafında görür. O, bir məqamı da çox gözəl anlayır ki, dünya şöhrətli siyasət ustası Heydər Əliyevlə rəqabət aparmağa cəhd edənlərin məğlubiyyət aqibətlərinin də əsas səbəbi onların bu tarixi inkişafa, məntiqə qarşı çıxmalarıdır.

Tarixi zərurətlər sınağında olan Yeni Azərbaycan Partiyası növbəti zərurəti İlham Əliyev faktoru ilə ödəyə bilər.

Cəmiyyət hələ öz seçimini etməmişdir - ancaq ictimai rəydə millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin adı birinci kimi hallanmaqdadır. Onun heç bir imici reklam aparmadan yalnız öz işi ilə özünü cəmiyyətə təqdim etməsi, onu digər opponentlərindən fərqləndirən başlıca xüsusiyyətdir. Yuxarıda sadaladığım keyfiyyətlərin daşıyıcısı kimi İlham Əliyevi nümunə göstərməyim təsadüfi deyil. Varis olmaq tək prezidentin övladı kimi qiymətləndirilməməlidir. Bu üzdə olan, görünən tərəfin fonunda siyasi yetkinlik, püxtələşmiş və son dərəcə hazırlıqlı siyasətçi fərasəti, bilgisi, təcrübəsi, imici dayanır.

İ.Əliyev Yeni Azərbaycan Partiyasının üzvü kimi artıq öz siyasi çıxışları, soydaşlarımızla görüşləri zamanı partiyada xidmətlərini bəyan edib. Partiyamızın daha da formalaşması, təşəkkül tapması üçün İlham müəllimin gördüyü işlər, verdiyi tövsiyələr danılmazdır. O, deyir: "Biz YAP-ın sədrinin - Heydər Əliyev yolu ilə gedir və bundan sonra da bu yolla gedəcəyik".

Yeni komanda haqqında nəzəri müddəa kimi danışmaq daha dəqiq, doğru olardı. Aparılan sorğuların müşahidələrin ətraflı, müqayisəli təhlilləri göstərir ki, daha perspektivli və hazırlıqlı siyasətçi məhz İlham Əliyevdir. Bu heç də əvvəlcədən səslənən hökm kimi qiymətləndirilməməlidir. Demokratik idarəçilikdə bütün prosedurların seçkidən, sınaqdan keçdiyini bildiyimizdən, əsas rəy elektoratın olacaqdır.

İlham Əliyev deyir ki, Heydər Əliyev 1969-cu ildə rüşvətxorluğa, korrupsiyaya, əliəyriliyə, dələduzluğa qarşı səlib müharibəsi elan edəndə indi sinəsinə döyüb "mənəm-mənəm" deyənlərin, hakimiyyətə sahib çıxmaq həvəsi ilə su bulandıranların çoxu uşaq baxçalarına gedirdilər. Bəlkə yalandır, cənablar? Azərbaycanımızda rüşvətxorluq və korrupsiya kimi neqativ hallara qarşı dövlət səviyyəsində açıq-aşkar, qətiyyətlə mübarizə aparan ikinci bir şəxsin adını çəkə bilərsinizmi? Bəziləri niyə unudurlar ki, Heydər Əliyev 1991-ci ildə Naxçıvanda üçrəngli bayrağımızı qaldıranda indi özünü millətçi, xalqsevər, vətənpərvər kimi tanıtdıran, təqdim edənlərin bir çoxu parlamentdə sovet bayrağı önündə baş əyirdilər.

Və nəhayət, İlham Əliyev deyir ki, ölkəmizin mövcud problemlərini həll etməyə gücü, qüdrəti çata biləcək yeganə qüvvə, məhz Heydər Əliyevin komandasıdır. Onun alternativi yoxdur. Sadəcə olaraq bunun özgə cür olduğunu göstərməyə qadir fəaliyyət proqramı ortaya qoymaq lazımdır. Bunu bacarmırsınızsa, özünüzü yormayın, qərəzinizi, kin-küdurətinizi, saxta millətçiliyinizi kənara qoyub, gücsüzlüyünüzü etiraf edin. Bu ən ideal və real taktiki gediş olardı!

Bəşər boyu insanı ucaldan, tanıtdıran, tarixdə yaşadan yalnız və yalnız onun qadir əməyi, uzaqgörənliyi, vətəni, xalqı uğrunda can yandırması olub. Doğrudur, qan yaddaşı əsas amillərdən hesab olunur. Şükürlər ki, bütün bu ali, yüksək, örnək olacaq keyfiyyətlərin hamısı İlham Əliyevdə cəmləşib. Və qətiyyətlə fikrimi bildirirəm: sözü gedən şəxsiyyətin əsla tərifə ehtiyacı yoxdur. Onun qiymətini Yaradanımızın özü verib. Və ən başlıcası isə budur ki, İlham Əliyev çoxlarının qibtə edəcəyi kamil tərbiyə sahibidir. Belə ləyaqətli soydaşımızla ancaq fəxr etmək lazımdır. Bir daha təkrar edirəm, onun lider olmaq şansı yetərincədir.

İnanıram ki, bu kitab qədirbilən, haqqa nahaq deməyən, İlham Əliyevin fədəkarlığına arxalanan, onun işıqlı sabahlarımız uğrunda ardıcıl olaraq apardığı mübarizəyə ümid bəsləyən hər bir oxucu tərəfindən məhəbbətlə, rəğbətlə qarşılanacaq.

**Siyavuş NOVRUZOV,**
YAP icra katibinin müavini,
millət vəkili

***Hörmətli millət vəkili***
***İlham Əliyev!***

Sizin kimi mən də əminəm ki, Azərbaycan və Amerika arasında iqtisadi və siyasi əlaqələr daima genişlənməkdədir. Tam inanıram ki, qarşılıqlı hörmət, əməkdaşlıq və açıq dialoq əhval ruhiyyəsi şəraitində və xalqlarımızın rifahı naminə biz birlikdə çalışaraq sülhü, azadlığı və firavanlığı inkişaf etdirə bilərik. Bütün bunları nəzərə alaraq mən məmnuniyyətlə sizinlə yenidən görüşümüzü səbirsizliklə gözləyirəm.

**Corc Buş,**
ABŞ-ın prezidenti



Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyevin çıxışına diqqətlə qulaq asdım və onu təbrik etdim. Çox məmnun oldum. Mən Azərbaycan nümayəndə heyətinin bu fəaliyyətini böyük təqdirlə qarşılayıram və alqışlayıram. Onlar lazım olan və görülməli olan işləri ən yaxşı şəkildə həyata keçirdilər.

Azərbaycan Avropa Şurasına daxil olarkən böyük həyəcan keçirirdim, sevincdən göz yaşları tökürdüm. Hətta o zaman buradan telefon vasitəsilə Azərbaycanla danışanda da bunu bir daha bildirdim və bu sevincimizin mənasız olmadığını gördüm.

**Hüseyn Qalxan,**
Türkiyə Cümhuriyyətinin
Avropa Şurasındakı
nümayəndə heyətinin üzvü,
Böyük Millət Məclisinin deputatı

Nümayəndə heyətinin başçısı İ.Əliyevin AŞPA-nın sessiyasında, müxtəlif tədbirlərdə çıxışı barədə danışmaq istəyirəm. Əvvəla, ingilis dilində çox yüksək səviyyədə səlis çıxışın fonunda erməni nümayəndələrinin rus dilində, həm məntiqsiz, reallıqlara əsaslanmayan çıxışları çox sönük görünürdü. Hər çıxışında nümayəndə heyətimizin başçısı avropalılara erməni təcavüzünün mahiyyətini açıqlayırdı, faktlarla sübut edirdi ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası bizim ölkəmizə nə kimi təhlükə yaradıb və Avropaya necə təhlükə yarada bilər. Hesab edirəm ki, Azərbaycan nümayəndə heyətinin nailiyyətlərini gözü götürməyən daxildəki bəzi adamları AŞPA-nın əzəmətli binasından içəri salsalar, onlar özlərini itirərlər. Müxtəlif təzyiqlər, erməni lobbisinin təsiri altında vurnuxan nüfuzlu deputatlar qarşısında tribunadan erməni terrorizmini ifşa etmək siyasi cəsarət, siyasi iradə tələb edir.

**Azər Qasımov,**
MM aparatı beynəlxalq
münasibətlər şöbəsinin müdiri



Azərbaycanın Milli Olimpiya Komitəsinin əldə etdiyi uğurlardan böyük qürur hissi duyuruq. Sizin Milli Olimpiya Komitəniz çox dinamik bir təşkilatdır. Burada çox təcrübəli insanlar çalışır və onların çox yaxşı ideyaları vardır. Hətta deyərdim ki, Sizin Milli Olimpiya Komitəniz yeni yaranmış Milli Olimpiya Komitələrinə nümunə göstərilə bilər.

**Jaq Roq,**
Avropa Olimpiya
Komitəsinin prezidenti

Mən Azərbaycanın inkişafını böyük optimizmlə izləyirəm. Hazırda ölkənin tarixində həlledici dəyişikliklər dövrü, neft sahəsinin yeni inkişaf mərhələsi başlanmışdır. Biz Bakıya və Azərbaycana prezident Heydər Əliyevin rəhbərliyi, ARDNŞ-ın birinci vitse-prezidenti İlham Əliyevin fəal iştirak etdiyi neft diplomatiyasının altında çiçəklənməsini arzulayırıq.

**Terri Adams,**
ABƏŞ-in ilk prezidenti



ARDNŞ rəhbərliyi, şirkətin sıravi əməkdaşları gələcəklə yaşayırlar. Məhz bu fikri rəhbər tutaraq, şirkətin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev məncə, uzaqgörənliklə hər il Bakıda "Xəzər neftinin mənimsənilməsinin idarə edilməsi" təşəbbüsü ilə çıxış etmişdir. Perspektivi qabaqcadan yalnız əsl perspektivli adamların görə bilmələri yəqin ki, qanunauyğunluqdur. Aparıcı respublika qəzetlərindən birində bu təşəbbüs neft strategiyasının inkişafında yeni mərhələ adlandırılmışdı. Və bu, doğrudan da, siptomatikdir ki, ölkə prezidenti neft strategiyasının banisi, oğlu isə həmin strategiyanı həyata tətbiq edənlərdəndir.

ARDNŞ-nin şurasında bu ideya ilk dəfə səslənəndə düzü mən güman etmirdim ki, o ictimaiyyətdə belə geniş əks-səda doğuracaqdır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, İlham Əliyevin adı bizdə yeni ideya və təklif assosiasiyası yaradır. O, öz ətrafına ən ağır işlərdən qorxmayan, tədqiq olunmamış yollarla gedə bilən gənc və perspektivli insanları toplamışdır.

**Natiq Əliyev,**
Azərbaycan Respublikası
Dövlət Neft Şirkətinin prezidenti

# İLHAM ƏLİYEV ÖLKƏNİN İCTİMAİ-SİYASİ HƏYATINDA BÖYÜK NÜFUZA MALİK SİYASƏTÇİDİR

"TARİX FENOMEN ŞƏXSİYYƏTLƏRİ YOX,
FENOMEN ŞƏXSİYYƏTLƏR TARİXİ YARADIR".

**Lev Qumilyov**

Tarixdə şəxsiyyətin rolu haqqında çoxlu araşdırmalar aparılıb, çox fikirlər söylənilib. Kəskin ziddiyyətlər, faciəli proseslər, dərin siyasi-iqtisadi böhranlar culğayan ölkənin taleyüklü anında hansı şəxsiyyətin ona rəhbərlik etməsi bu ölkənin tarixi-siyasi taleyində həlledici rol oynayır.

On il əvvəl yenicə müstəqillik qazanmış Azərbaycanı bürüyən xaos, "mənəm-mənəmlik" iddiaları gənc dövlətimizin suverenliyini böyük təhlükə qarşısında qoydu. Bu ağır günlərdə xalqın Vətən üçün yanan, Azərbaycanın taleyini hər şeydən uca tutan nümayəndələri özünün xilaskarına - böyük ictimai xadim Heydər Əliyevə üz tutdu. O vaxtdan çox da böyük olmayan zaman kəsiyinin hər anında bu seçimin doğruluğu düzgünlüyü hər addımda hiss olunur.

XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk Türkiyəni necə xilas etmişdirsə, həmin əsrin sonlarında Heydər Əliyev də Azərbaycanı qlobal məhvolmadan, parçalanaraq bölüşdürülmə faciəsindən xilas etdi. Bu tanrının göndərdiyi xilaskarlıq missiyası idi. Bu missiyanı Heydər Əliyev şərəflə yerinə yetirdi.

Bütün həyatını xalqına, onun əbədi azadlığına, milli müstəqilliyinə həsr edən belə bir fədakar insanın - xalqın xilaskarının oğlu İlham Əliyev artıq dünya miqyasında tanınan və qəbul edilən rasional-praqmatik siyasətçidir. İstər Amerika Birləşmiş Ştatlarının nüfuzlu siyasət, politologiya dairələrindəki çoxsaylı görüşləri, istərsə də Avropa Şurasındakı gərgin, cəsarətli, qalib fəaliyyəti onu dünya miqyasında yeni, çox böyük perspektivləri olan siyasət və dövlət adamı, milli lider kimi tanıtmışdır. Dahi siyasətçi Heydər Əliyevin həyat, siyasət, diplomatiya universitetlərini uğurla bitirən, onun ideyalarının xilaskarlıq qüdrəti, tükənməz Azərbaycan sevgisi ilə silahlanan İlham Əliyev sabahlarımızın ən ümidverici, ən real, əsl ümumxalq sevgisi qazanan lideridir.



90-cı illərin əvvəllərində milli müstəqillik, dövlətçilik məfkurəsi uğrunda mübarizə aparan ÜMUMXALQ HEYDƏRÇİLİK hərəkatının təşkilatlanmış forması olan Yeni Azərbaycan Partiyasının öncüllərindən biri də İlham Əliyev idi.

İlham Əliyevin siyasi imicini təmtəraqlı bəyanatlar deyil, əməl, əqidə, cəmiyyət və işlərin dinamikası müəyyənləşdirir. Hələ 1997-ci ilin noyabrında çox nüfuzlu biznesmenlərin və tanınmış siyasətçilərin iştirak etdiyi mötəbər konfransda İlham Əliyev demişdi: "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır... Məndən soruşsalar ki, müasir Azərbaycan necə ölkədir, onda fəxrlə deyərəm: Azərbaycan bu gün sabit və inkişaf edən bir ölkədir. Azərbaycan bu gün demokratik və inkişaf yolu ilə irəliləyən müstəqil, dünyəvi və humanizm duyğuları ilə silahlanmış bir ölkədir".

Ötən il Yeni Azərbaycan Pratiyasının II qurultayında nümayəndələr onu yekdilliklə partiya sədrinin birinci müavini seçdilər. O, çox qısa çıxış etdi: "Biz əsrin neft müqaviləsi ilə məmləkətimizin dirçəldilməsində çox-çox uğurlu bir addım atdıq, qoy özlərini müxalifət sayanların hamısı bilsin ki, biz xalqı, torpağı düşünürük, tam xoşbəxt günlərə addım-addım da olsa irəliləyirik. Sağlıq olsun, bütün neft yataqlarımız tam istismara veriləndən sonra ildə 50 milyon ton neft istehsal edəcəyik. Əzəmətli neft fondu yaratmışıq. Azərbaycan qazını Türkiyəyə göndərmək üçün müqavilələr imzalanıb... Artıq elektrik stansiyalarımız qazla işləyir. Bu, ekologiyamızın sağlam ürəyi üçün hava-su kimi lazım idi. Bir cəhət də var: yüz min tonlarla mazut qazancımız qalacaq ki, onu da xaricə ixrac edib, büdcəmizə nə qədər gəlir gətirəcəyik".

İlham Əliyevin bu sözləri həyati reallığa, həqiqətə söykənib. Siyasətçinin siyasi gücü də məhz sözü ilə əməlinin bütövlüyündədir.

Azərbaycan iqtisadiyyatına investisiyalar cəlb olunmasında, xarici şirkətlərin ölkəmizə marağının yüksəlməsində, "Əsrin kontraktı"nın imzalanmasında, Azərbaycan neftinin şöhrətlənməsində İlham Əliyev faktoru həmişə xüsusi əhəmiyyət kəsb edib. Həyata keçirilən neft strategiyasının uğur qazanmasında, təkcə iqtisadi deyil, həm də ciddi geosiyasi əhəmiyyət daşıyan Ba-

kı-Ceyhan neft ixracı kəməri ilə bağlı müqavilələrin imzalanmasındakı əvəzsiz xidməti İlham Əliyevə işgüzar, bacarıqlı təşkilatçı nüfuzu qazandırmışdır. Artıq bu sahədə qazanılan uğurlar Azərbaycan neft sənayesinin daha da inkişafına, yeni mərhələyə qədəm qoymasına tam inam yaradır. Dövlət Neft Fondunda vəsaitlərin günü-gündən artması, Azərbaycanın iqtisadi reytinqinin yüksəlməsi İlham Əliyevin sükançısı olduğu neft strategiyasının doğru seçimini bir daha sübut edir.

Yüksək peşəkarlıq nümayiş etdirərək imzalanmış kontraktların reallaşması, yeni müqavilələrin bağlanması və onların icrası İlham Əliyevin ARDNŞ-in birinci vitse-prezidenti kimi məhsuldar fəaliyyəti sayəsində sürətlə həyata keçilmiş, nəticədə respublikanın neft sənayesinin daha da inkişaf etdirilməsi üçün əsaslı zəmin yaradılmışdır. Bu yerdə "Dünya neft sənayesinin tarixi" kitabının müəllifi Daniel Yorkenin sözlərini xatırlamaq yerinə düşərdi: "İlham Əliyevi dünya neft şirkətləri öz sahəsini dərindən bilən bir mütəxəssis kimi tanıyır... Hazırda onun işgüzar rəhbərliyi altında şirkət çox sürətlə inkişaf edir".

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət, onun rəhbərliyi ilə ölkədə aparılan irimiqyaslı islahatlar Azərbaycanın beynəlxalq aləmdə risklik dərəcəsi az olan, etibarlı investisiya mühiti yaradılan dövlətə çevrilməsinə imkan vermişdir. Bu sahədə millət vəkili İlham Əliyev təşəbbüskarlığının, iqtisadi inkişafa rəvac verən təşkilatçılığının rolu böyükdür. Həyata keçirilən məqsədyönlü siyasət dünyanın aparıcı şirkətlərinin Azərbaycan iqtisadiyyatına investisiya marağının artmasına, nəticə etibarilə iqtisadiyyatımızın müxtəlif sahələrinə sərmayə qoyuluşunun çoxalmasına gətirib çıxarmışdır. Belə ki, son illərdə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə yönəldilmiş 8,7 milyard ABŞ dolları həcmində sərmayənin 6 milyard dollarının xarici investisiyalar təşkil etməsi Azərbaycanın, dövlətimizin başçısı Heydər Əliyevin, eləcə də ölkənin siyasi-iqtisadi nüfuzunun artmasında misilsiz xidmətləri olan İlham Əliyevin danılmaz uğurlarıdır. Təkcə 2001-ci ildə Azərbaycan iqtisadiyyatına 1,6 milyard dollar investisiya yatırılmışdır ki, bu, MDB dövlətləri arasında ikinci göstəricidir. Bütün bunlar mühüm uğurlar, böyük müvəffəqiyyətlərdir.

Son illərdə Azərbaycanda idmanın inkişafındakı uğurlarımız da məhz İlham Əliyevin bu sahəyə diqqət və qayğısının nəticəsidir. İndi Azərbaycanda Milli Olimpiya hərəkatı böyük vüsət alıb. İdmanın müxtəlif növləri üzrə Avropa və dünya çempionatlarında Azərbaycan idmançılarının əldə etdiyi nailiyyətlər buna əyani sübutdur.



Bu uğurların zirvəsini XXVII yay olimpiya oyunlarında Azərbaycan idmançılarının, Milli Olimpiya Komitəsinin əldə etdiyi qələbələr təşkil edir.

İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti kimi səmərəli fəaliyyəti nəticəsində Sidneydə Azərbaycan bayrağı ən sivil dövlətlərin bayraqları ilə yanaşı dalğalandı.

İlham Əliyev Respublikamızda idmanın geniş vüsət almasına, Azərbaycanın hər bir bölgəsində gənclərin idmanla məşğul olması üçün şərait yaradılmasına əlindən gələn köməyi əsirgəmir. Bakıda Milli Olimpiya Mərkəzinin istifadəyə verilməsi, Gəncədə, Şəkidə, Naxçıvanda idman komplekslərinin tikintisi İlham Əliyevin köməkliyi sahəsində mümkün olmuşdur. Ölkədə idmanla məşğul olanların sayı gündən-günə artır. Cəsarətlə demək olar ki, Azərbaycanda lideri İlham Əliyev olan sağlam, gözəl gənc nəsil yetişir.

İnanırıq ki, İlham Əliyevin diqqəti və qayğısı nəticəsində 2004-cü ildə Afinada keçiriləcək olimpiadada da Azərbaycan idmançıları böyük uğurlar əldə edəcək, ölkəmizin bayrağı yüksəklərə qaldırılacaq, dövlət himnimiz səslənəcəkdir.

İlham Əliyevin əsas məqsədi - dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və inkişafı, ölkədə siyasi sabitliyin təmin olunması, bütün sahələrdə islahatların konseptual əsaslarla davamlı şəkildə aparılması, iqtisadi və sosial tərəqqi, gənclər siyasətinin dövlət səviyyəsində fəal şəkildə həyata keçirilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiyasıdır.

Bu gün Azərbaycan cəmiyyəti İlham Əliyevi Azərbaycan gəncliyinin lideri kimi qəbul edir və tanıyır. Azərbaycan gəncliyi seçimində yanılmayıb. Tarix bu seçimin doğruluğunu hər gün, hər an bir daha təsdiq edir. Çünki, İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, siyasət korifeyi Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun davamçısı, işıqlı ideyalarının daşıyıcısıdır. El məsəlində deyildiyi kimi, ot kökü üstündə bitər.

**Fərhad Əliyev,**
İqtisadi İnkişaf naziri

# YENİ ƏSRİN LİDERİ

Son 7 il ərzində öz sosial-iqtisadi inkişafının yeni bir mərhələsini yaşayan Azərbaycanın siyasi mühitində də inkişaf, saflaşma prosesi gedir. Müasir dünya gerçəkliklərinin - sosial iqtisadi proseslərin yüksələn dinamizmi, yeni ümumbəşəri dəyərlərin formalaşması, ölkələrarası münasibətlərin yeni əsaslarla qurulmasını dərk edə bilməyən savadsız, şəxsiyyət kimi formalaşmamış, boşboğaz populist və avantüristlərin siyasi arenada fəaliyyət imkanları məhdudlaşır. Dayanıqlı və sabit inkişafda olan ölkədə yeni və parlaq bir lider özünü təsdiqləyir.

Çoxşaxəli, çoxcəhətli və effektiv ictimai-siyasi fəaliyyəti ilə yeniləşən siyasi mühitin bu yeni liderinin YAP sədrinin birinci müavini, ARDNŞ-nin birinci vitse-prezidenti, MOK-un prezidenti, millət vəkili İlham Əliyev olması yəqin ki, heç kəsdə şübhə doğurmur. Əlbəttə, bu, özünütəsdiq - İ.Əliyevin istedadlı bir siyasətçi kimi formalaşması, Azərbaycan siyasi tarixinin ən böyük zirvələrindən biri olan H.Əliyevdən kənarda mümkün deyildi. Çünki tale İ.Əliyevə Azərbaycanın ötən əsrin 70-ci illərindən sonrakı inkişafını daha dərindən dərk etməyə, bu inkişafın səbəbləri ilə daha dəqiq tanış olmağa imkan vermişdir. 1970-80-cı illərdəki inkişafın nəticələrini bütövlükdə Azərbaycan xalqı görürdü və qiymətləndirirdi. On ildə - 1970-80-cı illərdə tikilən 22 milyon kv.m mənzili, 250-dən çox nəhəng sənaye müəssisəsini, milli gəlirin 2,5 dəfə, sənaye istehsalının 2,7 dəfə artımını görməmək və qiymətləndirməmək mümkün deyildi. Azərbaycanın mədəni və mənəvi inkişafına, Azərbaycan dilinin və tarixinin təbliğinə göstərilən qayğı da bu illərin real faktı idi. Azərbaycanın dahi şəxsiyyətlərinin böyük sənətkarlıqla hazırlanmış abidələri, Azərbaycan tarixinə həsr edilmiş romanlar, filmlər və s. bu real faktı təsdiqləyir və 70-80-cı illərin Azərbaycan intibahı əslində heç kəsdə şübhə oyatmır. Ancaq bu inkişafı, bu özünəməxsus intihabı yüksək qiymətləndirən Azərbaycan xalqına inkişafa nail olmaq üçün aparılan fəaliyyətin çox cəhətləri məlum deyildi. Sovetlər İttifaqının idarəetmə mexanizmi daxilində bu nəticələri əldə etmək üçün gərgin zəhmət, xüsusi idarəetmə qabiliyyəti ilə birgə böyük siyasi iradə, siyasi ardıcıllıq, incə siyasətçi manevrləri tələb olunurdu. Bu cəhətlər olmadan ölkənin inkişafına lazım olan resursları mərkəzdən - Moskvadan almaq mümkün deyildi. Bu mürəkkəb cəhətlərdən söhbət açan H.Əliyev



YAP-ın 2-ci qurultayında özü qeyd etdi ki, 1975-ci ildə tikilən müasir zavodun - Kondisioner zavodunun Azərbaycana gətirilməsi üçün 2 il mübarizə aparmağa məcbur olub. Beləliklə, geniş kütlələr üçün qapalı olan bu mübarizəni - öz xalqının, ölkəsinin inkişafı naminə aparılan ardıcıl siyasət və siyasi fədakarlığın bütün detalları İ.Əliyev üçün məlum idi. Buna görə də əminliklə söyləmək olar ki, İ.Əliyev H.Əliyev siyasət universitetinin ən istedadlı və ən parlaq məzunudur.

İ.Əliyev böyük siyasətçinin layiqli silahdaşı olmasını artıq öz praktik fəaliyyəti ilə təsdiqləyə bilib.

İ.Əliyevin ölkənin ən böyük müəssisəsi - ARDNŞ-nin birinci vitse-prezidenti kimi fəaliyyəti Azərbaycanın yeni neft tarixinə çox parlaq səhifələr yazılmasında şübhəsiz ki, əhəmiyyətli rol oynayır. İ.Əliyev YAP-ın 2-ci qurultayında Azərbaycanın neft sferasındakı 7 illik fəaliyyətin başqa ölkələrin 20 illik fəaliyyətindən səmərəli olduğunu iddia etməkdə haqlı idi. Çünki bu 7 il ərzində neft çıxarılması üzrə müqavilələrin sayı 21-ə qədər yüksəlib. 14 ölkədən 30 böyük neft şirkəti Azərbaycan neft sferasına cəlb edilib. İmzalanma anında bəzilərinin reallaşmasına şübhə ilə yanaşdığı "Əsrin müqaviləsi" artıq öz real gücünü göstərib. Neft Fonduna 500 milyon dollara qədər vəsait yığılıb və yığılan vəsaitdən 185 milyard manata qədəri müxtəlif sosial problemlərin həllinə yönəldilib. Ancaq bütün bu inkişafa aparan yollar hamar olmayıb və İ.Əliyev müsahibələrindən birində özü də qeyd edir ki, 1994-cü ildə xarici şirkətləri Azərbaycan neftinə investisiya qoymağa inandırmaq çətin idi. Siyasi sabitliyin kövrəkliyi investisiyaların riskliyini yüksəldirdi. H.Əliyevin ardıcıl siyasəti ilə kövrək sabitlik dayanıqlı sabitliyə çevrildi və ardıcıl səylər artıq öz bəhrəsini verir. H.Əliyev neft diplomatiyasının başqa bir mühüm istiqamətində - Xəzər enerji resurslarının dünya bazarlarına etibarlı nəqlinin təmin edilməsində də İ.Əliyevin təşkilatçılıq və siyasətçilik qabiliyyətləri özünü aşkar göstərib. Çox illik danışıqların, müzakirələrin ən fəal iştirakçılarından biri kimi İ.Əliyevin fəaliyyəti H.Əliyevin enerji resursları marşrutları ilə bağlı strategiyasının reallaşmasında mühüm rol oynayıb.

İ.Əliyevin parlaq təşkilatçılıq fəaliyyəti özünü təkcə neft sferasının inkişafında göstərməyib. MOK-a prezident seçilən İ.Əliyev çox sadə, ancaq çox effektli bir tezis irəli sürdü: "Biz idmançılara şərait yaradacağıq və onlardan nəticə tələb edəcəyik". İdmançılara şərait yaradıldı. 1997-ci ildə MOK cəmi 217 milyon 350 min manat vəsait sərf etmişdi. 2000-ci ildə MOK-un sərf etdiyi vəsait 14 milyard 829 milyon manata qədər artdı. İdmançılar yaradılan

476
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

şəraitə uyğun nəticə göstərə bildilər. Sidney olimpiya oyunlarında Azərbaycan 199 ölkə arasında 34, Avropa ölkələri arasında 23-cü yeri tutdu. Azərbaycan MOK-nun səmərəli fəaliyyəti artıq beynəlxalq miqyasda da təsdiqlənib və Beynəlxalq Olimpiya Komitəsinin Romada keçirilən iclasında Azərbaycan MOK-nun fəaliyyəti inkişaf etməkdə olan ölkələrə nümunə kimi təqdim olunub. Azərbaycana bu hərəkatın təkmilləşməsi və maddi-texniki bazanın gücləndirilməsi üçün qrant ayrılıb. Bu faktlar İ.Əliyevin effektiv idarəetmə fəaliyyətini tamamilə təsdiq edir.

İ.Əliyevin partiya və parlament fəaliyyəti peşəkar idarəetmə qabiliyyətinə malik olan gənc liderin daxili və beynəlxalq siyasət məsələlərinə yanaşmada da əhatəli, effektiv kurs formalaşdırmaq, bu kursu ardıcıl həyata keçirmək bacarığından xəbər verir. İ.Əliyev 1995-ci ildə Qaradağ rayon sakinləri tərəfindən millət vəkili seçilmişdi. 6 il sonra Milli Məclisə partiya siyahısının lideri kimi yenidən deputat seçilən İ.Əliyev öz keçmiş seçicilərinin qarşısında alnıaçıq çıxış edə bilirdi və qeyd edirdi ki, ona etimad göstərənlərə xidmət etməyə borclu idi. Bu görüşdə İ.Əliyev çox haqlı olaraq qeyd edirdi ki, mən vəd vermək deyil, görülən işlər barədə məruzə etməyi xoşlayıram. Doğrudur, siyasi təvazökarlıq İ.Əliyevə 1995-ci ildə ona etimad göstərmiş Qaradağ sakinlərinə görülən işlər barədə ətraflı məruzə etməyə imkan vermirdi. Lakin görüşün başqa iştirakçıları həyata keçirilən işləri qeyd etməyə bilməzdilər. Çünki 5 il ərzində bir rayonun - Qaradağın çox problemi öz həllini tapmışdır. Lökbatandan Qızıldaşa gedən 15 km-lik yol, qəsəbədə xəstəxana və telefon qovşağının bərpası, tikilməsi, Qarabağ əlilləri və şəhid ailələrinin evlə təmini, Səngəçal və Umbakı qəsəbələrində təcili tibbi yardım stansiyaları, ATS-lərin istifadəyə verilməsi, 82 şəhidə qəbirüstü abidə, 3 Milli Qəhrəmana tunc büst hazırlanması və başqa görülən işlər doğrudan da sübut edir ki, İ.Əliyev vəd verən siyasətçi deyil. İ.Əliyev problemləri həll edən və həll edilmiş problemlər barədə çox təvazökarlıqla xalqa, müdrik ölkə başçısına - H.Əliyevə məruzə edən siyasətçidir.

Ölkə daxilində sivil siyasi münasibətlərin tərəfdarı olan İ.Əliyevin parlament fəaliyyətinin başqa bir istiqaməti - AŞPA-da Azərbaycan nümayəndə heyətinin başçısı kimi işi gənc liderin Beynəlxalq münasibətləri hərtərəfli təhlil etmək, yeni dünya qaydalarının yaranması yolunda olan maneələri ətraflı görmək və ictimaiyyətə çatdırmaq, bu maneələrə qarşı cəsarətli mübarizə aparmaq qabiliyyətindən xəbər verir. 2001-ci ilin aprelində AŞPA-nın "Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi məsələsinin müzakirəsində çıxış edən İ.Əliyev Azərbaycanın Dağlıq Qarabağ faciəsini, onun səbəblərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq, bu problemin həlli üçün erməni separatçılarına beynəlxalq təzyiqin artırılmasını tələb etməklə birgə "çirkli pullarla" beynəlxalq terrorizmin sıx əlaqəli olduğunu faktlarla göstərirdi.

Strasburqdakı başqa bir çıxışında İ.Əliyev beynəlxalq terrorizmə qarşı mübarizədə cəsarətli bir lider, cəsarətli bir siyasi kurs tərəfdarı olduğunu sübut edirdi. AŞPA tribunasından İ.Əliyev bəyan edirdi ki, Ermənistanın Azərbaycanda həyata keçirdiyi 32 terror aktı nəticəsində 2 min nəfər günahsız vətəndaş öldürülüb. İ. Əliyevin bu çıxışı göstərdi ki, onun fəaliyyəti, 11 sentyabr terrorundan sonra dünyada yaranan yeni situasiyadan Azərbaycan problemlərinin həlli üçün istifadə etməyə çalışan çevik və praqmatik siyasi kursla məhdudlaşmır. Çünki H.Əliyev siyasi strategiyasını bütün incəlikləri ilə əxz edən İ.Əliyevə qlobal beynəlxalq problemlərin təkcə çevik praqmatizmlə həllinin mümkün olmadığı bəlli idi. İ.Əliyevə məlumdur ki, qlobal beynəlxalq problemlər prinsipi yanaşmalarla həll olunur və min illik zirvəsində çıxış edən möhtərəm H.Əliyev bu prinsipial yanaşmanın əsas istiqamətlərini öz nitqində aşkarlamışdır. H.Əliyev qeyd etmişdi ki, "ədalətli və təhlükəsiz dünya qaydası yaratmaq üçün çətin yol keçmək lazım gələcək və biz hamımız bu məqsədə can atmalıyıq".

AŞPA çıxışında İ.Əliyev H.Əliyevin bu xəttini inkişaf etdirirdi və bəyan edirdi ki, "təkcə ABŞ-da dəhşətli terror aktlarını törədənlərə qarşı deyil, dünyada terrorizmin bütün formalarına qarşı genişmiqyaslı antiterror kampaniyasını başlamağın və terrorizm ilə savaşda çox ciddi addım atmağın vaxtı çatmışdır".

Əlbəttə, bu bəyanat beynəlxalq problemlərin həllinə düzgün ədalətli yanaşmanın nümunəsi sayıla bilər və şübhəsiz ki, belə prinsipal və ədalətli xətt - H.Əliyev xətti və bu xəttin reallaşmasında Əliyevlərin cəsarətli praktik fəaliyyəti son nəticədə Azərbaycanın bu ağrılı problemlərinin həllini şərtləndirir.

Bütün bu çoxşaxəli və effektiv fəaliyyət qloballaşan dünyada öz şərəfli yerini tutmağa çalışan Azərbaycanın ən böyük partiyası - Azərbaycan cəmiyyətinin intellektual hissəsinin toplandığı və daim yeniləşmə prosesləri getdiyi YAP-dan tələb edirdi ki, Azərbaycan siyasətindəki bu yeniliyə-novator və milli liderə diqqətlə yanaşılsın. YAP yeniləşmə və inkişaf partiyası olduğunu sübut etdi və qısa müddət ərzində İ.Əliyev 230 min nəfərlik nəhəng partiya-

nın sədrinin 1-ci müavini seçildi.

Partiyanın seçimi uğurlu və çox düzgün oldu. Çünki partiya rəhbərliyində çox yüksək vəzifələrdən birinə seçilən gənc lider həm də siyasi cəsarətinə görə seçilir və İ.Əliyev öz müsahibələrindən birində də bildirib ki, o, prinsipcə hər bir mübarizəyə hazırdır. İ.Əliyev mübarizəyə hazırlığını, mübarizələrdən qorxmadığını indiyə qədər olan fəaliyyəti ilə də sübut edib. Qorbaçov, daşnak tör-töküntüləri H.Əliyevə qarşı hər cür fitnə-fəsad törədəndə, H.Əliyevə qarşı açıq-gizli terrorlar kütləviləşəndə H.Əliyevin bu avantürist dəstələrlə mübarizəsinə İ.Əliyev də hazır idi və o, bu mübarizədə H.Əliyevin əsas silahdaşlarından biri idi. Siyasi mübarizələrdə möhkəmlənmiş İ.Əliyevin bu gün də mübarizə aparmağa hazır olması şübhə doğurmur və bu mübarizənin motivləri bəllidir. YAP-ın 2-ci qurultayında çıxış edən İ.Əliyev öz nitqində qeyd edirdi ki, bu gün hər bir ağıllı adamdan soruşsan ki, o geriyə - xaos və hərc-mərcliyin hökm sürdüyü illərə qayıtmaq istəyərmi? Şübhəsiz ki, "yox" cavabı verər. İ.Əliyev bilir ki, kiçik və cılız siyasi qruplardan başqa Azərbaycan xalqının əksəriyyəti geriyə dönmək istəmir. Xalq irəli getmək istəyir və xalqın bu istəyi gənc liderə hər bir mübarizəyə hazır olmaq cəsarəti aşılayır.

**Tahir Budaqov,**
Əmək və Əhalinin Sosial Müdafiəsi
Nazirinin müavini,
YAP Siyasi Şurasının üzvü



## XALQ MƏHƏBBƏTİ

İnsan üçün ən böyük xoşbəxtlik, ən şirin səadət, ən müqəddəs bəxtəvərlik odur ki, onu duyalar, anlayalar, nəhayət, ona inanalar. İnanalar ki, Günəş öz əzəli və əbədi yoluyla qalxıb üfüqdə görünməsə, zülmət qaranlığın bağrı sökülməz!.. İnam elə bir nemətdir ki, o satılmır, alınmır, güzəşt edilmir, pay verilmir. Onu yalnız insan özü qazanır. Öz ağlı, zəkası, müdrikliyi, Vətən, xalqsevərliyi, ləyaqəti, şərəfi, əməli, hünəri ilə etimad nərdivanının ən uca pilləsinə yüksəlir. Niyə uzağa gedək. Elə ömrünün ən şirin çağlarını yaşayan, milyonların etimadını qazanan İlham Əliyev kimi.

Böyük azərbaycanlı, milli ədəbiyyatımızın və hərb tariximizin öndərlərindən biri, söz və qılınc sərkərdəsi Şah İsmayıl Xətai hakimiyyətə gələndə 14-15 yaşı olardı. Şübhəsiz, kamil idarəçilikdə, rəhbərlikdə təcrübəsiz idi. Lakin zaman-zaman sınaqlardan çıxmış, sınmayan, əyilməyən, milyonlara örnək olası qan yaddaşı vardı onda. Hər dəfə əlinə qələm, qılınc alanda həmin o qan yaddaşı onu gələcək uğurlara çağırar, həvəsləndirərdi. Və bu sözlər onun dilinin əzbəri olmuşdu: bütün insanları, istər hökümdar olsun, istərsə də rəyyət, fərqi yoxdur, hamını Allah-təala yoxdan var edib. Yaradanımızın dərgahı altında can deyib, can eşitməliyik. Bizlərin amalı, məqsədi bir olsa, heç vaxt, heç vədə basılmarıq.

Tanrı müqəddəs ruhunu şad etsin, ulu şəxsiyyət! Belə idrak sahibi olubsan ki, neçə-neçə illər doğma Azərbaycanımızın bütövlüyü, daha da möhkəmliyi uğrunda ardıcıl çalışmısan, çarpışmısan. Səngimək, yorulmaq bilmədən mübarizə aparmısan. Bu cəhətlərinə görə xalqımız səni sevib, yaşaya-yaşaya başına and içib, şərəfli adını milli tariximizə əbədi yazıb. Dirili Qurbani demiş: "Şıx oğlu, şıxın", fiziki yoxluğundan əsrlər keçsə də, mənəvi varlığı önündə yenə də sitayiş edirik.

Tarix boyu xalqımızın ən böyük arzusu müstəqillik qazanmaq, azadlığa çıxmaq olub. Budur, artıq on ildir ki, bu istəyimizə çatmışıq. İmperiyanın əsa-

rət boyunduruğundan canımız, boynumuz qurtulub. Lakin görəcəkli, arzuolunmaz günlərimiz heç demə hələ irəlidəyimiş. Son on il ərzində nələr görmədik, nələr eşitmədik?! Doğrudanmı hakimiyyət belə dadlı-məzəli bir şey imiş ki, onun hərisliyindən qardaş-qardaşa atəş açır, soydaş-soydaşını didib parçalayır?! Nə yaxşı ki, bütün olayların hamısı qərəzsiz, etibarlı tarixin vərəqələrinə yazılır. Yoxsa gələcək nəsil bilməz ki, kimdir haqlı?! Amma elə məqamlar var ki, onların bəzilərini açıqlamaq zorundayam.

Ölkə başçısının Amerika Birləşmiş Ştatlarına rəsmi səfərini xatırlayıram. O, xəritə önündə dayanıb müxtəlif şirkət sahiblərinə, iş adamlarına, hökumət nümayəndələrinə torpağımızın bərəkətli, sərvətli olmasından fərəhlə, iftixarla məlumatlar verirdi. Ekrandan görürdüm ki, həmin adamlar necə həvəslə, maraqla prezidentimizi dinləyirlər... Bütün bunlara əlbəttə, sevinmək gərəkdir.

Azərbaycan hər birimizin can evidir, gor mənzilidir. Ona arxadan zərbə vurmaq kişilikdən deyil. Xalq şairi Məmməd Araz demiş, Azərbaycan deyəndə gərək ayağa duraq ki, yadlara, əcnəbilərə də örnək olsun.

H.Əliyev elə bir uca dağdır ki, onun zirvəsinə qalxmaq olduqca müşkül məsələdir. Və gəlin unutmayaq ki, prezident həm də ölkənin müqəddəslik statusuna malik atributlarından biridir!

Bəli, bu inkarolunmaz faktdır ki, İlham Əliyev şöhrətli, doğma diyarımızı qarış-qarış tanıyan, onun tərəqqisi uğrunda gecə-gündüz can yandıran Heydər Əliyevin ocağında, ailəsində dünyaya göz açıb. Bəlkə də həyatda mümkün olan və olmayan çox hadisələrdən kənar durmaq olar. Ancaq qan yaddaşı adamın əlindən tutub, ardınca çəkir. Hətta belə arzulasan da, ondan yaxa qurtarmaq olmaz! İlham Əliyevin qan yaddaşı safdır, durudur. Dünyanı dərk edən çağdan ailədə zəhm, bənzərsiz valideyn tərbiyəsi görüb. Görüb ki, sınmaz, əyilməz ata qüruru var. Bilib ki, ipək qədər zərif ana südü əmib.

Heydər Əliyevi çağdaş dövrümüzdə heç kəs əvəz edə bilməz. Çoxları prezident kürsüsünə meyillidir. Çoxları düşünür ki, mən sabah ölkəni idarə edə bilərəm. Doğrudanmı belədir? Lakin deyə bilərəm ki, ölkə başçısı olmaq üçün mütləq adamda ləyaqət gərəkdir. Ən azı İlham Əliyevdə olan şərəf, ləyaqət, ucalıq kimi. İlham Əliyev o qədər sadə, o qədər insanpərvər, xoşrəftar bir şəxsiyyətdir ki, onun haqqında saatlarla danışmaq mümkündür.

Bir çox ölkələrlə, dövlətlərlə müqayisədə Azərbaycan kiçik bir ölkədir. Necə deyərlər, lap ovuc içinə sığışar. Amma onun şanlı tarixi var. Şah İsmayıl Xətaidən tutmuş indiki dövrə qədər olan siyasi xadimləri xatırlayarkən ilk



öncə yada söz-sənət ustaları düşür. Hansı bir diyarın Həsənoğlu, Nizami, Füzuli, Xəqani, Nəsimi, Şah İsmayıl kimi söz və qılınc sərkərdəsi olub. Hansı bir xalqın "Şeyx Səfi" xalısı tək, "Möminəxatun" türbəsi kimi abidəsi var?!.. Xalqımız qədirbilənlər yanında həmişə ucalıb, sevilib, məhəbbətlə yad olunub.

Mən bu gün çox böyük iftixar hissi ilə demək istəyirəm ki, əslində buna mənəvi ehtiyac duyuram. Keçmişimizin şanlı ənənəsi bu gün də davam edir. İlham Əliyev təkcə dünya şöhrətli bir ailənin övladı deyil, o həm də ləyaqətli keçmişi olan bir xalqın gələcəyidir.

Strasburqda, Avropa Parlament Assambleyasında onun çıxışını dinləyən hər bir azərbaycanlı iftixar hissi keçirirdi. Erməni daşnaklarının xalqımızın əleyhinə olan çıxışlarına ilk cavab verən İlham Əliyev oldu. Onun hər bir uğuru, məhz Azərbaycanımızın şöhrətidir. Onun ingilis dilində geniş əhatəli çıxışı özünün mənsub olduğu xalqın inkişafından, tərəqqisindən xəbər vermirmi? Bəli, bu gün iftixar hissi ilə qeyd etməyi vacib bilirəm ki, İlham Əliyevin uğuru, məhz Azərbaycanımızın uğuru, şöhrətidir, gəncliyimizin təntənəsi, qələbəsidir.

İlham Əliyev səmimiyyəti çağdaş dövrümüzün ictimai-siyasi olaylarında fəaliyyət göstərən gənclərə nümunə, örnək olmalıdır. Mən ona qadir şəxsiyyət kimi baxıram.

İlham Əliyev millət vəkilidir. Daha doğrusu, o, öz seçicilərinin ümid, pənah ünvanıdır. Ona müraciət edənlərin yardımçısı, kömək əlini uzadanıdır. Yüzlərlə belə misal çəkmək olar. Milli Məclisdə 125 nəfər deputatın ən həssası, qədirbiləni, qayğı göstərənidir. İşinin çoxluğuna baxmayaraq o, Milli Məclisdə çoxsaylı şikayətçiləri, gileyliləri qəbul edir, onlara qayğı göstərir.

Bütün bunlar isə təsadüfi deyil. Yeddi il əvvəl Azərbaycan elə bir vəziyyətdəydi, elə xaosa düçar olmuşdu ki, heç bir xarici investor bu ölkədə iş görəcəyini belə ağlına gətirə bilməzdi. Ancaq qısa zaman kəsiyində ölkəmizin simasını beynəlxalq aləmdə məhz Heydər Əliyev tanıtdı, "Əsrin müqaviləsi" imzalandı. "Bakı-Ceyhan" kəmərinin çəkilişi reallaşdı. Bir çox dayanmış müəssisələr işə düşdü. İnkişaf layihələrimiz dövlət büdcəsinə milyardlarla manat həcmində vəsait gətirdi".

Bu inamlı, dəyərli sözləri İlham Əliyev cəsarətlə deyir. Əgər görülən iş üz ağardırsa, onu dilinə gətirmək, gördüyü işlə fərəhlənmək yazılmamış qanundur. Xalqın etimadını qazanmaq, onu işıqlı sabahlara çağırmaqdan böyük, ülvi, müqəddəs heç nə yoxdur.

Ölkədə həyata keçirilən nəhəng işlərə gənc mütəxəssislərin cəlb olunmasında İlham Əliyevin əvəzsiz xidmətləri var.

İnsan üçün ən böyük məhəbbət odur ki, xalq onu sevsin, ona inansın. Zənnimcə, bu sözləri İlham Əliyevə aid etmək yerinə düşər. Yəqin ki, hər bir azərbaycanlı Sidney olimpiadasını unutmayıb. İlham Əliyevin yaxından köməyi ilə Azərbaycan idmançıları Sidneydə üçrəngli bayrağımızı yüksəkliklərə qaldırdılar. O vaxtdan çox keçməyibdir. Ancaq bu qısa bir zamanda Azərbaycanda Milli Olimpiya hərəkatı böyük vüsət aldı. Son illər idmanın müxtəlif növləri üzrə Avropa və Dünya çempionatlarında Azərbaycan idmançılarının əldə etdiyi nailiyyətlər buna əyani sübutdur. Bunların hamısının zirvəsini XXVII yay olimpiya oyunlarında Azərbaycan idmançılarının, Milli Olimpiya Komitəsinin əldə etdiyi nailiyyətlər təşkil edir.

İlham Əliyev respublikamızda idmanın geniş vüsət almasına, Azərbaycanın hər bir bölgəsində idmanla məşğul olmaq üçün şərait yaradılmasına çalışır. Fəxrlə demək olar ki, Azərbaycanda indi idmana həqiqətən böyük axın vardır. İdmanla məşğul olanların sayı gündən-günə artır. Cəsarətlə demək olar ki, İlham Əliyevin rəhbərliyi altında gözəl gənc nəsil yetişir.

Səmimi deyirəm: İlham Əliyevin vətənpərvərliyi məni heyran edib. İdmançılarımızın hər bir qələbəsinə ürəkdən sevinir. Dünya ölkələrinin bayraqları sırasında respublikamızın bayrağı dalğalandıqca ürəyimiz fərəh, iftixar hissi ilə dolur. Son illərdə Azərbaycan idmançıları böyük uğurlar, yaddan çıxmayan qələbələr əldə ediblər. İnanırıq ki, 2004-cü ildə Afinada keçiriləcək olimpiadada da Azərbaycan idmançıları böyük uğurlar əldə edəcək, ölkəmizin bayrağı qaldırılacaq, dövlət himnimiz səslənəcəkdir. O tarixi möhtəşəm qələbələrlə dolu illərə millət vəkili, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin rəhbərliyi sayəsində qovuşacağıq.

**Nazim Hüseynli,**
Ali Diplomatiya Kollecinin
Rektoru, professor



# HEYDƏR ƏLİYEV ZƏKASINDAN VƏ QƏTİYYƏTİNDƏN PƏRVAZLANAN YENİ AZƏRBAYCAN PARTİYASI...

Partiyamızın sədri, hörmətli prezidentimiz Heydər Əliyevin son 8 ildə gərgin əməyi, ümummilli mənafeyə xidmət edən strateji siyasi kursu Azərbaycanda azad, demokratik vətəndaş cəmiyyətinin qurulmasına şərait yaratmış və sərbəst siyasi rəqabət, insanların daxili potensialının reallaşdırılması üçün əlverişli mühit formalaşdırmışdır. Bu gün respublikamızda yüksək intellektual səviyyəsi, siyasi dünya görüşü, idarəetmə bacarığı ilə fərqlənən yeni siyasətçilər nəsli yetişir. Daim cəmiyyətdə gənclər rolunun artmasına böyük qayğı göstərmiş prezident Heydər Əliyevin YAP-ın I qurultayında qəti inamla - "YAP XXI əsrin III minilliyin partiyasıdır. Buna görə də gərək gənc kadrlarımız üzə çıxsın, özlərini müxtəlif sahələrdə sınaqdan keçirsin, təcrübə toplasın, yaratdığımız bu bünövrənin təməli üzərində qalxan, ucalan ən uca bir dövlətə çevrilən Azərbaycanı irəliyə aparsınlar" - deməsi Azərbaycan gəncliyini siyasi fəallığa, idarəçiliyə cəlb edən çağırışdır.

Məlum olduğu kimi, YAP cəmiyyətin artmaqda olan ictimai-siyasi tələbatına cavab olaraq meydana gəlmişdir. Təbii axarından çıxaraq ölkəni fəlakət uçurumuna doğru aparan başıpozuq siyasi prosesləri tənzimləmək, millətə nicat yolunu göstərmək kimi məsuliyyətli və şərəfli bir tarixi vəzifəni yerinə yetirmək ehtiyaclarından meydana gəlmişdir.

Ötən illər ərzində iqtidar partiyası olaraq YAP xalqımızın milli nicatı böyük qüdrət sahibi Heydər Əliyevin rəhbərliyi ilə ölkədə genişmiqyaslı islahatların həyata keçirilməsi, dövlətçiliyimizin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin, demokratik prinsiplərin bərqərar olması Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artması yönündə mühüm addımlar atmışdır.

İqtisadi göstəricilərə nəzər saldıqda ötən dövr ərzində ölkənin sosial-iqtisadi inkişafı haqqında daha aydın təsəvvür yaranır. 1991-ci ildən 1995-ci ilə qədər ümumi daxili məhsul 58 faiz, sənaye məhsulu 67 faiz, kənd təsərrüfatı məhsulu 48 faiz azaldığı halda, 1996-2001-ci illərdə ümumi daxili məhsul 57 faiz, sənaye məhsulu 20 faiz, kənd təsərrüfatı məhsulu 30 faiz artmışdır. Həmçinin iqtisadi inkişaf meyarı sayılan kapital qoyuluşu 1991-1995-ci illərdə 43 faiz azalmışdısa, 1995-ci ildən 2001-ci ilə qədər isə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə 9 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da 6 milyard dollarını xarici sərmayələr təşkil edir. 1994-cü ildə və ondan sonra bağlanmış 21 neft müqaviləsi nəticəsində dünyanın 32 nüfuzlu neft şirkəti Azərbaycana 3,5 milyard dollar investisiya qoymuşdur. Təsadüfi deyil ki, Azərbaycan MDB ölkələri arasında adam başına düşən xarici investisiyaların həcminə görə ən çox sərmayə qoyulan dövlətdir. Uğurlu neft strategiyasının nəticəsi olaraq Azərbaycanın neft fonduna 435 milyon dollar vəsait yığılmışdır. Azərbaycanın iqtisadi inkişafını əks etdirən ümumiləşdirilmiş göstərici isə ondan ibarətdir ki, 2000-ci ildən etibarən ilk dəfə olaraq xarici ticarətin dövriyyəsində ixrac idxaldan çox olmuşdur.

1994-cü ildə ölkənin valyuta ehtiyatları 10 milyon dollar olduğu halda, 2001-ci ildə Azərbaycanın valyuta ehtiyatı 1 milyard dollara yaxınlaşmışdır.

Partiyanın qısa vaxtda böyük nüfuz qazanması bir yandan Heydər Əliyev şəxsiyyətinə, onun müdrikliyinə, dövlətçilik təcrübəsinə xalqın böyük etimadı nəticəsində reallığa çevrilmişdisə, digər tərəfdən isə partiyanın sürətli inkişafında onun xalqa təmənnasız xidmət etmək, düçar olduğu fəlakətdən qurtarmaq yolunda yorulmadan mübarizə aparmaq niyyətləri, aydın ideologiyası və vəzifələri mühüm rol oynamışdır. YAP saf amallar üzərində qurulmuş bir partiyadır.

YAP Heydər Əliyev zəkasının, siyasi nüfuzunun, dühasının məhsuludur. Bu gün möhtərəm Heydər Əliyev ziyası ilə pərvazlanan YAP ölkəmizdə qaynar siyasi həyatın aparıcı qüvvəsi olaraq üzərinə götürdüyü tarixi missiyanı uğurla yerinə yetirir.

Hazırda dövlətin gənclər siyasəti mühüm əhəmiyyət kəsb edən bir problemdir. Partiyamız daim yeniləşən, mütərəqqi fikirli insanları öz ətrafında birləşdirən siysi qurumdur.

YAP-da nəsillərin müsbət mənada varislik prinsipinə ciddi əməl edilmişdir. Burada yeni qüvvələrin, istedadlı gənclərin fəaliyyət göstərməsi, öz istedadlarını nümayiş etdirmək üçün müsbət zəmin yaradılmışdır.



Həmçinin 1999-cu ildə YAP-nın I qurultayında Azərbaycan gəncliyinə göstərilən yüksək etimad və cəmiyyətimizin ən qabaqcıl nümayəndəsi, siyasətdə öz sözü, öz ruhu ilə seçilən, ölkənin inkişafının bir çox sahələrində müstəsna xidmətlər göstərən İlham Əliyevin YAP sədrinin müavini seçilməsi gənclərə göstərilən yüksək qayğının nümunəsidir. İlham Əliyevin istər YAP sədrinin müavini vəzifəsinə yüksəlməsi, istərsə də 2001-ci ilin parlament seçkilərində proporsional sistem üzrə YAP-ın siyahısına rəhbərlik etməsi onun çoxşahəli əməli fəaliyyəti nəticəsində ictimai nüfuzunun artdığını sübut edir. İlham Əliyev Azərbaycanda və beynəlxalq aləmdə sərrast diplomatik bacarığı ilə fərqlənməklə yanaşı, həm də xalqa bağlı lider kimi tanınmışdır. Onun millət vəkili kimi seçiciləri də görüşlərində xalqın problemlərini diqqət və qayğı ilə öyrənməsi və ən əsası da verdiyi sözlərə hökmən əməl etməsi, əməli fəaliyyətində xalqla bir olması İlham Əliyevə böyük ictimai rəğbət yaratmışdır. Qaradağ rayonunda genişmiqyaslı quruculuq işləri, şəhid ailələri üçün yaşayış evlərinin tikilməsi İlham Əliyevin əməli fəaliyyətinin bariz nümunələridir. Onun təşəbbüsü ilə Qaradağ rayonunda sosial-iqtisadi inkişafa yardım fondu yaradıldı. Fondun vəsaiti ilə rayonun ərazisində az bir vaxtda böyük işlər görülmüşdür. Lökbatan qəsəbəsində şəhid və əlil ailələri üçün istifadəyə verilmiş 50 mənzilli beşmərtəbəli yaşayış binası və təhvili 2000-ci ilin əvvəllərində nəzərdə tutulan 50 mənzilli daha bir bina, Sahil qəsəbəsində qaçqınlar və məcburi köçkünlər üçün kompleks tipli 110 fərdi yaşayış evi, Qaradağ olimpiya bazasının tikintisi millət vəkili İlham Əliyevin rayonda gördüyü böyük işlərin bir hissəsidir.

Son parlament seçkilərində İlham Əliyevin respublikanın əksər bölgələrində seçicilərlə keçirdiyi görüşlər onun tükənməz siyasi bacarığını və püxtələşmiş siyasətçi kimi xalq tərəfindən dəstəkləndiyini sübut etdi. Görüşlər zamanı İlham Əliyevin xalqın problemlərindən aşkar danışmağın və həlli yollarını tapmağın daha məqbul olduğunu bildirməsi, məsələlərə konkret və aydın yanaşması onun realist siyasətçi imicini möhkəmləndirdi. İlham Əliyev siyasi fəaliyyətdə kifayət qədər təmkinli siyasətçi olaraq - "mən heç nəyə vəd vermirəm, ancaq əməli fəaliyyətimlə göstərəcəm" - demişdir. İlham Əliyev həqiqətən də özünün praktik yaradıcı şəxsiyyət olduğunu gördüyü işlərlə təsdiqlədi. Onun Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi səmərəli fəaliyyəti də göz qabağındadır.

İlham Əliyevin ən məsuliyyətli fəaliyyət dairəsi Avropa Şurasındakı Azərbaycan nümayəndə heyətinə rəhbərliyi ilə bağlıdır. Avropa Şurasının ali

tribunasından Azərbaycanın haqq işini böyük cəsarət və qətiyyət hissi ilə müdafiə edir. Artıq gənclərimizin vahid siyasi lideri formalaşmışdır. İntellektuallığı, analitik təfəkkürü, müasir idarəçilik bacarığı, yüksək ünsiyyət mədəniyyətilə xüsusi nüfuza malik olan İlham Əliyev bu gün gənclərin himayəçisi və lideri kimi artıq cəmiyyətdə qəbul olunmuşdur. YAP-nın I qurultayının qəbul etdiyi ciddi qərarlardan sonra YAP-da təşkilatçılıq işi güclənmiş və o kifayət qədər kütləviləşmişdir. İndi cəmiyyətin İlham Əliyevin liderlik potensialına istinad etməsi, onun partiya rəhbərliyində statusunun artırılması təkliflərinin səslənməsi Heydər Əliyev siyasi kursuna etimaddan, inamdan və onun davamlı olması zərurətindən irəli gəlir.

Bu gün birmənalı şəkildə vurğulamalıyıq ki, artıq Azərbaycan xalqı öz siyasi seçimini edib. Bu dahi Heydər Əliyev siyasi kursunun davam etdirilməsi, dövlətçiliyimiz üçün müstəsna əhəmiyyət kəsb edən müstəqilliyimizin əbədi olmasıdır. Məhz bu dönməz kursun alternativsiz varis kimi İlham Əliyevin liderliyinə böyük inam olduqca təbii qarşılanmalıdır.

İham Əliyevin çoxşahəli fəaliyyətindən biri də Azərbaycanı dünya miqyasında şərəflə təmsil edən, ölkəmizə beynəlxalq görüşlərdə, olimpiya yarışlarında başucalığı gətirən idmançılar ordusunun yetişməsində əhəmiyyətli rol oynayan Milli Olimpiya Komitəsinə rəhbərlik etməsidir.

Respublikamızın paytaxtında ilk dəfə olaraq Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Bu möhtəşəm tədbirin təşkilatçısı YAP-ın sədri, ölkəmizin prezidenti cənab Heydər Əliyevin son illər həyata keçirdiyi ardıcıl, məqsədyönlü xarici və daxili siyasətin məntiqi davamı, ən böyük uğurlardan biridir. Xalqımız bir daha ümid edir ki, möhtərəm Heydər Əliyevin zəhməti və təşəbbüsü ilə keçirilən bu nəhəng tarixi əhəmiyyətli tədbirin işığında nəhayət ki, Azərbaycan diasporu yaranaraq inkişaf edəcək, möhkəmlənəcək.

**İradə Hüseynova,**
Bakı Dövlət Universitetinin dosenti,
tarix elmləri namizədi,
YAP Siyasi Şurasının üzvü



# İLHAM ƏLİYEVİN LİDERLİK KEYFİYYƏTLƏRİ HEYDƏR ƏLİYEV SİYASİ MƏKTƏBİNDƏ FORMALAŞIB

XXI əsr Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunub. 1991-ci il 18 oktyabr tarixində ikinci dəfə dövlət müstəqilliyi əldə etmiş Azərbaycan xalqı çox keçmədən bu yenicə qazanılmış müstəqilliyi itirmək təhlükəsilə üzləşdi. Həmin dövrdə hakimiyyətdə olmuş şəxslərin siyasi savadsızlığı, öz mənafelərinin xalqın mənafeyindən üstün tutmaları, ölkənin və xalqın taleyinə biganə yanaşmaları, mövcud ictimai-siyasi prosesləri düzgün qiymətləndirmək qabiliyyətinə malik olmamaları Azərbaycanda vəziyyəti daha da gərginləşdirdi. Artıq ölkədəki hakimiyyətdaxili çəkişmələr, vəzifə kürsüsü uğrunda gedən mübarizələr, hökm sürən özbaşınalıq, xaos Azərbaycanı öz müstəqilliyini itirmək təhlükəsi qarşısında qoyurdu. Məhz 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişilə Azərbaycanın siyasi arenasında dönüş yarandı. Görkəmli dövlət başçısı, müdrik siyasətçi, böyük siyasi təcrübəyə malik dahi şəxsiyyətin dövlətçiliyimizin real təhlükə ilə üzləşdiyi bir zamanda yenidən hakimiyyətə gəlişi Azərbaycan xalqında böyük ruh yüksəkliyi yaratdı. Artıq xalq qarşısına "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" andı ilə irəli çıxan müdrik siyasətçi Azərbaycanın gələcək rifahı üçün əlindən gələni əsirgəmədi. Məhz 1993-cü ildən demokratik Azərbaycan dövlətinin inkişafı yolunda əldə olunmuş nailiyyətlər Heydər Əliyev siyasətinin bəhrəsidir. Bunun nəticəsidir ki, Türkiyənin "NTV" kanalı ilə keçirilən sorğular zamanı Heydər Əliyev dünyanın ən görkəmli siyasi xadimi, müdrik siyasətçisi kimi qiymətləndirilərək onun dünya siyasətçiləri arasında əvəzolunmaz lider olması danılmaz həqiqətdir. Heydər Əliyev müxalifətə hakimiyyətin nə demək olduğunu canlı fəaliyyətilə göstərdi. Xalqın düşüncəsində real olaraq "Heydər Əliyev məktəbi" terminini formalaşdırdı. Ümumiyyətlə, Heydər Əliyevin

milli mənafelərin səmərəli həyata keçirilməsinə əsaslanan diplomatiyası böyük siyasi məktəbdir. Bu siyasi məktəbin ən layiqli davamçısı, Heydər Əliyev siyasi kursunu yaşatmaq, daha da inkişaf etdirmək əzmində olan, xalq arasında artıq böyük nüfuz qazanmış, gənc olmasına baxmayaraq, böyük siyasi təcrübəyə, iradəyə malik İlham Heydər oğlu Əliyevdir. XXI əsr Azərbaycan tarixində artıq öz izlərini qoymaqda olan gənc, lakin geniş dünyagörüşlü İlham Əliyevin şəxsiyyət kimi formalaşmasında, fəaliyyətinin düzgün istiqamətləndirilməsində şübhəsiz ki, prezidentimiz Heydər Əliyevin böyük rolu vardır. İlham Əliyev mövcud ictimai-siyasi prosesləri diqqətlə izləyərək baş vermiş hadisələri düzgün qiymətləndirməyi bacaran bir şəxsiyyətdir. Belə ki, dünyanın bir çox görkəmli şəxsiyyətləri tərəfindən Azərbaycanın gələcək inkişafı İlham Əliyevin timsalında qəbul edilir. ABŞ-ın çox nüfuzlu şəxsiyyətlərindən biri olan cənab S.Şults deyirdi ki, İlham Əliyevin öz qüvvəsinə arxalanması, işlərini uğurla irəli aparması onda böyük rəğbət doğurur. Həmçinin o, Heydər Əliyevin rəhbərliyi ilə demokratik Azərbaycanın yaxın vaxtlarda dünyanın inkişaf etmiş ölkələrindən birinə çevriləcəyinə olan inamını gizlətmirdi. ABŞ-ın nüfuzlu adamlarından birinin, Azərbaycanın sabahı haqda, eləcə də İlham Əliyevin siyasi fəaliyyəti haqda yürütdüyü mülahizələr təsadüfi deyildi. İlham Əliyevin bir siyasətçi kimi qiymətləndirilməsi onun səriştə və bacarığına müsbət münasibətlər məhz Azərbaycanın reallığında onun siyasi lider olduğunu göstərir. Xalqımız məhz İlham Əliyevin simasında XXI əsr diplomatiyasında Azərbaycanı layiqincə təmsil edəcək, onu qarışıq dünyanın ziddiyyətlərindən çıxarıb uğurla sabaha aparacaq şəxsi görür.

İlham Əliyev hələ Moskva Beynəlxalq Əlaqələr İnstitutunda oxuyarkən beynəlxalq münasibətlərin nəzəri məsələlərini, xarici siyasətdə mövcud konsepsiyaları dərindən öyrənmiş və sonrakı illərdə bir mütəxəssis kimi çalışarkən onlardan istifadə edib. Artıq həm tələbəlik illərindən öyrəndikləri, həm də müəllim kimi həmin institutda çalışması onun siyasi aləmdəki fəaliyyəti üçün hazırlıqlı edibdir. İlham Əliyevin son illərdəki fəaliyyəti, onun müxtəlif tribunalarda çıxışı, qəzetlərə verdiyi müsahibələr, avtoritar rejimə meyllilikdən uzaq olduğunu göstərir. Bütün yönlərdə İlham Əliyevi təhlil etdikdə onun düşüncə tərzində, təfəkküründə siyasi plüralizmə meyl güclü şəkildə nəzərə çarpır. İlham Əliyev öz əqidəsinə görə demokratik prinsipləri əsas tutur və cəmiyyətin "dəmir əl" ehtiyacı olmadığını ardıcıllıqla fəaliyyətində təsdiq etməyə çalışır. Azərbaycan gəncliyinin layiqli nümayəndəsi kimi xalqın etimadını qazanan İ.Əliyevin son dövrlərdəki fəaliyyəti onu cəmiyyətimizə layiqli lider kimi təqdim edir.



Onun Azərbaycanın gələcək tərəqqisi naminə həyata keçirdiyi çox istiqamətli fəaliyyətindən biri də ölkəmizin iqtisadiyyatı ilə bağlıdır. Belə ki, dünyanın ən nəhəng neft şirkələrinin diqqətinin Azərbaycan neftinə yönəldiyi bir vaxtda Azərbaycan Dövlət Neft Şirkətinin 1-ci vitse-prezidenti kimi çətin və məsuliyyətli bir vəzifəyə rəhbərlik edən İlham Əliyev ölkənin iqtisadi proqramının həyata keçirilməsi üçün bütün varlığı ilə Heydər Əliyev hakimiyyətinə yardım etməyə çalışır. ARDNŞ-ın 1-ci vitse-prezidenti olan İlham Əliyev özünün siyasi fəaliyyətinə demək olar ki, elə ilk olaraq neft diplomatiyasından başlayıb. Onun neft diplomatiyasındakı çevik manevrləri və reallığı düzgün qiymətləndirərək gəldiyi qənaətlər Azərbaycan dövlətinin büdcəsinə külli miqdarda vəsaitin axınına səbəb olub. Əvvəlki dövrlərdə ayrı-ayrı şəxslər tərəfindən bu və ya digər formada mənimsənilən və ya müxtəlif istiqamətlərə yönəldilən həmin vəsait toplanılaraq Azərbaycan xalqının rifahına yönəldildi. Məhz həmin maddi bazanın əsasında respublikamızda neft fondu yaradıldı. Azərbaycan neftinin dünya bazarına çıxarılması və respublikaya gələn gəlir məhz İ.Əliyevin atdığı prinsipial addımlar sayəsindədir. İ.Əliyevin neft startegiyasında həyata keçirdiyi işlər Azərbaycanın Qafqaz və Xəzər regionunun georolitikasında əsas rollardan birinin oynamasına, respublikamızın təbii karbohidrogen ehtiyatlarının mənimsənilməsi və neft-qazın dünya bazarlarına ixrac olunması üzrə beynəlxalq mərkəzlərdən birinə çevrilməsinə imkan verir. Müdrik və uzaqgörən siyasətçi, ölkəmizin Prezidenti Heydər Əliyevin 1994-cü ildə dünyanın 15 ölkəsini təmsil edən 33 iri neft şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi"ndən başlayaraq Azərbaycanda neft strategiyası həyata keçirilir. Millət vəkili, ARDNŞ-ın vitse-prezidenti İ.Əliyevin neft sahəsində yetirdiyi siyasət Azərbaycanın təbii sərvətlərindən xalqımızın rifahı naminə istifadə etmək, Bakı-Tibilisi-Ceyhan əsas ixrac neft kəmərinin reallaşması üçün bütün diplomatik səylərdən istifadə etmək, dünyanın ayrı-ayrı neft şirkətlərinin Azərbaycana cəlb edilməsi üçün fəaliyyəti daha da gücləndirmək və ölkəmizin beynəlxalq nüfuzunu yüksəltmək məqsədini daşıyır. Bütün bunlar eləcə də ölkəmizin digər ictimai-siyasi həyatında atdığı addımlar İlham Əliyevin respublikamızın sabahına doğru gedən yolda müstəqilliyimizin qarantı olmasını təsdiqləyir.

İlham Əliyevin siyasi lider keyfiyyətinin böyük bir hissəsi millət vəkili kimi fəaliyyətində açılır. 1995-ci ildə Azərbaycanda ilk demokratik parlament seçkiləri keçirildi. İ.Əliyev mojaritar qaydada seçkilərdə iştirak edərək öz na-

mizədliyini Qaradağ rayonundan irəli sürdü. Bu dövrdə İ.Əliyev mütəmadi olaraq öz seçiciləri ilə görüşür, qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolunda onlara köməklik göstərirdi. Yolların, parkların salınması, quruculuq işlərinin aparılması məhz Qaradağ rayonunun millət vəkili İ.Əliyevin adı ilə bağlıdır. Şəhid ailələri həmişə onun diqqət mərkəzində olub, bu ailələr üçün yeni binalar inşa edilərək onların istifadəsinə verilib. Millət vəkili İ.Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmış "Qaradağ rayonunun sosial-iqtisadi yardım fondu" onun bu rayonda görəcək quruculuq işlərinin sürətlənməsinə səbəb oldu. Rayonda sosial problemlərin həll olunmasında, əhalinin elektrik enerjisi, qaz, istilik sistemi, ictimai nəqliyyat ilə təmin olunmasında atılmış addımlar həmin fondun fəaliyyəti ilə bağlıdır. Bundan başqa rayonun səhiyyə ocaqlarının təmir edilməsi, dərman və digər preparatlarla təmin edilməsi, nümunəvi və müasir tipli səhiyyə obyektlərinə çevrilməsi də İlham Əliyevin rəhbərliyi altında sözü gedən fond tərəfindən həyata keçirilib. İ.Əliyevin şəxsi təşəbbüsü ilə Qaradağ rayonunda imtiyazlı şəxslərə 50 mənzilli beşmərtəbəli yaşayış binası tikilərək onların istifadəsinə verilib. Bundan başqa "Sahil" qəsəbəsinin 3 km-liyində 10 hektar ərazini əhatə edən bir sahədə yaşayış binaları inşa olunub. "Ümid" qəsəbəsi adlandırılan bu binalar qaçqın və məcburi köçkün ailələrinin, müharibə əlillərinin istifadəsinə verilib. Bu, bir daha İlham Əliyevin öz seçicilərinin etimadını doğrultmasını aydın göstərir. İ.Əliyev millət vəkili olduğu Qaradağ rayon əhalisinin və eləcə də qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin bu gün də ümid yeridir.

İ.Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi yolunda apardığı əməli işlərin bir hissəsi də Yeni Azərbaycan Partiyası XXI əsrin, 3-cü minilliyin partiyasıdır" dahi siyasətçi, uzaqgörən prezidentimiz Heydər Əliyevin söylədiyi bu sözlər Azərbaycanın sabahının etibarlı əllərdə olmasından xəbər verir. Azərbaycanın sabahı da bu günün gənclərinin əlindədir. 1999-cu ildə Yeni Azərbaycan Pratiyasının 1-ci qurultayı keçirildi. Qurultay zamanı İ.Əliyev partiyanın müavini vəzifəsinə seçildi. Onun bu vəzifəyə böyük etimadla seçilməsindən sonra YAP-a sözün əsl mənasında gənc kadrların axını başlandı. Partiyanın gəncləşməsi ölkəmizin sabahkı idarəçilik sistemində büdrəməmək sahəsində atılan addımlardır. İ.Əliyevin YAP-da yeritdiyi siyasi xətt Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət kimi respublikamızın bölgədə nüfuzlu ölkəyə çevrilməsi, mənşəyindən asılı olmayaraq şəxsiyyətin hüquqlarının müdafiə olunması, qanunçuluq və firəvan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsindən ibarətdir. İlham Əliyevin partiyada həyata keçirdiyi işlərin əsas məqsədi gəncliyin timsalında müasirlik və ənənə üzərində tərəqqi və inkişaf etməkdir. Şübhəsiz ki, bu sahədə onun xidmətləri danılmazdır. 2000-ci ilin noyabrın 5-də keçirilən parlament seçkilərində İlham Əliyev Yeni Azərbaycan Pratiyasının proporsional siyahısına rəhbərlik etməklə partiyanı daha bir parlaq qələbəyə apardı. Onun seçki kampaniyası zamanı Azərbaycanın müxtəlif rayonlarına səfəri, seçicilərlə görüşü, görüşlər zamanı etdiyi çıxışlar İlham Əliyevin böyük siyasətdə təsadüfi adam olmadığını bir daha əminliklə təsdiqlədi. O, bu gün də bir millət vəkili kimi siyasi fəaliyyətini davam etdirərək müstəqil Azərbaycanımızın inkişafı istiqamətində öz səylərini əsirgəmir. İ.Əliyev millət vəkili olmaqla bərabər. MM-in Beynəlxalq Əlaqələr Komissiyasının üzvü kimi Azərbaycanı bir çox beynəlxalq təşkilatlarda təmsil edir. Ölkəmizin xarici siyasətində əldə olunmuş nailiyyətlərin bir hissəsi də məhz İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir. Belə ki, İ.Əliyev ilk dəfə olaraq Avropa Şurası Parlament Assambleyasında Dağlıq Qarabağ problemini qabardaraq həmin ərazinin narkotik vasitələrin istehsalı və tranzit ərazisi kimi təqdim etdi. Məsələnin bu cür ortaya çıxarılması parlament assambleyasında böyük rezonansa səbəb oldu və Avropa Şurası üzvlərinin diqqəti bir daha bu məsələyə yönəldi. Həmin təşkilatın payız sessiyasında isə antiterror kampaniyasının dünyada aktuallaşdığı bir dövrdə Avropa və dünya ictimaiyyətinin diqqətini bir daha Dağlıq Qarabağ və erməni terroruna yönəldə bildi. Azərbaycanı AŞPA-da təmsil edən parlament nümayəndə heyətinin başçısı İlham Əliyev assambleya üzvləri qarşısında qaldırdığı məsələlərdə ölkəmizin 20%-dən artıq ərazisinin erməni terrorçuları tərəfindən işğal olunması, işğal olunmuş ərazilərimizdən bir milyondan artıq əhalinin qaçqın düşməsi, həmin ərazilərdə dünyada misli-bərabəri görünməyən terror aktlarının törədilməsi üçün təlim düşərgələrinin yaradılması, qədim tarixi abidələrlə zəngin olan Qarabağın vəhşicəsinə talan edilməsi öz əksini tapdı. Burada həmçinin ermənilərin təcavüzü nəticəsində ölkəmizin iqtisadiyyatına, o cümlədən, təhsil, mədəniyyət, səhiyyə sahələrinə də böyük zərər vurulduğunu İ.Əliyev assambleya üzvlərinin diqqətinə çatdırdı. İşğal nəticəsində öz yurdlarından didərgin düşən bir milyondan artıq qaçqının ağır, dözülməz həyat şəraitində çadırlarda yaşaması, uşaqların isə bu cür şəraitdə təhsil almalarının qeyri-mümkün olduğunu bildirərək həmin məsələlərin AŞPA-nın növbəti iclasında müzakirə edilməsi və münasibət bildirilməsi üçün Parlament Assambleyasının

gündəliyinə salınmasına nail oldu. İlham Əliyev Azərbaycanın terrora məruz qaldığını tutarlı faktlarla sübut edərək ermənilərin "ASALA" terror təşkilatının təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, bütün Avropa dünya ölkələri üçün təhlükəli və ciddi olduğunu kəskin şəkildə bəyan etdi. Azərbaycanın müstəqillik əldə etdikdən sonra ermənilərin ölkəmizə qarşı həyata keçirdiyi 32-yə qədər terror aktları nəticəsində 2000-dən artıq günahsız insanın həlak olması faktı da AŞPA üzvlərinin diqqətinə çatdırıldı. İlham Əliyev dünya ictimaiyyətini terrorun ən qorxulu yuvalarından biri olan erməni terroru ilə mübarizəyə səslədi. Onun çıxışı assambleya üzvləri tərəfindən alqışlarla qarşılandı. Bu, gənc siyasətçi İlham Əliyevin prosesləri düzgün və çevik qiymətləndirmək istedadına malik olmasının bariz nümunəsidir. Nəticədə, Avropa Şurası bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi və terrorla mübarizədə hər zaman Azərbaycanın yanında olacağını bəyan etdi.

İlham Əliyev YAP Qaradağ rayon təşkilatının 5-ci konfransında çıxış edərkən bildirdi ki, Avropa Şurası bizim üçün bir kürsüdür, biz bu kürsüdən erməniləri ifşa etmək imkanı əldə etmişik. Həqiqətən də Ermənistanın terrorçu dövlət kimi artıq formalaşmaqda olan imicini yaxın gələcəkdə də beynəlxalq təşkilatların toplantılarında ən mühüm müzakirə obyektinə çevrilməsi üçün İlham Əliyev böyük səy göstərir. Bu, diplomatiyamızın İlham Əliyev simasında növbəti uğuru idi.

Bu gün Azərbaycanın xarici siyasətində ən aktual məsələlərdən biri də Xəzər dənizinin statusu məsələsidir. Xəzər dənizinin ehtiyatlarının mənimsənilməsi qlobal xarakter daşıdığından, burada Xəzəryanı dövlət başçılarının razılaşdırılmış iştirakını tələb edir. Lakin bir tərəfdən Qafqazda, xüsusilə də Azərbaycanda hələ də hegomonluq etmək niyyətində olan Rusiya, digər tərəfdən də İran Xəzərin statusuna dair məsələlərdə öz siyasətlərini yeritmək istəmələri ucbatından Azərbaycanın atdığı siyasi addımlarla razılaşmaq istəmirlər. Hətta İran özünün nəyə qadir olduğunu bildirmək üçün Azərbaycana qarşı gözlənilməz və düşünülməmiş addım ataraq ölkəmizin hava sərhədlərini pozdu. Sözsüz İranın bu addımı ölkədə rezonansa səbəb oldu. Xəzər dənizində fəaliyyət göstərən xarici neft şirkətləri də Azərbaycan rəhbərliyinə öz narazılıqlarını bildirməyə başladılar. Lakin bu zaman İlham Əliyev sərt və qəti addım ataraq, İran qırıcılarına bir daha Azərbaycanın hava sərhədlərini pozarsa, atəş açılmasını tələb edən bəyanatla çıxış etdi. Bütün bunlar millət vəkili İ.Əliyevin novator siyasətçi kimi Azərbaycanın xarici siyasətində atdığı qətiyyətli və uğurlu addımların bariz və danılmaz nümunəsidir.



Xalqın beynəlxalq arenada təmsilinin ən mühüm vasitələrindən biri məhz idmandır. Müstəqilliyimizin ilk illərində ölkədəki mövcud siyasi-iqtisadi böhran idmana da öz təsirini göstərməkdə idi. O vaxtkı hakimiyyət idmana demək olar ki, sonuncu dərəcəli məsələ kimi baxırdı. Məhz millət vəkili İ.Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyətə başlamasından sonra Azərbaycanın idman sahəsində dönüş yarandı. İdmançılarımızın xarici ölkələrdə Azərbaycanın bayrağını qaldırması, respublikaya qələbələrlə dönməsi məhz İ.Əliyevin idmançılara olan diqqət və qayğısının və bu sahədə apardığı ardıcıl fəaliyyətinin bəhrəsidir. Azərbaycan idmanı özünün ən yüksək pilləsinə isə Avstraliyanın Sidney şəhərində keçirilən 27-ci yay olimpiya oyunlarında çatdı. Bu olimpiyadada Azərbaycanı təmsil edən idmançılarımız vətənə 2 qızıl və 1 bürünc medalla döndülər. Azərbaycan Sidneydə həqiqətən böyük qələbəyə nail oldu, reytinq cədvəlində yüksək yerlərdən birini tutdu. Şübhəsiz ki, idman sahəsində əldə olunan uğurların ən böyük səbəbkarı ölkə prezidenti Heydər Əliyevdir. Onun olimpiya oyunlarına hazırlığa dair fərmanları, idman və bədən tərbiyəsi haqqında Qanun qəbul etməsi və yarışların nəticələrinə dair mükafatlar ölkədə idmana xüsusi maraq yaradırdı. Bu gün Azərbaycan xalqı həmin uğurlara görə möhtərəm prezidentimizə və onun layiqli davamçısı olan İ.Əliyevə borcludur. Milli Olimpiya Komitəsinin prezidenti seçilən millət vəkili İlham Əliyevin dediyi kimi qarşısına qoyduğu ən əsas vəzifə idmançılarımızın Sidney Olimpiadasından medallarla vətənə qayıtması idi. Bunun üçün o, idmançıların çıxışlarının yüksək səviyyədə təmin edilməsi və buna görə də lazımi işlərin görülməsi üçün əlindən gələni əsirgəmədi. İlham Əliyev şəxsən Sidneydən qalibiyyətlə qayıdacaqlarına əmin idi: "Biz əminik və inanırıq ki, Sidneydən qələbə ilə qayıdacağıq".

İlham Əliyev Azərbaycanın idman sahəsinə də böyük diqqət və qayğı göstərərək ölkəmizdə idmanla məşğul olmaq prosesinin kütləvi xarakter almasına çalışır. Azərbaycan hökuməti və Milli Olimpiya Komitəsi Sidneydən qızıl medalla dönən Zemfira Meftahəddinovaya və Namiq Abdullayevə hər birinə 100 min ABŞ dolları və bürünc medal sahibi Vüqar Ələkbərova 30 min ABŞ dolları məbləğində pul mükafatı təqdim etdi. Bu isə idmançılarımıza və idmana göstərilən böyük diqqət və qayğının bariz nümunəsidir. Məhz Sidney Olimpiadasından sonra beynəlxalq idman qurumlarının da Azərbaycana maraqları artır. Bunun nəticəsidir ki, bu yaxınlarda Bakıda bodibildinq üzrə Avropa çempionatı həmçinin sərbəst güləşçilərin beynəlxalq turniri və boks üzrə dünya birinciliyi yarışı keçirildi. Azərbaycan idmançıları bu yarışlarda da

dövlətimizin bayrağını dəfələrlə zirvələrə qaldıraraq müstəqil Azərbaycanın dövlət himnini səsləndirdilər. Bütün bunlar İ.Əliyevin çoxsahəli xidmətlərindən, hansı sahədə çalışmasından asılı olmayaraq böyük uğurlar qazanmasından xəbər verir.

İlham Əliyevin bütün keyfiyyətləri onu müxalifət düşərgəsinin davamlı şəkildə iqtidara və eyni zamanda ona qarşı apardığı qaragüruh siyasətinin fövqündə saxlayır. İ.Əliyev bu gün Azərbaycanda ölkə prezidenti Heydər Əliyevdən sonrakı siyasi liderlər arasında müqayisə edilməzdir. İlham Əliyevi hər vəchlə ölkə başçımızın oğlu kimi qəbul etməyə çalışaraq, onun da seçkilərdə iştirak etmək, öz namizədliyini irəli sürmək hüququnun olmasının fərqinə varmayan cılız müxalifət liderləri İ.Əliyev kimi güclü və əzəmətli rəqib qarşısında öz zəifliklərini yaxşı dərk edirlər. İ.Əliyev öz çıxışlarında doğru buyurur ki, "Azərbaycanda müxalifət yoxdur, qaragüruhçu qüvvələr var və nə danışdıqlarını bilmirlər". Daim demokratiya prinsiplərindən danışan, ölkədə insan hüquqlarının pozulduğunu car çəkən başıpozuq müxalifət liderləri xalqı hər bir vəchlə aldatmağa çalışaraq mitinq, nümayiş, zor gücünə hakimiyyətə gəlməyinin xülyaları ilə yaşayır. Ancaq dərk etmək istəmirlər ki, dövlətimizin sükanı Heydər Əliyev kimi dahi, uzaqgörən və müdrik bir sərkərdənin əlindədir. Onun silahı isə xalqdır. Və təsadüfi deyilmir ki, "Xalq-Heydər! Heydər-Xalq!" Azərbaycanda mövcud olan müxalifyönümlü siyasi partiyaların sayı inkişaf etmiş ölkələrdəkindən xeyli çoxdur. Siyasi lider qiyafəsində hakimiyyətə gəlməyə çalışan meydan qəhrəmanları isə hər bir vəchlə xalqın dəstəyini qazanmaq niyyətindədilər. Lakin seçim xalqındır. Xalqın seçimi, bütün müsbət keyfiyyətləri ilə ictimaiyyət önünə çıxan İlham Əliyevi XXI əsrdə Azərbaycanın və bütün hallarda xalqın avanqardı olan gənclərin lideri edir. Bu, artıq alternativi olmayan danılmaz bir reallıqdır.

**Qərib Məmmədov,**
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri,
professor, AMEA-nın müxbir üzvü



# ATA YOLUNUN DAVAMÇISI

Əsrlər boyu xalqımızın ən böyük arzusu, istəyi müstəqillik qazanmaq, azadlığa çıxmaq olub. XX əsrin əvvəllərində Şərqdə ilk demokratik cumhuriyyətini bərqərar edən Azərbaycan dövlətçiliyinin daşıdığı dəyərlər digər ölkələr üçün də örnək model kimi seçildi. Təəssüf ki, o vaxt Azərbaycan cumhuriyyəti az yaşadı. Buna baxmayaraq respublikamız Sovetlər Birliyinin üzvü olanda da vətəndaşlarına milli kimliklərini unutdurmadı və bununla da əsrin sonunda təşəkkül tapan müstəqilliyin əsasını hələ 70-ci illərdən qoydu.

İnanırıq ki, hamınızın gözü önündə Heydər Əliyev cənablarının xalqımız, millətimiz naminə gördüklərini, etdiklərini bir daha xatırlamaq hamımıza xoş gələcək. Bu gün ömrünün, keçdiyi, yaşadığı günlərin bəzi anlarını xatırlayacağımız Heydər Əliyev böyük, əvəzedilməz şəxsiyyətdir. Dünya diplomatiya tarixində öz yeri, dəsti-xətti olan qüdrətli və işıqlı təfəkkür sahibidir. Heydər Əliyev deyəndə ilk anda yada sahili görünməyən, yol azana, nabələd səyyaha yol göstərən, gözlərimiz önündə böyük şəxsiyyət canlanır. Heydər Əliyevin adı çəkiləndə bütövlükdə Azərbaycanın nicatı, onun başı üstündə bərq vuran ən parlaq ulduz yada düşür.

Belə bir tarixi şəxsiyyətin ailəsində dünyaya göz açan İlham Əliyev yeni əsrin püxtələşmiş siyasətçisidir. Atanı zirvəyə aparan yol sözün həqiqi mənasında məktəbdir və gənc İlham Əliyev də həmin məktəbin yetirməsidir.

O elə bir həyat məktəbi keçib ki, onu nə təsdiq, nə də inkar etməyə ehtiyac yoxdur. Gözünü açıb evdə ziyalı tərbiyəsi görüb. Babası Əziz Əliyev rəhbər vəzifələrdə işləyib, milli kadrların yerləşməsində misilsiz xidmətləri olmuşdur. Əziz Əliyev 1942-ci ildə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi seçilir. Müharibənin ən ağır günlərində, fəlakətin addım-addım irəlilədiyi bir vaxtda Dağıstana rəhbərlik etmək çox ağır idi. Və belə ağırlığı çiyinlərində apara biləcək yeganə şəxsiyyət isə Əziz Əliyev idi. O, Dağıstan Müdafiə Komitəsinin sədri təyin olunur. Müharibənin qızğın çağında, ölüm-

dirim savaşı getdiyi bir zamanda Dağıstan kimi çoxmillətli bir respublikaya rəhbərlik etmək, qısa bir zamanda Dağıstan xalqlarının sonsuz məhəbbətini qazanmaq, əhalini müharibədən, aclıqdan, xəstəliklərdən hifz etmək, on minlərlə insana xeyirxahlıq göstərmək böyük müdriklik tələb edirdi. Tale bu müdrikliyi və xeyirxahlığı, fitri təşkilatçılıq istedadını, hər çətin əzaba qatlaşmaq qüdrətini Əziz Əliyevə bəxş etmişdi.

İlham Əliyev Dağıstanı və onun qədirbilən adamlarını dərin məhəbbətlə xatırlayır. Elə bu məhəbbəti də ona son dərəcə yüksək intellektə sahib olan anası Zərifə xanım öyrətmişdir. Dağıstan Dövlət Universitetinin Elmi Şurasının 1 noyabr 1999-cu il tarixində keçirilmiş iclasının qərarı ilə Dağıstan Dövlət Universitetinin Bakı filialına Əziz Əliyevin adı verilmişdir.

Dərin inamımıza görə prezidentin oğlu İlham Əliyevin atasının işini davam etdirmək məsuliyyəti onun Azərbaycanın çiçəklənməsinə doğru fəaliyyətini tənzimləyən əsas amil olacaq. Onun siyasi imicini bəyanatlar deyil, cəmiyyət və işlərin dinamikası müəyyənləşdirir. İ.Əliyevin San-Fransiskodakı, Strasburqdakı çıxışları onun yetkin, bacarıqlı, səriştəli siyasətçi olduğundan xəbər verir.

İlham Əliyev millət vəkili olmaqla bərabər Milli Məclisin Beynəlxalq Əlaqələr Komissiyasının üzvüdür. Azərbaycanı bir çox beynəlxalq təşkilatlarda təmsil edir. Bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında Dağlıq Qarabağ məsələsi ilə bağlı etdiyi çıxış Azərbaycan xalqının ürəyincə oldu. İclas iştirakçılarının diqqətini Qarabağ probleminə yönəltdi. Bütün bunlar isə İlham Əliyevin siyasətdə təsadüfi adam olmadığını bir daha sübut etdi.

Mən bu gün çox böyük iftixar hissi ilə demək istəyirəm, əslində buna mənəvi ehtiyac duyuram: İlham Əliyev təkcə dünya şöhrətli bir ailənin övladı deyil, o həm də ləyaqətli keçmişi olan bir xalqın gələcəyidir.

İlham Əliyevin keçdiyi həyat yolu, səmimiyyəti, ictimai siyasi olaylardakı fəaliyyəti gənclərimizə örnək olmalıdır. Ötən qurultayda İlham Əliyev Yeni Azərbaycan Partiyasının sədr müavini seçildi. Bundan bir az sonra gənclərin partiyaya axını başlandı. Partiyanın gəncləşməsi isə sabahkı idarəçilik sistemində gənc kadrların irəli çəkilməsi deməkdir.

İdman xalqları bir-birinə yaxınlaşdıran, tanıtdıran vasitələrdən biridir. Millət vəkili, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbüsü ilə respublikamızda idmana qayğı ön plana çəkildi. Sözün əsl mənasında Azərbaycanda idman sahəsində dönüş yarandı. Yeni idman kompleksləri tikildi. Uzaq Avstraliyanın Sidney şəhərində qazanılan papaq qələbələr gələcək uğurlara zəmin yaratdı. İdmançılarımız xarici ölkələrdə Azərbaycanın bayrağını yüksəklərə qaldırdılar.



Son illərdə Azərbaycan idmançıları böyük uğurlar, yaddan çıxmayan qələbələr əldə ediblər. Sevindirici haldır ki, tələbəmiz Fərhad Acalov boks üzrə dünya çempionu adını qazanıb.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev onu təbrik edib uğurlar arzuladı. Bu, bizim üçün böyük fərəh hissidir.

Səmimi deyirəm: İlham Əliyevin vətənpərvərliyi DDU-nun Bakı filialının müəllim və tələbə heyətini heyran edib. Demək olar ki, İ.Əliyev respublikada idmanın geniş vüsət almasına, Azərbaycanın hər bir bölgəsində idmanla məşğul olmaq üçün şərait yaradılmasına çalışır.

İlham Əliyev böyük siyasətə hazırdır. Heydər Əliyevdən sonrakı siyasi liderlər arasında müqayisə edilməzdir. İnanırıq ki, XXI əsrdə Azərbaycan xalqının avanqardı olan gənclərin lideri bütün mübarizələrdən qalib çıxacaq və ata yolunun layiqli davamçısı olacaq.

**Abdulla İsayev,**
Dağıstan Dövlət Universitetinin
Əziz Əliyev adına Bakı filialının direktoru,
fizika-riyaziyyat elmləri doktoru, professor

# İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV MƏKTƏBİNİN YETİRMƏSİDİR

Tarixi təkamül nəticəsində inkişaf edən cəmiyyət zaman-zaman görkəmli şəxsiyyətlər, siyasi xadimlər yetişdirir. Əsrlərin, minilliklərin kəsişdiyi bir dövrdə tarixi tələbat və zərurət belə şəxsiyyətlərdən olan, xalq tərəfindən dərin məhəbbət və istəklə sevilən, dünya şöhrətli, uzaqgörən dövlət xadimi - Heydər Əliyevi Azərbaycana bəxş etmişdir. Bütün mənalı ömrünü, biliyini, bacarığını, fitri istedadını xalqının xoşbəxtliyinə sərf etmiş bu tərəqqipərvər şəxsiyyətin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət sayəsində dağılmaqdan və parçalanmaqdan qurtulmuş Azərbaycanın müstəqil, suveren bir dövlət kimi beynəlxalq aləmdə nüfuzu artır, dünyanın bütün dövlətləri ilə iqtisadi, elmi, mədəni əməkdaşlıq əlaqələri getdikcə genişlənir, respublikamız beynəlxalq təşkilatlarda layiqincə təmsil olunur. Artıq bir ilə yaxındır ki, Azərbaycan Avropa Şurası kimi mötəbər bir qurumun tamhüquqlu üzvüdür.

Böyük qürur hissi və inamla deməliyik ki, bu gün cənab Heydər Əliyev dövlət müstəqilliyimizin qarantıdır və suverenliyimizin, respublikanın ərazi bütövlüyünün bərpası üçün bütün mümkün imkan və vasitələrdən istifadə edir, xalqımızın haqq səsini dünya birliyinə çatdırır. Onun: - "müstəqilliyimiz daimidir, əbədidir" - kəlamı dövlətimizin devizinə, xalqımızın mübarizlik ideyasına çevrilmişdir.

İftixar hissi ilə qeyd etmək lazımdır ki, Heydər Əliyevin zəkasından, zəngin dövlətçilik təcrübəsindən, dinamik fəaliyyətindən bəhrələnən layiqli siyasətçi yetişmişdir. Bu siyasətin önündə Heydər Əliyev məktəbinin əlaçısı, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, millət vəkili İlham Əliyev gedir. Atasının çoxcəhətli, ensiklopedik



və mənalı ömür yolunun davamçısı olan İlham Əliyev qısa bir müddət ərzində özünün bacarığı və səyi nəticəsində əldə etdiyi uğurlara görə xalqın etimadını, dərin hörmətini qazanmış parlaq simadır.

İlham Əliyevin ictimai-siyasi fəallığı, ölkədə neft strategiyasının, dövlət gənclər və idman siyasətinin uğurla həyata keçirilməsində, beynəlxalq təşkilatlarda respublikamızın milli maraqlarının qorunmasında, sosial-iqtisadi islahatların aparılmasında göstərdiyi əvəzsiz xidmətlər onun görkəmli dövlət xadimi, səriştəli siyasətçi kimi tanınmasında, Azərbaycan gənclərinin sevimli liderinə çevrilməsində böyük rol oynamışdır.

Dünyanın nüfuzlu ali məktəblərindən biri olan Beynəlxalq Münasibətlər İnstitutunu Moskvada müvəffəqiyyətlə bitirən və burada dərs demiş, bir çox əcnəbi dillərdə mükəmməl danışan, gözəl nitq qabiliyyətinə malik olan İlham Əliyevin dövlətimizin apardığı siyasətdə və bunun nəticəsində qazanılmış uğurlarda önəmli yeri vardır. İlham Əliyev ümummilli məsələləri müsbət həll etməyi, dünyada baş verən siyasi prosesləri dərindən analiz etməyi və düzgün qərarlar qəbul etməyi bacaran, mətin iradə, daim qurub-yaratmaq əzmi, vətənpərvərlik, gələcəyə nikbin baxış kimi xüsusiyyətləri özündə birləşdirən yetkin siyasətçidir.

Heydər Əliyev tərəfindən müəyyən olunan və aparılan iqtisadi siyasətin, xüsusilə onun prioritet sahəsi olan neft strategiyasının uğurla həyata keçirilməsində İlham Əliyevin müstəsna xidmətləri vardır. Onun neft diplomatiyası sahəsindəki fəaliyyəti xarici dövlətlərin Azərbaycanda neft sənayesinə böyük maraq göstərməsinə əsaslı zəmin yaratmaqla bərabər, böyük neft şirkətlərinin Azərbaycanla iqtisadi əməkdaşlığının daha da genişləndirilməsinə təkan vermişdir.

"Əsrin müqaviləsi" adlanan neft kontraktlarının hazırlanmasında və imzalanmasında yaxından iştirak etmiş İlham Əliyevin neft strategiyasının inkişafı ilə əlaqədar keçirilən beynəlxalq konfranslarda etdiyi çıxışlar, söylədiyi məruzələr, irəli sürdüyü təkliflər onun islahatçılığa, iqtisadiyyatın yüksəlişinə, xalqımızın rifahını yaxşılaşdırmağa çalışan, respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələri üzrə kifayət qədər hazırlıqlı bir şəxs olduğunu təsdiq etmişdir.

İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildikdən sonra id-

man sahəsində istər maddi, istərsə də təşkilati baxımdan mövcud olan problemlər aradan qalxdı, ölkəmizdə bədən tərbiyəsi və idman intensiv inkişaf dövrünə qədəm qoydu. Onun yüksək təşkilatçılığı sayəsində Azərbaycan beynəlxalq idman aləmində öz layiqli yerini tutdu. İlham Əliyevin idmana göstərdiyi sonsuz diqqət və qayğı idmançılarımızın Avstraliyanın Sidney şəhərində keçirilən XXVII yay olimpiya oyunlarında parlaq zəfərləri ilə nəticələndi və Azərbaycanın üçrəngli dövlət bayrağı ən qüdrətli dövlətlərin bayraqları ilə yanaşı qaldırıldı. Fəxrlə deyə bilərik ki, idmanın müxtəlif növləri ilə məşğul olan gənclərimiz bu gün də beynəlxalq yarışlardan ölkəmizə qələbə sevinci ilə qayıdırlar. Artıq böyük idman komplekslərinə və tanınmış idmançı kollektivlərinə malik respublikamız getdikcə beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilir.

Görülən təşkilati-praktiki tədbirlər nəticəsində ölkəmizdə bədən tərbiyəsinin və idmanın kütləviliyi təmin edilmiş, hərəkət xarakteri almışdır. Cənab İlham Əliyevin gənclərlə işə və respublikamızda böyük idmanın inkişafına diqqət və qayğısının digər müsbət cəhətləri və önəmli sosial-siyasi səmərəsi də vardır. Dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi ilə əlaqədar İlham Əliyevin səyləri gənclərin idman və digər faydalı sahələrdə məşğulluğunun, quruculuq işlərində yaxından iştirakının təmin edilməsində, onların cinayətkar və başqa neqativ təzahürlərdən qorunmasında mühüm rol oynayır. Gənc nəslin təlim-tərbiyəsi onun ictimai-siyasi fəaliyyətinin ən mühüm istiqamətlərindən birini təşkil edir.

İlham Əliyev eyni zamanda Milli Məclisin üzvü, millət vəkilidir. İşinin çoxluğuna, vaxtının məhdudluğuna baxmayaraq, öz seçiciləri qarşısında çıxışlar edir, tez-tez görüşlər keçirir, onların çətin problemlərinin həlli istiqamətində zəruri işlər görür, imkansızlara, şəhid ailələrinə xüsusi qayğı və diqqət göstərir.

İlham Əliyevin Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Avropa Şurası Parlament Assambleyasında fəaliyyətini xüsusilə vurğulamaq lazımdır. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsini, ölkəmizin erməni terroruna məruz qalmasını bir daha və qətiyyətlə dünya ictimaiyyətinin diqqətinə çatdıran İlham Əliyevin yeni diplomatik uğuru, onun məntiqi və təkzibedilməz çıxışı Azərbaycan ictimaiyyətinin böyük əksəriyyəti tərəfindən dərin razılıq hissi ilə qarşılanmış və yüksək qiymətləndirilmişdir.



Azərbaycan tarixinə "xilaskar" və "qurucu" adları ilə daxil olmuş Heydər Əliyevlə yeni minilliyə qədəm qoymaqdan böyük inam, qürur və iftixar hissi duyan xalqımız, onun səyləri nəticəsində aydınlaşmaqda olan səmamızda daha bir parlaq ulduz, ürəyi vətəni və eli, azərbaycançılıq ideyaları ilə döyünən, zəkası, elmi, tərbiyəsi ilə seçilən daha bir görkəmli şəxsiyyətlə - İlham Əliyevlə fəxr edir.

Heydər Əliyevin dövlətçilik ənənələrini, intibah və tərəqqi siyasət kursunu davam etdirən İlham Əliyev müstəqilliyimizin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, ölkəmizin siyasi və iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrilməsi məqsədilə idarəçilik və təşkilatçılıq fəaliyyətinin həyata keçirilməsində gənc nəsil üçün son dərəcə inamlı və örnək bir şəxsdir, yeni əsrin yeni lideri adına layiq insandır.

**Eldar Mahmudov,**
İqtisadçı-hüquqşünas

## VƏTƏN SEVGİSİNİN YOLU

Yaxın keçmişin, cəmi-cümlətanı 8 il o tərəfin siyasi həyatı şahidlərin yaddaşından silinə bilməz.

Hakim kütlə psixologiyası, siyasi narkomaniya, dərəbəylik, anarxiya... Belə bir mühit insana inamsızlıqdan başqa heç nə təlqin edə bilməzdi. Məlum tarixi hadisələrin başlanmasından az keçməmiş bir çox insanlar, düşüncə sahibləri dərk etdilər ki, belə davam edə bilməz. Tarix qanunauğyun axara düşməlidir. Bütün maddi aləm daxili nizama tabedir. Cəmiyyətdə də belədir. İnsanlıq mənfi emosiyalarla nə qədər yüklənirsə, bir o qədər bunun əksi olan enerji toplanır. Cəmiyyət özünüqoruma instinktinə malikdir. Hərdən deyirlər ki, böyük siyasət adamını, milli lideri - Heydər Əliyevi hakimiyyətə kim gətirdi? Mən konkret və aydın şəkildə deyirəm ki, onu hakimiyyətə cəmiyyətin özünüqoruma instinkti gətirmişdi.

Mən bu qeydlərimdə həmin mövzudan söhbət açmaq fikrində deyiləm. Hərçənd ki, bu mövzu zaman-zaman öz şərhini tələb edəcək; ən azı tarixi yaddaşsızlıq bəlasına düçar olmamaq üçün...

70 il ərzində formalaşmış siyasi kadr potensialı ilə varislik əlaqəsini süni şəkildə quran yeni dövr (1988-1992) özünü mənəvi cəhətdən şikəst elədi. Böyük siyasi təcrübə məktəbinin biliklərinə mükəmməl yiyələnmiş H.Əliyevin 1993-cü ilin yayında qayıdışı bir çox problemləri həll eləməli idi. Dağılmış iqtisadiyyat bərpa olunmalı, bazar iqtisadiyyatının tələblərinə uyğun islahatlar aparılmalı, dağıdıcı müharibənin qarşısı alınmalı, çökmüş mərkəzi hakimiyyət dirçəlməli, bir sözlə, sıradan çıxarılmaqda olan Azərbaycan ayağa qaldırılmalı idi. Bütün bu qlobal problemlərlə yanaşı, daha bir vacib məsələ də bütün kəskinliyi ilə qarşıda dururdu. Yaxın 10 illikdən sonra Azərbaycanın taleyinin tapşırılacağı siyasətçilər nəsli, yeni təfəkkür tərzi ilə silahlanmış kadr ehtiyatı yaradılmalı idi. Böyük siyasi fenomen olan Azərbaycan prezidenti bu məsələnin həlli istiqamətində yaradıcısı olduğu partiyada böyük iş



aparırdı. Bu iş nəhəng dövləti problemlərin həlli fonunda gedirdi. Bəlkə də bir çoxları bunu görmür, hiss etmirdi. Yeni siyasətçilər nəslinin içərisində H.Əliyevin nəzəri irsinin çoxlu sayda daşıyıcıları var. Onlar elmin, iqtisadiyyatın, mədəniyyətin, səhiyyənin, neft və qaz sənayesinin... bütün sahələrində var. Bu, nəzəri irsin əbədi yaşarılığını kifayət qədər dərk edən həmin gənclər Azərbaycanın etibarlı əllərdə olacağına təminat verəcəklər. Çünki onların məğlubedilməzliyini təmin edən silahları var. Bu, Heydər Əliyevin nəzəri, mənəvi irsidir. Heç şübhəsiz, həmin gənclər sırasında İlham Əliyevin xüsusi yeri var. Onu tay-tuşlarından fərqləndirən, siyasi mühitdə önəmlik verən keyfiyyətləri haqqında danışmalı olsaq, birinci qeyd etməliyik, o, hansı siyasi, mənəvi mühitin yetirməsidir?

Unutmaq lazım deyil ki, Azərbaycanın yeniləşməsi, azadlığının və müstəqilliyinin qorunması uğrunda mübarizə aparan, etiraf edək ki, ARZULARIMIZI HƏQİQƏTƏ ÇEVİRƏN LİDER onun atasıdır. Bu məktəbin yetirməsi kimi, İlham Əliyev bu məsuliyyətin bütün ağırlığını və böyüklüyünü yaxşı dərk edir. Onun Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi fəaliyyəti buna sübutdur. Son on illik dövr Azərbaycanın mürəkkəb, eyni zamanda şərəfli bir tarixidir.

Bu tarixin ən ləyaqətli səhifələri - milli mənafeyimizin qorunduğu, milli qurur hissimizin təsdiqini tapdığı son 8 il bizim üçün də böyük təcrübə məktəbi mərhələsidir. Mühüm tarixi, taleyüklü məsələlərin həllində bir daha səhv eləməyə haqqımız yoxdur.

### BÖYÜK SİYASƏTİN GƏNC LEGİONERİ

Böyük siyasətin gənc legioneri İ.Əliyevin həyatı Azərbaycanın çağdaş tarixinin artıq bir parçasıdır. Böyük dünya okeanının sularında üzən gəmiləri mənzil başına diletant, bacarıqsız, çiy kapitanlar çatdıra bilməzlər. Siyasət də belədir. İndi Azərbaycan dünyanın siyasi arenasında öz yerini tutub, Avropa Şurasının tamhüquqlu üzvüdür. Şərqin, Cənubi Qafqazın, Asiyanın problemləri Azərbaycansız çözülə bilməz. Azərbaycanı qapı arxasında qoymaqla, onun problemlərinin "həll edildiyi" dövr geridə qalıb. Yeni nəsil bunu yaxşı dərk edir. Eyni zamanda bunun hansı mübarizələrin bəhrəsi olduğunu da tam mənası ilə bilir. Bəli, artıq çoxdan İlham Əliyev və onun ətrafında olan əqidə dostlarının gələcəyin onları çağırdığı yolda öz xalqına, dövlətinə, Vətəninə sədaqətlə xidmət mərhələsi başlanmışdır.

Bu yolda əqidə bütövlüyü olmadan müsafir olmaq mümkünsüzdür. Onun əqidəsinə sədaqəti məlumdur. Mənsub olduğu siyasi məktəbin bacarıqlı müdavimi kimi yetişməsi üçün kifayət qədər mübarizə meydanı var. Avropa Şurasının mötəbər iclasında erməni terrorunun mahiyyətini açıqlayan sərt və prinsipial çıxışı və təkcə çıxışı yox, onun inandırma qabiliyyəti, çətin məqamda kəskin siyasi gedişləri, düşünülmüş, həlli, nəticəsi görünən risqlər etməsi bizi, Vətənini sevən hər bir insanı sevindirir.

Siyasət elə səhnədir ki, onun hər tərəfi görünə bilməz. Fəqət siyasətçinin zəif tərəfi birinci görünür. Hamı tərəfindən qavranılır. Bu zəif tərəfləri gizləmək mümkün olmadığı üçün həmin siyasətçi ya birdəfəlik sıradan çıxır, ya da uğursuzluq onu daim izləyir. İ.Əliyevin keçdiyi siyasi yolun özü sübut edir ki, o, tam yetkin şəxsiyyət mənsub olduğu xalqın vətəndaşı olaraq onun boynuna qoya biləcəyi bütün missiyaların daşıyıcısı olmağa hazırdır.

## TARİX İBRƏT ÜÇÜNDÜR

Mən bir cəhəti də qeyd etmək istəyirəm. Onun özündən əvvəlki nəsillərin gördüyü işlərə hörmətlə yanaşmasını. Bu, mühüm amildir. Təsadüfi demirlər ki, "keçmişə güllə atsan, gələcək topa tutar". Respublika Sarayında "Əsrin müqaviləsi"nin 5-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə onun məruzəsinin ilk cümlələrində də bu fikir təsdiq olunurdu: "Müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsinin fəal iştirakçıları kimi biz əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirir və gələcək nəsillər üçün xoş güzəranın təməlini qoyuruq. Xalqımızın çağdaş tarixində Azərbaycan neftçilərinin üzərinə düşən missiya həqiqətən də şərəflidir. Deyə bilərik ki, bu müqavilə ilə başlanmış iş, XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən edir". Əlbəttə, mənim diqqətə çəkmək istədiyim məqam daha çox psixoloji mahiyyət kəsb edir. Yəni təvazö ilə, görülən işdə əvvəlki nəsillərin haqqını itirmədən, başqalarına hörmət və ehtiramla addımlamaq - uğur qazanmaq istəyən siyasətçinin nəzərə almalı olduğu vacib amillərdən biri, bəlkə də, birincisi budur.

Mənim bu qeydlərimə epiqraf kimi verdiyim fikrin müəllifi antik dünyanın müdriki Sokratın özü də çox güman ki, həyati həqiqət kimi bunu nəzərdə tuturmuş. Yeri gəlmişkən prezidentimiz Heydər Əliyevin bir qiymətli kəlamını burada xatırlatmaq istərdim: "İstedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi olsalar istedadlı ola bilməzlər. İstedadlı adamların hər birinin özünəməxsus xüsusiyyətləri var. Siyasət adamı, ölkə başçısı gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin. Bu, onun borcudur". Mən bu keyfiyyətləri İ.Əliyevin siyasi həyatında tam müşahidə edirəm. Onda özünün daxili gücünə çox böyük inamı var.



İkinci bir məqama da diqqəti cəlb etmək istərdim. İlham Əliyevi həm də həyat özü yetişdirib. Həyatın diqtəsi ilə siyasi arenaya çıxıb. Mənsub olduğu xalqın və onun böyük oğlu H.Əliyevin zamanın qarışdığı, böhran dolu günlərdə keçirdiyi iztirablı mərhələ onun gözləri önündən keçib getmişdir. Və bütün bunlara seyrçi kimi baxa bilməzdi. Həmin günlərdə İ.Əliyev peşəkar siyasətə şöhrət xatirinə, mənsəb xatirinə gəlmək üçün düşünə bilməzdi. Onu bu yola mənəvi tələbat, öz xoşbəxtliyini mənsub olduğu xalqın içində tapmaq hissi gətirmişdi. Və təbii, qanunauyğun axarla siyasət yolunu seçdi. Əgər onun həyat yoluna diqqət verəriksə, bütün addımların ardıcıl məntiqi dözümünü görə bilərik. Heç şübhəsiz, prezidentin güzəştsiz, prinsipial, tükü-tükdən seçməyi bacaran bir şəxsiyyət olduğunu yada salsaq, bizə aydın olar ki, İ.Əliyev bu günə qədərki mərhələni özü layiq ola bildiyi üçün, öz bacarığı və qabiliyyəti ilə qazanmışdır. Özünü siyasətçi adlandıran çoxlu siyasətbaz görmüşük ki, intellektual səviyyə tələb edən məsələlərin müzakirəsi zamanı gülünc vəziyyətə düşüb. Çox vaxt deyirlər ki, iqtisadi hakimiyyət kimdədirsə, siyasi hakimiyyət də ondadır. Mən bu fikri belə ifadə edərdim; iqtisadiyyatı bilmədən, iqtisadiyyatın problemlərini həll etmək iqtidarında olmadan kamil siyasətçi olmaq mümkün deyil. İntellekt sahibi olmadan, siyasətin incəliklərini mənimsəmədən də iqtisadiyyatı bilməklə mənəvi sabitliyini qoruya bilməzsən. Azərbaycan bunların acı təcrübəsini öz həyatında yaşayıb.

## SİYASƏT MÜSTƏVİSİNDƏ

Azərbaycan gəncliyinin fəxri İ.Əliyev dərin bilikli hüquqşünas, çoxşaxəli istedad, ləyaqətli millət vəkili, alim, pedaqoq, ən başlıcası sadəliyi ilə böyüklüyü bir-birinə qovuşmuş insan kimi sevilir, təqdir olunur.

İndiki siyasi-mənəvi mühitimizdə o, təşkilatçılıq bacarığı çox erkən görünən rəhbər, taleyüklü günlərimizin fəal siyasətçilərindən biri, təmənnasız vətəndaş kimi qavranılır. Əslində buraya onun səmimiyyətini və təvazökarlığını da əlavə etsək, fikrin obyektivliyi və iddiasızlığı tam aydın görünər.

Vətəndaşlıq mənəviyyatının üç əsas dayaq nöqtəsi - xarakter, əməl-hə-

rəkət və məqsədyönlülük bir-birini tamamladıqda bütöv şəxsiyyət formalaşmış olur... Bu üç vacib keyfiyyət elə bil ki, Tanrı vergisidir, onun taleyində. Axı başqa cür də ola bilməzdi. Zəmanəmizin fenomen, bir sözlə, əvəzsiz siyasətçisi Heydər Əliyev kimi qüdrətli, müdrik bir ATAnın, müasir tibb elmimizin ən görkəmli alimlərindən biri, şərəfli ömründə minlərlə insana həyat işığı bəxş eləmiş cəfakeş göz həkimi Zərifə Əliyeva kimi bir ANAnın övladıdır. Belə mütəəssiredici xoşbəxtlik hər oğula nəsib olmur. Amma onu da qeyd eləyək ki, İlham Əliyev hələ çox gəncdir. Onun qarşısında hələ nə qədər perspektivli, ümidli-inamlı həyat, ömür, vəzifə, xalqa xidmət imkanları var. İkinci və ən başlıcası isə İlham Əliyevin yüksək vəzifələrdə işləyə bilmək istedadı, kollektivləri məharətlə idarə edə biləcək təşkilatçılıq qabiliyyəti çox erkən formalaşıb, iradələrin, qətiyyətlərin sınağa çəkildiyi dövrdə təsdiqini tapıb.

Heynenin məşhur bir sözü var, deyir ki, mənəviyyat, ədəbiyyat ürəyin ağılıdır. Doğrudan da, ağılın sərhədləri hardasa, nədəsə, çərçivəlidir, müəyyən bir sərhəd həddində yerləşir. Ürək isə yox... onun imkanları, hüdudları nəhayətsizdir. Axı elə insanları da ürəklə daha düz, daha yaxından tanıyırlar.

İlham Əliyev ikinci yolu tutdu: sakitcə, insanları sevə-sevə, əlindən gələn xeyirxahlıqları eləyə-eləyə, addım-addım xalqa, millətə qulluq (özü də təmənnasız!) yolunu.

Aydın vətəndaşlıq mövqeyi, yüksək əxlaq, zəngin mənəviyyat - həmişə yaz küləkləri əkinlərin toxumlarını məhəbbətlə cücərtdiyi kimi, insan qəlbinin də dərinliklərində yatıb qalmış enerji potensialını üzə çıxarır. İlham Əliyevin könüllü olaraq, Azərbaycan idmanına üz tutması, Vətənin adı, ünvanı naminə bu yolda fədakarlıqla çalışması necə gözəl bəhrələr verir. Bunu hamımız bilirik.

Qalib gələn idmançılarımızın uğurunu alqışladığı anları ekranlarda hamımız görmüşük. Sanki başından yuxarı qaldırdığı düyünlənmiş yumruğu deyil, ürəyiydi. Bütün bu məqamlar göstərir ki, Azərbaycanın şərəfini uca tutmaq, bu yolda bütün mübarizələrdə canını, qanını əsirgəməmək onun məramıdır. Onun sevinclərinin, şadlıqdan kövrəlmələrinin şahidi olmuşuq. Sidneydə səslənən himnin sədaları altında kövrəkqarışıq qürurlu baxışlarını görmüşük. Bütün bunların hamısında aydın bir həqiqət görünür. Azərbaycana - mənsub olduğu xalqa məhəbbətin həqiqəti.

Bu gün biz özümüz də bu qürurlu oğulun vətən təəssübkeşliyindən qürur duyuruq. Sabaha gedən yolumuzun başının üstündə göylərimizi apaydın, ulduzları daha çilçıraqlı, günəşimizi də daha odlu və parlaq görürük.

İlham Əliyev haqqında çox yazılıb, hələ çox da yazılacaq. Zənnimizcə, narahatlıq - insanın ən təkrarsız, ən qiymətli, ən əvəzsiz mənəvi sərvətidir. Bu - tam, bütöv xoşbəxtliyə aparan yeganə məktəb olası yoldur. O, təbiətən narahat adamdır. Mənsub olduğu xalqının problemləri, dövlətimizin əbədiliyi, müstəqilliyimiz və azadlığımız üçün narahatdır. Halal vətəndaş bu narahatlığı özünü dərk edəndən ömrünün sonunacan daşımalıdır.

Qədim filosof Prokrust cəmiyyətdə bərabərlik, tarazlıq yaratmaq üçün xalqdan - kütlədən yuxarı qalxanların başını-ayağını kəsdirməyi "məsləhət" görürdü. Qandi isə, yox... deyirdi ki, əksinə, aşağıdakıları inkişaf etdirib, böyüdüb, qayğılarına qalıb, yuxarıdakı başların səviyyəsinə çatdırmaq lazımdır.

İlham Əliyevin də parlaq həyat yolu bu məramdan keçir.

## TORPAĞI BÜTÖV GÖRMƏK YANĞISI

Mən İ.Əliyevin çoxsaylı çıxışlarını, müsahibələrini, sıravi insanlarla görüşlərdəki söhbətlərini diqqətlə dinləmişəm. Müşahidə etdiyim keyfiyyətlərdən təvazökarlığını, səmimiliyini və bir də təmənnasızlığını bir daha qeyd etməyə bilmərəm. Bütün məqamlarda iddiasızlığı ilə özünə rəğbət oyadan müsahib kimi, həm də səmimiyyəti ilə seçilir. Bunlar da siyasətçidən ötrü mühüm keyfiyyətlərdir. Atasının, anasının rəğbətini qazanmayan insan cəmiyyətin də gözündə ucala bilməz. Yuxarıda dediyim kimi, onun insanlara doğmalığı ailə mühitindən aldığı genetik irsi amillərlə qovuşaraq xarakterinin aparıcı keyfiyyətinə çevrilir. Bütün mübarizələrində məqsədi aydındır: ədalətlə, prinsiplərə sədaqətlə xalqın istək və arzularının gerçəkləşməsinə nail olmaq.

Siyasətçi üçün çox gərəkli bir məsələ inkişaf etmiş nitq vərdişlərinə nail olmaqdır. Mənəvi ehtiyat, bəşərin yaratdığı mənəvi sərvətlərə nail olmaqdan Demosfen özü də xalq qarşısında aciz olardı. İ.Əliyevin zəngin hüquqi, iqtisadi, mənəvi bilgisi imkan verir ki, çıxışlarını kifayət qədər rəvan, məntiqi ardıcıllıqla qura bilsin və sərrast fikir ifadə edə bilməsi göstərir ki, o dilin zəngin imkanlarından bacarıqla istifadə edir. İlham Əliyev çıxışlarında həyati həqiqətləri əsas tutur. Çox az vəd verir. Dediyi, irəli sürdüyü ideyaların həyata vəsiqə almasına nail olur. Ən başlıcası, populizmdən uzaqdır. Populyarlıqla qısaömürlü rəğbəti qazanmağı sevmir. Heç şübhəsiz, populyarlıq yolu ilə ucuz şöhrət qazanmış siyasətçilərin - əgər onlara siyasətçi demək mümkünsə - acınacaqlı taleyi heç birimizin, o cümlədən İ.Əliyevin də yadından çıxma-

yıb. Əlbəttə, İ.Əliyevin Azərbaycanın siyasi həyatında özünün layiq olduğu yeri tutması bizim üçün məqsəd deyil. Azərbaycanlıların gələcək daha əmin həyatının təminatı üçün vasitədir. Bir daha xalqın taleyi ilə oynayan adamların - təsadüfi dövlət "xadimlərinin" sükana sahib olması üçün, min bir əzab-əziyyətlə son illərin gərgin zəhməti bahasına qurulmuş dövlətin, dövlətçiliyin qorunması üçün vasitədir.

Onun özünün müdrikliklə neftlə bağlı dediyi fikri yada salmaq kifayətdir: "Azərbaycan artıq indi bölgənin coğrafi-siyasi mərkəzinə çevrilmişdir. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri getdikcə daha da artacaqdır. Biz həmişə hesab etmişik və hesab edirik ki, neft bizim üçün məqsəd deyil, vasitədir. Bu gün Azərbaycan xalqının firəvanlığını və gələcək nəsillərin firavanlığını təmin etmək vasitəsi, yeni iş yerlərinin yaradılması üçün vasitə, gələcəkdə yalnız neft sektorundan asılı olmamaq üçün iqtisadiyyatın yeni sahələrinin yaradılmasından ötrü vasitə, Azərbaycan xalqının rifah səviyyəsinin yüksəldilməsi üçün vasitə, maaşların, təqaüdlərin və müavinətlərin artırılması üçün vasitə. Ən başlıcası isə Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmlənməsi üçün vasitədir. Bu gün mən tam məsuliyyətlə bəyan edirəm ki, əgər biz bütün planlarımızı həyata keçirə bilsək - mən buna şübhə etmirəm - yaxın gələcəkdə Azərbaycan ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevriləcəkdir".

Zəngin mənəviyyatını, tükənməz vətəndaşlıq sevgisini duyduğum bir gəncdən, ömür hüdudlarında qısa görünən, mahiyyətilə onilliklərə bərabər tutulan siyasi mübarizə yolu keçmiş əqidə sahibindən söz açdım. Xalqımızın gələcək taleyində müstəsna xidmətləri ola biləcək bir gəncdən.

İnanıram ki, Tanrı özünə doğru yolda ədaləti bayraq edənlərə dayaq durur.

Ləyaqətli oğullar atalarının yolu ilə fəxr edirlər.

Çağdaş Azərbaycan gəncliyi İlham Əliyev işığına təsadüfi gəlmir. Bu işıq aydın, parlaq istiqamətləri ilə gəncliyi cəzb edir. Bu işıqda insanlara insani münasibət görünür. Bu işıqda vətənə sevgi, tükənməz məhəbbət, onun torpağına, daşına, dənizinə, sərvətinə, dağlarına... məhəbbət var. Bu işıqda yanğı var. Vətəni, yurdu, torpağı bütöv görmək yanğısı!..

**Hüseynbala Mirələmov,**
Azərbaycan Yazıçılar Birliyinin üzvü



## QURUB-YARATMAQ MİSSİYASI

Məlumdur ki, xalqların və ölkələrin taleyində şəxsiyyətlərin rolu məsələsinə münasibət bu gün də birmənalı deyil. Tarixçilər, filosoflar, siyasətçilər arasında bu məsələ çox vaxt geniş müzakirə və qızğın mübahisə mövzusuna çevrilir, tarixdə şəxsiyyətin rolu gah inkar edilir, gah da öz obyektiv qiymətini alır.

20-ci yüzilliyin ikinci yarısında, xüsusilə də əsrin sonlarında Azərbaycanda baş vermiş hadisələr bir daha sübut etdi ki, prezident Heydər Əliyev kimi şəxsiyyətlər Tanrının xalqlara çox nadir hallarda, əsasən də olum, ya ölüm məqamlarında bəxş etdiyi dahi insanlardır. Tarixdə şəxsiyyətin rolunu inadla danmağa çalışanlar isə nəinki tarix üçün, hətta sadəcə olaraq, öz kəndi-kəsəyi üçün heç bir iş görə bilməyən, öz yaramaz əməlləri ilə xalqa da, tarixə də daim başağrısı verən uğursuzlardır. Bələləri Azərbaycanda da vardır. Dərnək biçimli siyasi partiyaların iddialı "liderləri", bəzi "müstəqil" politoloq, vəkil və ekspertlər, eləcə də həqiqi jurnalistikadan xəbəri olmayan zorən "yazarlar" prezident Heydər Əliyev dühasının nailiyyətlərini günbəgün, aybaay, ilbəil inkar etməyə çalışır. Azərbaycanı parçalanıb dağılmaq təhlükəsindən xilas etmiş dahinin gördüyü işlərin üstünə kölgə salmaqdan ötrü dəridən-qabıqdan çıxırlar. Amma bütün bu "qara buludlar" çox alçaqdan uçub gedir. Heydər Əliyev dühası isə Azərbaycana günəş kimi nur çiləyir, onu qətiyyətlə irəliyə aparır, ölkəni bədxahlarımızın düçar etmək istədikləri fəlakətlərdən uğurla qoruyur. Və bu gün biz iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan yeni əsrin zaman pillələrinə özünün sınanmış lideri Heydər Əliyevin rəhbərliyi və İlham Əliyev fenomeni ilə ucalır.

Azərbaycan Dövlət Neft Şirkətinin I vitse-prezidenti, millət vəkili, Avropa Şurası Parlament Assambleyasının sessiyalarında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Yeni Azərbaycan Partiyası sədrinin I müavini, Milli Olimpiya Komitəsinin sədri, indi isə həm də Dünya Azərbaycanlılarının Əlaqələn-

dirmə Şurası İdarə Heyətinin üzvü İlham Əliyev kütləvi informasiya vasitələri üçün nadir müsahibələrində son səkkiz ildə möhtərəm prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında ölkəmiz və xalqımız üçün gördüyü işlərdən ətraflı danışmağı lazım bilmir, həmin işləri geniş şərh etməyə ehtiyac duymur. Sadəcə olaraq bildirir ki, "Mən heç kəslə rəqabət aparmaq fikrində deyiləm. Mən işlə məşğulam. Elə işlər ki, indidən real nəticələrini verir və gələcəkdə bu işin iqtisadi firəvanlığa gətirib çıxaracağına əminəm. Fəxr edirəm ki, Azərbaycanın neft sənayesinin dirçəldilməsinin yeni mərhələsinin təməlinin qoyulmasında mənim də xidmətim vardır." Vəssalam! Lakin dünya onun qibtəediləcək çoxcəhətli və uğurlu fəaliyyətini çoxdan diqqətlə izləyir, siyasi və iqtisadi analitiklər isə İlham Əliyev fenomenini dərin maraqla təhlil edib öyrənməyə çalışırlar. Buradaca mən Dağıstan ictimaiyyətinin məşhur nümayəndələrinin Azərbaycan Respublikasında yaşayan həmvətənlərinə 25 oktyabr 2000-ci il tarixli müraciətindən kiçik bir hissəni xatırlatmaq istəyirəm: "Öz düşüncə və əməllərinə görə İlham Əliyev XXI əsrin adamıdır - təmiz gen, müasir savad, beş xarici dildə danışmaq bacarığı, demokratik təfəkkür, bazar iqtisadiyyatına dair dərin dünyagörüşü və nəhayət, yüksək işgüzarlıq. Azərbaycanın sosial və iqtisadi inkişafı uğrunda mübarizə üçün İlham Əliyev dünya səviyyəli iqtisadçı və siyasətçi kimi formalaşmışdır. Xəzərin fəthi, net və qaz kəmərlərinin çəkilişi, Böyük İpək Yolu. Bütün bu proyektlər İlham Əliyevin ... dünya səviyyəli liderlərlə şəxsi görüşlərində müzakirə olunur. İlham Əliyevin dünya ictimaiyyətinin nəzərində gözəl işgüzar insan və uzaqgörən siyasətçi imici qazandığını etiraf etmək lazımdır".

Heydər Əliyev məktəbinin ən parlaq nümayəndəsi İlham Əliyev üçün "Siyasət dağıtmaq yox, qurub yaratmaqdır!". Bu sözlərlə də o, Vətəninin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında öz missiyasının mahiyyətini dəqiq ifadə etmişdir. Bu, qurub yaratmaq missiyasıdır! "Xalqa elə siyasət lazımdır ki, onun təhlükəsizliyini təmin etsin və normal yaşayışı üçün şərait yaratsın. Hərc-mərclik toxumu səpən və azərbaycanlıları bir-birinə düşmən edən siyasət bizə lazım deyildir. Xalq bunları artıq görmüşdür. Bunlar daha təkrar olunmayacaqdır".

Bu fikir İ.Əliyevin Vaşinqtonda, Nyu-Yorkda, San-Fransiskoda, Harvar və Stanford universitetlərində, Londonda, İstanbulda, bir sıra beynəlxalq formullarda, seminarlarda və mətbuat konfranslarındakı çıxışlarından qırmızı xətlə keçmiş, müəllifi Heydər Əliyev məktəbinin ən layiqli və ardıcıl yetişdirməsi kimi tanınmışdır.



Hələ 23 yaşında ikən Moskvanın məşhur Beynəlxalq Münasibətlər İnstitunda dərs deyən İlham Əliyev beynəlxalq aləmdə artıq dünyanın gənc və nüfuzlu liderlərindən biri kimi qəbul edilir. Planetin siyasi elitasının diqqətini təmkini, səmimiyyəti, intellekti, müsahiblərini dinləmək bacarığı ilə cəlb edən, dünya iqtisadiyyatının problemlərinə və onun inkişaf perspektivlərinə kifayət qədər yaxşı bələd olan İlham Əliyev dünyanın aparıcı dövlətlərinin məşhur siyasətçiləri, maliyyəçiləri və biznesmenləri ilə onların öz dillərində - yüksək siyasət və iqtisadiyyat dillərində danışır, öz ölkəsini də hər yerdə, ən müxtəlif formullarda yüksək səviyyədə təmsil edir, Azərbaycana rəğbət oyadır, hörmət qazandırır. Bunun özü də ölkəmizin diqqətəlayiq nailiyyətlərindən biri kimi qiymətləndirilməlidir.

Dünyanın siyasət mərkəzlərinin qapılarının İlham Əliyevin üzünə geniş açan amillərindən biri də onun demokratik prinsiplərə sədaqəti, insanı hər cəhətdən azad görmək arzusu və bu arzunun tam gerçəkləşməsində yaxından, bilavasitə iştirak etməsidir. İlham Əliyev qəti əmindir ki, "... insan azad olmalıdır, müstəqil olmalıdır. Hər hansı bir qərarı özü qəbul etməlidir, kiminsə təzyiqi nəticəsində yox, şüurlu şəkildə. Kimə dəstək verməyi, kimin ardınca getməyi özü müəyyən etməlidir. Buna görə də cəmiyyətdə demokratik prinsiplər hökm sürməlidir... ən başlıca amil insanın azad olmasıdır". Bütün bunlar göstərir ki, gələcəkdə İlham Əliyevin qurub-yaratmaq missiyasının hüdudları xeyli genişlənə və bütün regionu əhatə edə bilər.

H.Əliyev məktəbində inkişaf edib cilalanmış siyasi və sırf insani keyfiyyətlərinin regionda onu güclü birləşdirici və sabitləşdirici qüvvəyə çevirəcəyinə şəxsən mənim heç bir şübhəm yoxdur.

Lakin o, ilk növbədə öz xalqının oğludur və Azərbaycan onun üçün ən ülvi, ən müqəddəs diyardır. Sidney olimpiadasında idmançılarımızın öz rəqibləri üzərində qələbələrinin şahidi olduqca, ölkəmizin dövlət himninin sədalarını eşitdikcə İ.Əliyevin necə sevindiyini sözlə ifadə etmək çətindir. Həmin anlarda bu sevinci, bu qüruru görmək lazım idi! Amma İlham Əliyevi biz başqa məqamlarda, başqa salonlarda da görmüş, onun sərtliyi və prinsipiallığının necə möhkəm sipərə çevrildiyini seyr etmişik. Avropa Şurası Parlament Assambleyasının sessiyasında o, Ermənistanın terrorçu bir ölkə olduğunu təkzibedilməz faktlarla bütün dünyaya nümayiş etdirdi və bu təcavüzkar dövləti Azərbaycanın ərazi bütövlüyünü tanımaq məcburiyyətində qoydu. İ.Əliyev milli mənafeləri daim hakimiyyət uğrunda mübarizəyə qurban verməyə, Azərbaycanı odlar-alovlar içinə atmağa daim hazır olan müxalifət qüvvələri

barəsində də prinsipial mövqedə dayanır. Çünki Heydər Əliyev məktəbinin yetişdirməsi kimi, onun üçün əsas meyar xalqa, Vətənə xidmətdir. Heç də təsadüfi deyil ki, müxalifət partiyaları kimi tanınan siyasi qurumlar haqqında həqiqəti də məhz İ.Əliyev söylədi və bildirdi ki, bunlara partiyalar yox, dərnəklər demək daha düzgün olardı. Budur, dövlətin idarə edilməsindən xəbəri olmayan, yaxud 1992-ci ildə hakimiyyətdə olarkən ölkəni viran qoyan, onu vətəndaş müharibəsi həddinə gətirib çıxaran şəxslər indi belə şayiələr yaymağa başlayıblar ki, İ.Əliyev hakimiyyətə can atmır, buna görə də o, perspektivli siyasətçi hesab edilə bilməz. Bu riyakarlığın yeni iyrənc mərhələsidir. Amma müxalifətçi "ekspertlər" özləri də hiss etmədən əslində İlham Əliyevə rəğbətin daha da artmasına səbəb olublar. Çünki həqiqətən də o, hakimiyyətə yalnız hakimiyyət naminə gəlmək istəyən şəxslərdən deyil. Xalqa həmişə elə bir adam lazım olacaq ki, o, hakimiyyəti yüksək peşəkar səviyyədə, qanunlar çərçivəsində idarə etsin, ölkəsinin tərəqqisini, əhalinin firavanlığını təmin etsin. Bu mənada da İlham Əliyev milli sərvət sayılmalı və milli sərvət kimi qorunmalıdır. Burada bir məsələni də yaddan çıxarmaq olmaz: Heydər Əliyev kimi şəxsiyyətlər həyata 100 ildən bir gəlirsə, onların ailələrində İlham Əliyev kimi oğullar azı 300 ildən bir doğulurlar. Bu bir qədər rəmzi deyim olsa da, müəyyən mənada həqiqəti əks etdirir və Azərbaycan xalqının müasir tarixində İlham Əliyev şəxsiyyətinin yerini və rolunu təsəvvür etməyə imkan verir.

Son vaxtlar Bakıda geniş abadlıq işləri görülür. Gözoxşayan bu işlər şəhərin ümumi mənzərəsini dəyişib, onu daha da gözəlləşdirməklə yanaşı, ictimai ovqata da xoş təsir bağışlayır və ölkə paytaxtı sakinlərinin əhval-ruhiyyəsinə xüsusi təravət verir. Nizami rayonunun dövlət strukturları bu qurub-yaratmaq prosesində fəal iştirak etməyə çalışırlar. Bu barədə geniş danışmadan deyə bilərəm ki, yalnız son 3 ay ərzində rayonda 5 park əsaslı təmir edilmiş və tamamilə yenidən qurulmuş, 10 kilometr yol təmir olunmuş, 25 nümunəvi məhəllə yaradılmış və bir sıra başqa işlər görülmüşdür. Və ilk dəfə olaraq bizim rayonda məhəllə bayramlarının keçirilməsinə başlanmışdır. Belə bayramlar onların keçirildiyi məhəllələrdə görülmüş abadlıq və təmizlik işlərinə ümumi baxışa çevrilir, kütləvi gəzintilər keçirilir, mədəniyyət və incəsənət ustalarının, idmançıların və ağsaqqalların çıxışları təşkil edilir. Bütün bunlar mənəvi deqradasiyanın qarşısına sipər çəkməyə, nəsillər arasında əlaqənin möhkəmləndirilməsinə kömək edir. Uzun fasilədən sonra bərpa olunmuş bu məhəllə bayramlarında artıq 30 mindən çox adam iştirak etmişdir. Belə



bayramlar zamanı sakinlər, əsasən də gənclər binaların pəncərə və eyvanlarının üzərində möhtərəm prezidentimiz Heydər Əliyevin və onun ləyaqətli şagirdi İlham Əliyevin portretləri olan partiya plakatları ilə bəzəyir, ölkəmizin bu günü və gələcəyi üçün görülən işlər üçün onlara minnətdarlığını bildirir, 2003-cü ildən sonra da prezidentimizi öz postunda görmək istədiklərini, İlham Əliyevi isə gənc nəslin alternativsiz lideri hesab etdiklərini söyləyirlər.

Bütün bunları görəndə düşünürsən ki, xalq kimin kim olduğunu və kimin nəyə qadir olduğunu artıq çox yaxşı bilir. Bilir ki, öz taleyini heç vaxt əsl şəxsiyyət kimi yetişə bilməyəcək dil "pəhləvanlarına", xalq üçün zərrəcə faydalı bir iş görməyib, yalnız onun çiynində yenidən hakimiyyətə necə gəlmək barədə düşünənlərə deyil, həyatının hər bir anını xalqına həsr edən sevimli prezidentinə və Heydər Əliyev məktəbinin güclü dayağı və davamçısı kimi yetişmiş İlham Əliyevə etibar etməlidir.

İlham Əliyev də xalqın dəstəyinə tam arxayındır. Bunu onun mətbuat üçün müsahibələrinin birində dediyi bu sözlər də gözəl əks etdirir: "qaçqınlarla görüşün, güzəranı ağır olanlarla söhbət edin və İlham Əliyevin kim olduğunu onlardan soruşun".

Maraqlıdır, hansı müxalifət lideri özü haqqında fikrin qaçqınların və güzəranı ağır olanların dilindən eşidilməsini istəyər? İstəsə də bu fikrin hansı sözlərdən ibarət olacağını təsəvvür etmək çətin deyil...

**Eldar Əzizov,**
Nizami rayon İH başçısı

## GƏNCLİYİN ÜMİD ÇIRAĞI

Azərbaycanda demokratiyanın totalitarizmə qalib gəlməsi, ölkəmizin müstəqil bazar iqtisadiyyatı yolunda inamla addımlaması, insan hüquq və azadlıqlarının təminatı, prezitentimiz hörmətli Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan keçid mərhələsini yaşayır. Ağrılı-acılı keçən günlərimizi arxada qoyaraq yeni əsrə Heydər Əliyevin ideyaları ilə qədəm qoyuruq. Biz gənclər bu ideyaları əsas tutaraq yeni əsrə Heydər Əliyev məktəbinin davamçıları kimi gedirik.

Fenomen siyasi gedişləri ilə vətəndaş müharibəsi təhlükəsinin, dövlət çevrilişləri cəhdlərinin, parçalanmanın qarşısını aldı. Ölkədə sabit ictimai-siyasi durumu təmin etdi.

Azərbaycanda demokratiyanın qarantı olan hörmətli Heydər Əliyev cəmiyyətdə söz azadlığına, plüralizmə şərait yaratdı.

Azərbaycan gənclərini təşkilatlandırmaq iqtidarında olan idman və Gənclər Nazirliyinin yaranması təşəbbüsü hörmətli Heydər Əliyevə məxsusdur.

Gənc kadrlara göstərilən qayğı, savadlı mütəxəssislərin rəhbər vəzifələrə seçilməsi hörmətli prezidentimizin biz gənclərə göstərdiyi etimadın parlaq nümunəsidir.

Heydər Əliyev gəncliyin milli simvoludur.

Siyasətin meyarı tarixi sınaqdır. Bu sınaqdan ancaq xalqın, vətənin bu günü, sabahı üçün çalışan vətənpərvər oğullar layiqincə çıxa bilərlər. Belə sınaqlardan uğurla çıxan gənc liderlərdən biri də İlham Əliyevdir. Bugünkü ictimai-siyasi proseslərə nəzər yetirərkən görmək olur ki, artıq cənab İlham Əliyev Azərbaycanın siyasi səhnəsində Heydər Əliyev siyasi kursunun davamçısı kimi böyük siyasətə doğru cəsarətlə addımlayır.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələr dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunur. İndi daha da irəli getmək üçün, xüsusilə biz gənclərin üzərinə çox böyük vəzifələr düşür. Fərəhli haldır ki, artıq bütün dünya gənc Əliyevi yetkin bir siyasi xadim kimi qəbul edir və onunla hər cür iş birliyi qurmağa hazırdır.

Xüsusilə İlham Əliyev YAP-ın sədrinin müavini seçildikdən sonra YAP-a gənclərin kütləvi axını başlamışdır. Bunun ən başlıca səbəbi gənc liderin hər işdə şəxsi nümunə göstərməsi, əməlləri ilə rəğbət qazanmasıdır. İlham Əliyevin başçılığı ilə respublikada idmana göstərilən qayğı, ölkə daxilində idman məktəblərinin fəaliyyətlərini bərpa etməsi, gənclərlə keçirildiyi görüşlər bizi bir daha ruhlandırır.

İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasının nümayəndə heyətinə başçılıq etməsi biz gəncləri daha da qürurlandırır. Nümayəndə heyətində İlham Əliyevlə yanaşı, digər gənclərin olması, onların qəti olaraq əldə etdikləri uğurlar bizi sevindirir. Biz öz fəaliyyətimizdə dönüş yaradaraq İlham Əliyevi gənclərin lideri hesab edirik. İlham Əliyevin davmçısı olmağımızla fəxr edirik.

**Elmir Vəliyev,**
Azərbaycan Texniki Universitetinin tələbəsi

# İLHAM ƏLİYEVLƏ GÖRÜŞ QISA, YADDA QALAN OLDU

Salyan rayonunun YAP üzvləri özlərinin II qurultayına qısa, lakin mənalı bir görüşün xoş təəssüratı ilə gəliblər. Bu, noyabrın 1-də millət vəkili, YAP-ın sədr müavini, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin sədri İlham Əliyevlə olan görüş idi.

İlham Əliyev Lənkəranda YAP-ın rayon təşkilatının konfransından dönərkən Salyan ictimaiyyətinin nümayəndələri, YAP üzvləri bundan xəbər tutmuş, avtomobil magistralına yaxın olan avtovağzal ətrafına toplaşmışdılar. Bu, rayon zəhmətkeşlərinin görkəmli-siyasi xadimə, YAP-ın sədr müavininə, millət vəkilinə olan məhəbbətin təzahürü idi. İlham Əliyev qısa görüşdə rayon zəhmətkeşlərinə xoş arzularını bildirdi və bu görüş üçün məmnun olduğunu söylədi. İlham Əliyevin yolüstü salyanlılarla görüşü rayon ziyalıları, ağsaqqalları və bütün əhaliyə olan hörmətin ifadəsi idi.

Biz fəxr edirik ki, bu gün bizim İlham Əliyev kimi siyasətçimiz var. Dahi şəxsiyyət Heydər Əliyev ocağının yetişdirməsi artıq beynəlxalq aləmdə yetkin bir siyasətçi kimi tanınmağa başlayan İlham Əliyevə rayonda sözün əsl mənasında, böyük məhəbbət var. Bu məhəbbətin ifadəsini rayonun adlı-sanlı adamları, ziyalıları ilə söhbətlərdən bilirik. Onlardan YAP-ın II qurultayının nümayəndəsi həkim Afət Ələkbərov, İbrahim Cəfərov, Ələsgər Mehdiyev, Məsud Əhmədov, eləcə də Hacı Hafiz Əsgərov, Kərəm Muradov, Mirzə Mirzəyev belə fikir ifadə edirlər ki, Heydər Əliyevin rəhbərlik etdiyi YAP XXI əsrin ən nüfuzlu partiyasıdır. Bu partiyada yeni siyasi liderlər yetişir. Onlardan ən öncülü millət vəkili, YAP-ın sədr müavini İlham Əliyevdir. İlham Əliyev sabaha ümidlə baxan, xalqın ümidlərini doğrulda bilən bir siyasətçidir.

Biz onun Avropa Şurasındakı parlaq çıxışlarını dinləmişik. Onun Ermənistanın nümayəndələrinə verdiyi sərt, kəskin və obyektiv cavab hamının ürəyindəndir. Belə nüfuzlu şəxsiyyət məhz ölkəni də idarə etməyi bacarar.

Beləliklə, demək olar ki, YAP-ın Salyan rayon təşkilatı bütün qayğı ilə əhatə olunub. Biz möhtərəm prezidentimiz, YAP-ın sədri Heydər Əliyevin birinci qurultayda qarşıya qoyduğu vəzifələri bu günə qədər ləyaqətlə yerinə yetirməyə çalışmışıq və bundan sonra da şübhəsiz ki, II qurultayın qəbul etdiyi qərarları böyük ruh yüksəkliyi ilə həyata keçirəcəyik.

**Etibar Hüseynov,**
YAP Salyan rayon
təşkilatının sədri

## BİZİ UĞURLU GƏLƏCƏK GÖZLƏYİR

Əməllərimizin son məqsədi - sevinc, fərəh, xoş güzəran olmalıdır. Lakin öz əməyini, öz həyatını adamlara həsr etməsən - xoşbəxt ola bilməzsən. Təklikdə sevinmək, qürur hissi duymaq mümkündür. Amma xoşbəxt olmaq yox. Təbii ki, bir müdrik demiş, quş uçmaq üçün yarandığı kimi, insan da xoşbəxtlik üçün yaranmışdır. Gəlin bunu da xatırlayaq: səadət hər kəsin öz əlində, əməlindədir... Ümmanların, dəryaların, dənizlərin sahilinə nə üçün, niyə mayaklar qoyurlar? Çünki insanlar onun yanmasından hünərlənsinlər, mənzil başına çatmaq inamları öləziməsin... Obrazlı desək, ölkəmizin hazırkı durumunu şərti olaraq dənizə bənzətsək, qətiyyətlə, birmənalı deyirəm: ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, YAP sədrinin birinci müavini, MM-in deputatı İlham Əliyevi mənəvi baxımdan xalqımızı işıqlı sabahlara, firavan yaşamağa ruhlandıran mayaka oxşadardıq. Onun sözləri vədləri ilə əməli fəaliyyəti arasında sıx bağlılıq var. İlham müəllimin gənclik şəhəri Sumqayıtdakı çıxışından bəzi epizodları xatırlayıram:

- 1993-cü ildə xalqın tələb və arzusu ilə Heydər Əliyev yenidən hakimiyyətə gəlməsəydi, Azərbaycanımızı böyük fəlakətlər gözləyirdi. Yalnız onun qayıdışından sonra fəlakətlərə, faciələrə son qoyuldu, qanlı müharibə dayandırıldı. Təsəvvür edin, 1994-cü ildə müharibə dayandırılmasaydı, biz daha nə qədər itkilər verə bilərdik. Daha sonra vətəndaş savaşının qarşısı alındı. 1994-95-ci illərdə dövlət çevrilişinə cəhdlər edildi. Bunların da qarşısını xalqımız aldı. Çünki xalq iqtidarı dəstəkləyir, Heydər Əliyevə inanır və bundan sonra da dəstəkləyəcəkdir.

İqtisadiyyatın gələcək inkişafı üçün gözəl zəmin yaradıldı. Son illər biz böyük nəticələr əldə etmişik. Faktlar, göstəricilər sübut edir ki, respublikamız sürətlə inkişaf yolundadır. Hesablamalar göstərir ki, yalnız bir müqavilədən - "Azəri", "Çıraq", "Günəşli" yataqları barədə imzalanmış müqavilədən ölkənin xəzinəsinə 150 milyon dollar dəyərində vəsait daxil olacaq. 2005-ci ildən sonra 500 milyon dollar, 2008-ci ildən sonra isə bir milyard dollar vəsait daxil olacaqdır. Təsəvvür edin, bu məbləğlər ölkəmiz üçün nə deməkdir? Bunu biz yaradırıq və gələcəkdə də yaradacağıq.

Sumqayıt şəhərində sosial-iqtisadi problemlər barədə tam məlumatımız var. Biz bilirik ki, burada sosial vəziyyət o qədər də ürəkaçan deyildir. Amma biz bu problemlərin həlli yollarını da bilirik. Biz bu istiqamətdə artıq müsbət nəticələr əldə edə bilmişik.

... Xalq o lideri, rəhbəri sevir, onun amal və ideyalarını dəstəkləyir ki,həmin şəxsiyyətin ürəyi, qəlbi xalqı ilə birgə döyünsün, düşünsün. Əminliklə deyirəm: İlham Əliyevdə bu keyfiyyətlər artıqlaması ilə var.

Həyat-kitabdır və bu kitabı hər kəs özü yazır. Bu kitabı qaralamaq və səhv yazmaq olmaz. Üzünü də köçürməyə vaxt verilmir. Həyatda nə etmisənsə, o da qalacaq. İnanıram, İlham Əliyevin ömür kitabı gələcəkdə çoxlarının güzəranı üstünə şəfəq saçacaqdır.

Məsəl var, deyərlər: insanın harası ağrıyırsa, canı ordadır. Əgər doğma vətənimizi canlı orqanizmə bənzətsək, onun ən ağrılı, göynərtili yeri yarası gözünün önündədir. 20 faiz torpaqlarımızın qan düşmənlərimiz tərəfindən işğal olması, milyon nəfərdən çox soydaşlarımızın ata-baba yurdlarından, el-obalarından məcburi didərgin düşmələri məgər varlığımıza qənim kəsilən dərdimiz, fəryadımız, yaramız deyilmi? Yaradır! Özü də namərdcəsinə arxadan, ürəyimizin üstündən vurulub. Lakin yaxşı bilirik və inanırıq ki, torpaqdan pay olmaz. Torpaqlarımız gec-tez özümüzə qaytarılacaq. Bu qətiyyətə Milli Məclisə deputat seçkiləri zamanı Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini cənab İlham Əliyevin çıxışından sonra gəlmişəm. İlham Əliyevin faktlara, dərin məntiqə, siyasi uzaqgörənliyə əsaslanan əhatəli nitqi qürurumuzu, gücümüzü, qüvvəmizi daha da artırmış oldu. O, demişdir:

- ... Heydər Əliyev ermənilərlə mübarizə aparır, ancaq əməli fəaliyyətimizi bəyənməyən müxalifət-paytaxtdan 200-300 kilometr aralı olan qaçqın çadırlara gəlməyən qüvvələr - Amerika Birləşmiş Ştatlarına gedib, konqresdə erməni lobbisi ilə bərabər respublikamızdakı vəziyyəti müzakirə edirlər. 907-ci düzəlişin müəllifi, anti-Azərbaycan kampaniyasının rəhbəri, erməni lobbisinin tribunası, "erməni soyqırımı" cəfəngiyat layihəsinin müəllifi, konqresmen SMİT bunların fəaliyyətlərinin istiqamətləndiricisinə çevrilib. Onlar bilərəkdən, yaxud sabahı düşünmədən Azərbaycanımızı erməni lobbisi qarşısında məsxərəyə qoyurlar. Aqrar islahatın uğurlu başlanğıcı kimi torpağı öz sahibinə verən Heydər Əliyevi bəyənməyən müxalifət yeddi il əvvəl camaa-

tına arpa çörəyi yedizdirirdi. Ancaq cənab prezidentin apardığı islahatlar indi xalqı şəxsi sektor sahibinə çevirib. Uğurlu neft strategiyamızın nəticəsi göz önündədir. Bu xalqımızın, konkret - sizin pulunuzdur, sizin övladlarınızın xoş sabahını təyinedən vəsaitdir. Maaşlar, pensiyalar, müxtəlif konpensasiyalar artıb... Unutmayın, Azərbaycanın inkişafını, sizin yüksək səviyyədə yaşamanızı yalnız bir şəxsiyyət təmin edə bilər - o da Heydər Əliyevdir. Bu gün sizlərə bir daha bəyan edirəm: əgər ardıcıl olaraq apardığımız sülh siyasətimiz bizi təmin etməsə, qüdrətli ordumuzun gücü Qarabağı yenə də ölkəmizin cənnət guşəsinə çevirəcək. Əmin olun, indiki müxalifətin hakimiyyəti dövründə işğal olunan Qarabağı Azərbaycana Heydər Əliyev qaytaracaq. O gün uzaqda deyil!

Biz bu taleyüklü vədlərə inanırıq. Tam əminik ki, öz torpaqlarımız yaxın gələcəkdə özümüzün də olacaq. Hazırda qartallar oylağı Qarabağa ermənilər ləkədir. İnşallah, çox çəkməz, həmin murdar ləkəni birdəfəlik silib atarıq. Və mənə verilən fürsətdən, imkandan istifadə edib bir fikrimi də açıqlayıram: hünər, əzəmət, qeyrət rəmzi heykəl Qarabağı azad edənin şərəfinə ucaldılacaq!

**Əliheydər Həmzəyev,**
YAP, Astara rayon təşkilatının sədri



# MƏRDLİK VƏ MƏHƏBBƏT İŞIĞINDA

Onun həyatı Azərbaycan tarixinin bir hissəsidir. Mavi dəryalar kimi çağlayıb çırpınan, çiçəklənən, gündən-günə yüksələn, gələcək adlı əbədiyyətin millətlər arenasında özü həqiqətən tezliklə çox layiqli, öncül yerlərdən birini tutacaq doğma Odlar Yurdumuzun ağrı-acılı olsa da, hardasa şərəfli, ecazkar tarixinin bir hissəsi. Dünyada elə adamlar var ki, tarix-siyasət səhnəsində bir az müddətdə görünəndən sonra onların ömür-həyat üfüqləri üzə çıxır, görünür. Amma elə nadir xarakterli şəxsiyyətlər var ki, onların üfüqləri sahilsiz, hüdudsuzdur, adi gözlə görünməyəndir, öz mənsub olduğu ölkəsi ilə yanaşı, dünya meridianlarına da işıq salandır.

Deyirəm, dünyanın əbədi aksiomlarından biridir ki, görün nə xoşbəxt adamlardı öz qəlbinin işığında yol gedən adamlar. Bu - anadangəlmə, fitri istedadlar öz içlərindən alışaraq, daim çıraqlar kimi işıqlarını öz diblərinə yox, başqalarının da yollarına salır, talelərə, ömürlərə-günlərə paylayır. Belə adamlar heç vaxt durub-oturub şöhrət haqqında düşündükləri yadlarına gəlməz, şöhrət özü durub gələr onların vətən sayalı, yurd-torpaq hənirli ayaqlarına.

Bir daha təkrara ehtiyac duyuruq ki, ölkələrin elə uca dağ zirvələri var ki, uzaqlardan gözə dəymir, amma bu cür fədakar, sözün tam mənasında fədai insanlar dünyanın hansı meredianından baxırsansa bax, görünürlər.

Yəqin ki, çoxdan ürəyinizə damdı, söhbət millətimizi, yurdumuzu dünyanın bütün millətləri arasında layiqincə təmsil etməyə qadir və buna eyni zamanda mənəvi haqqı olan İlham Əliyevdən gedir!

Əvvəl bir beşik olur insana Vətən, ünvanı, sonra bir kənd, bir rayon, sonra da respublika, məmləkət, daha sonra isə onun şöhrətli adı dünyanın harasında çəkilirsə, o ad özü dönüb olur doğma respublikasına ÜNVAN. Bunlara

obrazlı şəkildə, Vətənin vizit vərəqi də deyirlər...

Savadlı hüquqşünas.

Ağıryana, oturuşu-duruşunda hətta bir qədər ağayana, çoxşaxəli istedad-bacarığı olan, ləyaqətli millət vəkili.

Pedaqoq-alim.

Özünəməxsus novatorluğu, üslub tərzi olan qələm əhli.

Bacarıqlı təşkilatçı.

İndi də ki, Vətənin bu çətin, həyəcanlı, taleyüklü günlərində-aylarında fəal siyasətçi. Ürəyini Danko kimi yandırıb, millətinin, xalqının başı üzərində məşələ döndərən təmənnasız bir vətəndaş! Bu vətəndaşlıq sözünə bir səmimiyyət, təvazökarlıq da əlavə etsək, fikrimizin təbii, iddiasız gözəlliyi bir az da cilalanar, tamamlanar.

Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, RF Elmlər Akademiyasının həqiqi üzvü, Fərman Salmanov deyirdi ki, onun həmkarlarından birinin oğlu İlham Əliyevin dərs dediyi İnstitutda oxuyurmuş - İlhamın adı o uşağın dilindən düşməzmiş!

Həyat aləmi gözlənilməzliklərlə doludur. Ümumiyyətlə, bu - həyatın əbədi və əzəli, həm də ağrılı qanunudur: istedadlı, bacarıqlı, iş görə bilən (iş görə bilənlər həmişə iş görür, görə bilməyənlər isə öyrədir, dərs verir!), fenomen, cəsarətli, qeyrət mücəssəməsi olan adamların düşmənləri daha çox birləşib ortaya çıxır. Kreml qaragüruhçularının demək olar ki, əksəriyyəti Əliyevdən tük salırdı, onu görən gözləri yox idi. Əgər Qorbaçov kimiləri əl-ələ verib, onu tutduğu yüksək postdan istefaya göndərməsəydilər, o, indi kim bilir, daha hansı yüksək zirvələrdə vüqarla qanad çalan qartala dönmüşdü! O, yəqin ki, hələ çox-çox digər xalqların da taleyində aparıcı-mühüm rol oynayacaqdı... Lakin qəribə də olsa, etiraf etməliyik ki, bu tale, qismət yanlışlığının özündə də bir naxış var. Əliyev xalqının oğlu idi və Tanrının da özünün köməyi ilə Vətənə döndü, xalqının, torpağının harayına yetişdi. Azərbaycan məmləkəti düşmən ünsürlərin qanlı caynaqlarında talan olunub gedirdi. O gəldi. Zümrüd quşu xalqının yönünü qaranlıqlardan işığa doğru yönəltdi. Yurdun bükülmüş beli dikəldi.

Unudulmaz şairimiz Rəsul Rzanın dediyi kimi: "Mübarizə bu gün də var, yarın da - Mən də onun ön sıralarında!"

Onun prezident atası gözlərinin qabağında ömür boyu öyrəniləsi hazırca məktəbdir, bəlkə də məktəb yox, bütövcə bir Akademiyadır. Addımlayan Akademiya. Çox şübhəsiz ki, oğul özü üçün sabaha, gələcəyə lazım olası



"dərsləri" alıb. Bir vaxt siyasi iqtisadın mənəvi atası Adam Smit dönə-dönə təkrar eləyirdi ki, bütün sivilizasiyaların, mədəni yüksəlişlərin (hətta müharibələrdə qələbələrin də!) uğuru yalnız və yalnız güclü-qüvvəli iqtisadiyyatın çiyinlərində çiçəkləyir...

İlham Əliyev bu fəlsəfi kəlamların işığında, öz mərdliyinin, xalqa, torpağa olan hədsiz məhəbbətinin çıraqbanlığı altında yaşayır və işləyir. Hər sözünün başında neft bizi xilas edəcək, -deyir, -nankor ermənilərə torpaq verdi söhbəti ola bilməz - deyir. Zəngəzuru da vermişik, Göyçəni, Gümrüyü, Vedibasarı da. Bəsləri deyilmi?!

Vətəndaşlıq, yüksək əxlaq, zəngin mənəviyyat - həmişə yaz küləkləri əkinlərin toxumlarını məhəbbətlə cücərtdiyi kimi, insan qəlbinin də dərinliklərində yatıb qalmış enerji potensialını üzə çıxarır. İlham Əliyevin könüllü olaraq, idmana yiyə durmağı, görün, Azərbaycanın şöhrətini haralara qaldırdı?! O deyəndə ki, Sidneydə himnimiz səslənəndə, Azərbaycan bayrağı hətta Amerika kimi qüdrətli bir dövlətin bayrağından bir neçə barmaq ucaya qalxanda, inanın ki, biz gözlərimizin yaşını saxlaya bilmirdik.

Bu gün biz də bu qürurlu oğulun vətən təəssübkeşliyindən xoşbəxtcəsinə qəhərlənirik. Sabaha gedən yolumuzun başının üstündə göylərimizi apaydın, ulduzları daha çilçıraqlı, günəşimizi də daha odlu və parlaq görürük.

Bütün bu müsbət, xalqımızın mənafei naminə aparılan taleyüklü islahatlarda, dönüşlərdə İlham Əliyevin də gərgin zəhməti, uğurlu fəaliyyəti danılmazdır. Onun ARDNŞ-nin birinci vitse-prezidenti kimi apardığı danışıqlar, sahə üzrə təşəbbüs göstərib imzaladığı müqavilələr nəhayət öz bəhrəsini vermişdir.

Möhtərəm prezidentimizin 29 iyun 2000-ci il tarixli "Əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə təminatının yaxşılaşdırılması haqqında" fərmanı bizim iş proqramımız olmuşdur.

Artıq biz xarici ölkələrə, xüsusən sabiq SSRİ respublikalarına mazut satırıq. Bunun bizə ikitərəfli sərfəsi var. Birinci, təbii ki, mazut yandırılarkən onun tullantıları ekologiyamızın çirklənməsinə səbəb olurdu. İkinci, Rusiyadan təmiz hasil olunmuş qaz alırıq. Bütün bunlar məhz cənab İlham Əliyevin səyi, təşəbbüsü, qayğısı, müntəzəm olaraq apardığı işgüzar danışıqlar hesabına mümkün olmuşdur.

Əhalinin sosial tələbatının vaxtında və keyfiyyətlə ödənilməsi, xüsusən maye yanacaq kimi qəbul etdiyimiz qazla təmin olunması ən önəmli, vacib proqramımızdır. 2001-ci ilin noyabrından Qazax, Ağstafa, Şəmkir, Tovuz,

Göyçay, Ağsu, Ağdaş, İsmayıllı, Yevlax, Kürdəmir, Goranboy, Samux, Xanlar, Qəbələ, Daşkəsən, Gədəbəy, Lənkəran, Astara, Biləsuvar, Masallı, Cəlilabad və başqa bölgələrimizə qaz veririk. Gəncə şəhərinin qazlaşmasında müəyyən problemlər mövcud idi. Lakin şəxsən İlham Əliyevin yaxından köməyi və qayğısı sayəsində qədim Nizami yurdunun sakinlərinin qaza olan tələbatı müəyyən qədər ödənilmişdir. 2002-ci ilin sonuna kimi Gəncəyə qaz verilməsi və əhalinin qazla təmin olunması daha da yaxşılaşdırılacaqdır.

Əgər bu gün işimizdə yaratdığımız müsbət dəyişikliklərlə, uğurlu nəticələrlə iftixar hissi keçiririksə, bunlara görə ARDNŞ-nin vitse-prezidenti, millət vəkili İlham Əliyevə minnətdarıq. Biləvasitə onun yaxından rəhbərliyi və qayğısı ilə adamlarımızın qazla mütəmadi təmin edilmələrinə nail olmuşuq. Və hər bir sakin də bu qayğıya görə sağlam düşüncəli, saf əqidəli insan olan İlham Əliyevə minnətdardır.

**Əlixan Məlikov,**
Azəriqaz SC prezidenti



## SÖZÜNÜN SAHİBİ

Aqillər deyib ki, eşitdiklərinə yox, gördüklərinə inan. Görmüşəm ki, son vaxtlar Qaradağ rayonu, onun qəsəbələri, kəndləri gündən-günə yeniləşir, təzələnir, müasir tipli yaşayış massivlərinə çevrilir. Təbii ki, bu tərəqqinin, dönüşün yeniləşməsində İlham Əliyevin xidmətləri çoxdur.

Bəllidir ki, rayonumuz paytaxta-Bakıya bitişikdir. Ancaq onun saysız-hesabsız taleyüklü problemləri vaxtında həll olunmur, ildən-ilə atılırdı. Bürokratizm, süründürməçilik baş alıb gedirdi. Sakinlərin sosial-iqtisadi durumu son dərəcə aşağı səviyyədə idi. Qısası, bütün bunlar - yəni problemlərimiz öz həllini gözləyirdi. Nəhayət, arzumuza çatdıq. ARDNŞ-nin birinci vitse-prezidenti, YAP sədrinin birinci müavini cənab İlham Əliyev seçicilərinin önündə vəd verdi ki, rayonun cari çatışmazlıqlarını tezliklə aradan qaldırılmasına çalışacaq. O, sözünə vaxtında, diqqətlə, qayğıyla əməl etdi. Sözünün, vədinin sahibi oldu.

Rayonumuzun mərkəzi Lökbatan qəsəbəsində on-on beş il əvvəl toz-torpaqdan, palçıqdan tərpənmək, nəfəs almaq belə mümkün deyildi. Son vaxtlar onun hüsnü-camalı büsbütün dəyişib. Yeni küçələr və meydanlar salınıb. Yaşıllığın artırılması, mühafizəsi mütəmadi nəzarət altındadır. Elm, təhsil, mədəniyyət, səhiyyə müəssisələrinə daim qayğı göstərilir. Yeni poliklinika, uşaq xəstəxanasının nümunəvi fəaliyyətləri sakinlərin ürəyincədir. Rayonumuzda azyaşlı uşaqlardan ibarət təşkil olunmuş "Qağayı" ansamblının xoş sorağı indi uzaq-uzaq ölkələrdən gəlir. Sakinlərimizin asudə vaxtlarının səmərəli, mənalı keçirilməsi daim tənzimlənir.

Lökbatandan Qızıldaş qəsəbəsinə gedən on beş kilometr yol, qəsəbədə xəstəxananın, hamamın, telefon qovşağının bərpası, tikilməsi, istifadəyə verilməsi bilavasitə, məhz cənab İlham Əliyevin öz seçicilərinə verdiyi vədin sayəsində mümkün olmuşdur. O, şirin sözlərlə, ötəri, tezcə yaddan çıxan ümidlərlə yox, həqiqətlə, gördüyü işlərin müsbət nəticələriylə çoxsaylı seçicilərin etimadını doğruldub. Sübut edib ki, sözünün sahibi insandır.

**Məmmədbağır Əliyev,**
"Əyalət " qəzetinin baş redaktoru,

## GƏNCLİYİMİN BAYRAQDARI

Liderimiz İlham Əliyev cənablarına

Ömür deyil, od altında yatası,
Onun adı al Günəşə çatası...
İnsaf, rəhm, mərhəmətlər atası,
Gəncliyimin bayraqdarı Odur, O!

Ürəyini el dərdinə bağlayan,
Çaylar kimi gecə-gündüz çağlayan,
Qaçqınlığa-köçkünlüyə ağrıyan,
Qarabağın havadarı Odur, O!

**Cəmil Kazımlı,**
Akstafa şəhəri



## NURTƏK AYDIN KÜRTƏK COŞQUN

Balaca bir sudur yer üzündə kür,
Baxsan bu dünyanın xəritəsinə.
Bəs niyə sinəmdə ümman döyünür
Mən qulaq asdıqca Kürün səsinə?!

Ulu Səməd Vurğunun bu ölməz misraları sanki onun bugünkü, sabahkı taleyi üçün deyilib.

İlham Əliyevin siyasi proseslərdə aktiv iştirakı cəmiyyətin siyasi təhlükəsizlik problemlərinin həlli istiqamətində həlledici faktora çevrilib. Heç kəsdə şübhə yeri qalmaz ki, faktiki olaraq, İlham Əliyev cənabları cəmiyyəti bu qəbildən olan neqativ tendensiyalardan sığortalayan və perspektivdə ölkənin ictimai-siyasi inkişafına təminat verən LİDER statusu qazanmaqdadır.

İlham Əliyev üç problemdən başlayıb. Neftin nəqli, Dağlıq Qarabağ və narkotika ilə mübarizə! YAP sədrinin birinci müavini kimi onun siyasi proseslərdə praqmatik keyfiyyətlərinin üstünlük təşkil etməsidir. Çünki o, çox gözəl bilir ki, bu gün Azərbaycan üçün siyasi illüziyalar deyil, məhz, əməli fəaliyyət lazımdır! Biz GƏNCLİYİMİZİN SAĞ ƏLİ olan liderimizə uzun ömür, cansağlığı arzulayırıq.

**Elman Yəhyayev,**
Nərimanov rayon Gənclər İdman
və Turizm idarəsinin rəisi

# BU ONUN ƏSRİDİR

"Bugünə qədər sevilən və sonradan daha çox seviləcək şəxsiyyət tək öz ocağının-ailəsinin deyil, bütövlükdə mənsub olduğu millətin sabahkı ümid yeri, taleyinin sükançısı olmalıdır..."

**Atatürk.**

Dünya teatr sənətinin korifeylərindən olan Stanislavski XX əsri təkcə heyrətamiz kəşflər və atom əsri yox, həm də zəngin, başgicəlləndirici rejissura əsri adlandırmışdır. Bu, doğrudan da, belədir. Bu - bizlərə, Azərbaycan türklərinə daha çox aydın olan bir məsələdir. Belə ki, indi məktəbli uşağa da aydındır ki, əgər yer kürəsi nəhəng bir səhnədirsə və bütün millətlər YER TAMAŞASININ aktyorlarıdırsa, onda Azərbaycan da, heç şübhəsiz ki, ÖZ NEFTİYLƏ baş rollardan birinin ifaçısıdır.

Bu gün dünya xalqlarından daha çox məhz biz, əlimizi ürəyimizin üstünə qoyub, tam bir inamla, rahatlıqla hadisələrin sonrakı inkişafını izləyə bilərik. Çünki artıq gün kimi aydın bir həqiqəti heç kəs dana bilməz ki, məmləkətimiz dünya siyasət okeanında üzən möhkəm, dözümlü bir gəmidirsə, onun Heydər Əliyev kimi də müdrik, yorulmaz, cəsarətli və uzaqgörən kapitanı var! Onun ən çıxılmaz, mürəkkəb vəziyyətlərdən baş çıxara bilməsi... çox-çox "antilərin", pessimist çuğulçuların əlinin arxasını yerə vurur. Bu siyasi liderin əvəzedilməzliyini, sirayətedici qüdrətini hətta bu günkü ən qatı müxalifətçilər də inkar edə bilmirlər.

Ötən illərdə Bakıda keçirilən "IV Beynəlxalq Xəzər Neft-Qaz 97 sərgisi" və konfransı bir azərbaycanlı kimi məni ürəkdən sevindirib. Zarafat deyil, neft sahəsində dünyada tanınmış, demək olar, bütün məşhur beynəlxalq şirkətlər "Neft Akademiyası" olan Bakımızda təmsil olunurdu! Və istər-istəməz, indiyədək "adı bizim, dadı özgənin olan" qara qızılın sabah yaradacağı təntənəni düşünəndə, bu böyük tarixi həqiqətin yaradıcısı, əsgəri və komandiri, "öz ömründən şüurlu surətdə kəsib xalqının ömrünə calayan" Heydər Əlirza oğlunun möhtərəm adını bir daha minnətdarlıqla, qürurla, iftixarla anmalı olursan. Bu da bəxtdir. Tanrının bizə göndərdiyi paydır...

Bu işıqlı taleyin müqəddəsliyini bir daha dərindən duymaq üçün tədqiqatçı-alim Züleyxa Əsədüllayevanın Prezidentimizə həsr etdiyi kitabı oxumaq kifayətdir.

Mən bu yazıda müqəddəs Əliyev familiyasının daşıyıcılarından biri ARDNŞ-in I vitse-prezidenti İlham Əliyev barəsində bir neçə kəlmə demək istərdim. Bu ucaboy, görkəmli gənc öz sahəsinin ləyaqətli təmsilçisidir. Heç şübhəsiz ki, öncül adamlarda xalqa, kütləyə xüsusi təsir gücünə malik zahiri görkəm də az rol oynamır. Bunun indiki prezidentimizin şəxsində yüz dəfələrlə şahidi olmuşuq. Ondakı davranış, oturuş-duruş təmkin və köhnə kişilərə məxsus ağayanalıq, fəxr doğurası boy-buxun Tanrı mərhəmətindən eynilə oğluna keçməyibmi? Bircə görsəydiniz, foto-müxbir Yaşar Xəlilov Vaşinqton görüşündən necə ürəkdolusu danışırdı: göz önünə gətirin, bütün dünya prezidentləri Klintonun əlini sıxmaq üçün növbəyə durub gözləyir, Klinton əlini qaldırıb ucaboy Əliyevi salamlayır və bizim Prezidentimiz heç növbə yoxumuş kimi, şax vüqarla irəli addımlayır - onlar hamının qibtə edəcəyi bir tərzdə - dostcasına görüşürlər.

Dilimizdə milyon dəfələrlə sınanmış "Ot kökü üstə bitər" kəlamı var. Ocaq qüdrəti, ocaq məktəbi, ocaq sirri ayrı şeydir. Biz qəzetlərdə oxumuşuq, radio-televiziyada dinləmişik - o isə dünyaya göz açandan LİDER ATANIN nəfəsini duyub, səsini eşidib, necə deyərlər, evdə-eşikdə də onun siyasətini öyrənib. Biri var, böyüyüb məktəbə gedəsən, biri də var, məktəb sənin evində ola, onu oxuya-oxuya, öyrənə-öyrənə, əzbərləyə-əzbərləyə böyüyəsən...

Çəkilməz dərddir ki, biz düşmüşük. Öz-özümə hərdən düşünürəm ki, bunu Tanrı necə götürür - yer üzündəki 14 milyon qaçqının nə az, nə çox, düz bir milyonu Azərbaycanın "payına" düşüb?! Bu ağır dərdi biz sıravi vətəndaşlar unuda bilmirik, bəs onda rəhbər elitada öz məxsusi yeri olan, məsuliyyət yiyəsi neyləsin? Qəlbimdə həmişə ona su ömrü arzulamışam - əbədi, gərəkli, barlı-bəhrəli, səsli-soraqlı. O, sabahkı gəncliyimizin lideridir - deyirəm. Görsünlər-götürsünlər, öyrənsinlər, sağında-solunda sədaqətli, mətin əsgərlərə dönüb, komandirləriylə çiyin-çiyinə məmləkətimizi daha yeni, daha fərəhləndirici uğurlara qovuşdursunlar.

İnsanın faydalılıq əmsalı həmişə ÖZ YERİNDƏ NƏ DƏRƏCƏDƏ GƏRƏKLİ olmasıilə ölçülüb. İlham Əliyevdə "öz neft dünyasında" gərəklidir, bir sözlə, bu "postda" yeri görünən, qədri bilinən vətəndaşdır. Buyurun, özünüz saf-çürük eləyin: təkcə Azərbaycan neftinin yox, hətta Qazaxıstan neftinin də Qərb marşrutu ilə (Qazaxıstan-Xəzər dənizi - Azərbaycan-Gürcüstan-Türkiyə-Aralıq dənizi-Avropa) axıdılacağını dövlət səviyyəsində rəsmiləşdirib qanuniləşdirəndə - görün o, yaşını-vəzifəsini unudub necə sevinirdi. Kimdən ötrü? Sizcə, özündən ötrümü? Qətiyyən, yox. Onunku - xalqdır! Onu belə xoşbəxt, tarixi (məhz, tarixi!) məqamlarda bir Azərbaycan vətəndaşı kimi sevindirən, bu gün ilk, çətin səhifələri yazılan, sabah bütün dünyaya səs salacaq, "dünya səhnəsində" millətimizi ön sıralarda əyləşdirəcək Şöhrət kitabıdır. Bu kitabın ulu işartıları hələ eramızdan irəliki əsrlərdən üzü bəri zaman qovğalarında yoxa çıxıb, əldə qalan əlyazmalar yadellilərin muzeylərinə daşınıb, hərb tariximiz, mədəniyyət renessanslarımız, soy-kök qədimliyimiz həyasızcasına danılıb. Bu gün Tanrı da görür, xeyir-dua verir ki, nə yaxşı (axır ki!) dünya siyasət okeanında Tanınma, Özünəqayıdış məqamında Azərbaycan Gəmisi də öz limanına yan almağa yönəldi və nə yaxşı ki, bu gəminin çox-çox millətlərin qibtə etdiyi, həsəd çəkdiyi müdrik və cəngəvər bir kapitanı var!

Min-min şükürlər ki, Azərbaycanın yer üzünü zaman-zaman lərzəyə salmış cəngavərlik - başçılıq-alpərənlik məktəbi əsrlər arxasının unutqanlıq dumanından sıyrılıb çıxdı və öz müasir, milli sülhsevər-insanpərvər bahadırlarını yetirməyə başladı.

Ulu haqq bizimlə oldu...

**Kərim Kərimov**,
Azərbaycan MEA-nın müxbir üzvü, professor
Geofizika və mühəndis geologiyası
istehsalat birliyinin baş direktoru



# ARDNŞ-in BİRİNCİ VİTSE-PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI İLHAM ƏLİYEVİN QARADAĞ RAYONUNDA ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Əziz qaradağlılar!

Biz yenə də bir yerdəyik. Mən yenə sizinlə görüşə gəlmişəm. Bu dəfə rayon partiya təşkilatının konfransında bir yerdə iştirak edirik. Mən sizin hamınızı səmimi qəlbdən salamlamaq istəyirəm və bildirmək istəyirəm ki, həmişə, hər zaman sizinləyəm, mən Qaradağ rayonundan ayrılmamışam və ayrılmaq fikrim də yoxdur. Əgər siz etiraz etməsəniz, biz hələ uzun illər bir yerdə olacağıq.

Yeni Azərbaycan Partiyası özünün ikinci qurultayına hazırlaşır. Əlbəttə, qurultay ərəfəsində partiyanın keçdiyi yol, gördüyü işlər haqqında müzakirələr gedir, konfranslarda bu məsələlər bir daha işıqlandırılır. Bu, bizim tariximizdir. Biz gələcək üçün, bu gün üçün çalışırıq. Ancaq öz tariximizi, partiyanın tarixini heç vaxt unutmamalıyıq, onu yadda saxlamalıyıq. Çünki Yeni Azərbaycan Pratiyasının yaradılmasında ən böyük amil, həqiqətən, xalqın tələbi, istəyi, xalqın Heydər Əliyevə olan münasibəti olmuşdur.

1992-ci ildə Azərbaycan xalqının mütərəqqi insanları - ziyalılar, mədəniyyət və elm xadimləri, sadə adamlar Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasının yaradılması haqqında bəyanat vermişdilər. O vaxt bu addım çox böyük iradə, cəsarət tələb edirdi. Çünki o vaxtkı Azərbaycanın rəhbərləri buna böyük qısqanclıq hissi ilə yanaşırdılar və Heydər Əliyev haqqında xoş söz deyən, yaxud qəzetdə yazan, bu barədə mitinqdə öz fikrini bildirən insanlara qarşı çox böyük təzyiqlər, təqiblər olurdu. Düzdür, onlar özlərini demokrat adlandırırdılar. Amma onların demokratiyasının əsas xüsusiyyəti avtomatları, silahları idi.

Bilirsiniz ki, o vaxt Azərbaycanda senzura mövcud idi. Ona görə Heydər Əliyev və onu dəstəkləyən şəxslər informasiya mühasirəsində idi. Yəni o günləri hər zaman yadda saxlamaq lazımdır. O insanlara, o vaxt özlərini təhlükə altına qoyaraq açıq şəkildə Heydər Əliyevi dəstəkləyən insanlara biz hər zaman, həmişə minnətdar olmalıyıq. Onların rolu çox böyük olub, əsl cəsarət, kişilik və əsl vətənpərvərlik göstərmişlər.

Beləliklə, Yeni Azərbaycan Partiyası yaradıldı və dərhal sonra ümummilli partiyaya çevrildi. Çünki Azərbaycanın bütün təbəqələrinin nümayəndələri bu partiyaya daxil oldular. Bu gün bu partiyanın sıralarında 200 mindən çox insan var. Bu da bizə deməyə əsas verir ki, partiya öz simasında Azərbaycanın bütün təbəqələrini təcəssüm etdirir.

1993-cü ildə Azərbaycanın o vaxtkı rəhbərliyi bütün xalqa nümayiş etdirmişdi ki, onlar hakimiyyəti əldə saxlaya bilmirlər, onlarda idarəçilik qabiliyyəti sıfır səviyyəsindədir. Onlar yalnız dağıtmağa, yaxud da vəziyyəti daha da gərginləşdirməyə qadirdirlər. Ona görə xalqın tələbi ilə Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev Azərbaycan prezidenti seçilmişdi. Yadınızdadır, o günlər Azərbaycan üçün necə ağır, təhlükəli idi. Çünki Qarabağda müharibə gedirdi, o vaxtkı iqtidarın yarıtmaz siyasəti nəticəsində torpaqlarımız işğal olunurdu, daxildə separatçılıq meylləri, xaos, anarxiya, hərc-mərclik hökm sürürdü. Deyə bilərəm ki, Azərbaycan o vaxt uçurum kənarında idi, parçalanma ərəfəsində idi. O çətin dövrdə böyük məsuliyyəti öz üzərinə götürmək hər adamın işi deyildi. Həmin vaxt əlində bütün imkanları olan şəxslər o məsuliyyətdən, o vəzifədən çəkinərək, qorxaraq bəziləri qaçdılar, bəziləri vəzifələrini dondurdular, bəziləri isə siyasi səhnədən tamamilə silindilər.

Əlbəttə, o çətin dövrdə Azərbaycanın milli maraqlarını təmin etmək üçün çox böyük təcrübə, bilik lazım idi. Amma ilk növbədə xalqın dəstəyi gərək idi və o da var idi, indi də var. Əgər o dəstək olmasaydı, 1994-cü, 1995-ci illərdə dövlət çevrilişinə olan cəhdlərin nəticəsi bəlkə də başqa cür olardı.

Azərbaycanda 1980-ci illərin sonundan 1990-cı illərin əvvəlinə qədər yeni gələn hər bir rəhbər öz vəzifəsində bir ildən artıq qala bilmirdi. Çünki bir il ərzində o qədər səhvlər edirdi ki, xalqın inamı tamamilə itirirdi və ondan sonra bir silahlı dəstə o biri silahlı dəstəni güc yolu ilə vəzifədən kənarlaşdırırdı. Xalq da buna heç bir reaksiya vermirdi. Çünki xalq nə onu, nə də bunu dəstəkləyirdi. Nə ona, nə də buna inamı var idi. Təbii ki, o şəraitdə hansısa iqtisadi inkişafdan, islahatlardan söhbət aparmaq mümkün deyildi, buna heç bir şərait yox idi.



Adətən, inkişaf etmiş ölkələrdə siyasət iqtisadiyyatın üzərində qurulur. Yəni siyasət iqtisadiyyatın bir növ davamı olur. Azərbaycanda isə iqtisadiyyat yox idi ki, onun üzərində nəsə qurulsun. Ona görə Azərbaycanda bu proseslər başqa istiqamətdə inkişaf edirdi. İlk növbədə, daxili sabitliyi təmin etmək lazım idi, anarxiyaya, hərc-mərcliyə son qoymaq lazım idi, qeyri-qanuni silahlı dəstələri tərkisilah etmək lazım idi, təhlükəli separatçılıq meyllərinin qarşısı alınmalı idi. Mən sizə deyə bilərəm bu işlərin hamısını yalnız bir adam edə bilərdi, o da Heydər Əliyev idi. Ondan başqa heç kim bunu edə bilməzdi.

Beləliklə, yalnız 1995-ci ilin ikinci yarısından sonra Azərbaycanda iqtisadi inkişaf üçün şərait yaradılmışdır. Çox qısa zaman içərisində bu sahədə böyük nailiyyətlər əldə edilmişdi.

Dövlətimizin başçısı müstəqilliyimizin on illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə öz çıxışında iqtisadiyyata aid rəqəmlər dedi və hamı üçün aydın oldu ki, bunlar Azərbaycan üçün nə deməkdir. Sosial müavinətlərin, maaşların bir neçə dəfə artması, Azərbaycanın iqtisadi göstəriciləri, investisiyaların ölkəmizə gətirilməsi və digər sahələrdə olan uğurlar faktdır. Bunlar təbliğat, bəyanat deyil, real faktlara, rəqəmlərə əsaslanmış həqiqətlərdir. Qısa müddət ərzində Azərbaycan dünya birliyi içərisində öz layiqli yerini tuta bildi. Təsadüfi deyil ki, bu gün Azərbaycanın neft sənayesində işləmək üçün iri xarici neft şirkətləri arasında rəqabət gedir.

Biz 1994-cü ildə bu işə başlayanda xarici investorları Azərbaycana güclə, zorla cəlb edirdik, onlar da gəlmək istəmirdilər. Çünki deyirdilər ki, burada siyasi risklər çox yüksəkdir və bizim qoyacağımız kapitalın müdafiə, mühafizə məsələləri öz həllini tapmayacaqdır. İndi isə xarici şirkətlər bir-biri ilə mübarizə aparırlar ki, Azərbaycanda kim daha çox pay ala bilsin.

Birinci mərhələdə neft kəmərlərinin tikilməsi məsələləri öz həllini tapıbdır. Artıq indi böyük neft kəməri haqqında işləri görürük. Yaxın gələcəkdə inşaat başlanacaqdır. Azərbaycanın milli sərvətlərinin dünya bazarlarına çatdırılması üçün təkcə neft kəmərləri yox, eyni zamanda qaz kəmərləri də lazım olacaqdır. Artıq bu işlər də görülür. Azərbaycanda güclü infrastruktur yaradılır. Xarici investisiyaların həcminə görə, adambaşına düşən göstəricilərə görə Azərbaycan keçmiş sovet respublikaların hamısını qabaqlayır. Yəni bütün bunlar həqiqətdir, real faktlardır və onu göstərir ki, qısa müddət ərzində Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının bilavasitə iştirakı ilə, onun nümayəndələrinin iştirakı ilə Azərbaycan iqtisadiyyatında köklü dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərin nəticəsində Azərbayca-

nın iqtisadiyyatı artıq sürətlə inkişaf edir.

Bəziləri belə fikir edə bilərlər ki, işlər təkcə neft sektorunda uğurla gedir. Elə deyil. Yəni bizim statistikamız göstərir ki, qeyri-neft sektoruna təxminən neft sektoruna qoyulan qədər xarici sərmayə qoyulubdur. Yəni Azərbaycan hərtərəfli dinamik şəkildə inkişaf edir. Əlbəttə, istəyirik ki, bu inkişaf daha da sürətlə getsin. Ancaq hər şey təbii yolla həll olunmalıdır.

Eyni zamanda bizim hesablamalarımıza görə, Azərbaycanı gələcəkdə də böyük uğurlar gözləyir. Bunu təkcə biz demirik. Beynəlxalq maliyyə qurumları - Dünya Bankı, Avropa Bankı Azərbaycanın iqtisadi inkişafı haqqında xüsusi məruzələr hazırlayıblar. Orada çox sevindirici məqamlarla rastlaşırıq. Yəni təkcə bizim yox, dünyanın aparıcı beynəlxalq maliyyə qurumlarının rəyidir ki, ən qısa zamanda Azərbaycana çox böyük valyuta axını gözlənilir. Azərbaycan çox zəngin bir ölkəyə çevriləcəkdir. Bunun da nə demək olduğu hər kəs üçün aydındır. Bu o deməkdir ki, insanlarımız daha da yaxşı yaşayacaqlar, hökumətin imkanı olacaq ki, insanların maaşlarını, pensiyalarını, tələbələrin təqaüdlərini artırsın. Bu istiqamətdə artıq böyük işlər aparılır. Əgər biz 1995-ci ili bu gün ilə müqayisə etsək görərik ki, bu istiqamətdə nə qədər böyük fərq var. Bizim nə qədər insanlarımız daha yaxşı yaşamağa başlayıblar.

Əlbəttə, indiki səviyyə bizi qane edə bilməz. Biz bilirik və başa düşürük ki, bu, bütün təbəqələrin tələblərinə cavab vermir və verə də bilməz. Çünki Azərbaycan yeni müstəqil ölkədir. Azərbaycan müstəqillik əldə edəndə ölkəmizin bütün iqtisadi əlaqələri qırılmışdı, pozulmuşdu. Azərbaycanın Dövlət büdcəsi təxminən 200 milyon dollar həddində idi. İndi isə bu, 900 milyon dollardır.

Gələcək nəsillərə kömək etmək məqsədilə, onlar haqqında düşünərək, ölkəmizin başçısının təşəbbüsü ilə Azərbaycanda Neft Fondu yaradılmışdır. Mən sizə deyə bilərəm ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda o qədər də neft hasil olunmur. Yəni ildə hardasa 15-16 milyon ton hasil edilir. Əgər biz başqa ölkələri götürsək, onlar bizdən qat-qat çox neft hasil edir və həmin ölkələrdə Neft Fondu mexanizmi yoxdur. Neft Fondu yalnız bəzilərində var. O cümlədən Azərbaycanda da var.

O ölkələr Neft Fondunu o vaxt yaradırdılar ki, artıq onların neft hasilatı çox yüksək rəqəmlərlə ölçülürdü. Biz isə bunu bəri başdan etdik. Nəyə görə? Ona görə ki, neftdən gələn gəlirlər orada yığılsın, cəmlənsin, mühafizə altında olsun. Bilirsiniz ki, Neft Fondunda olan vəsaitlər haqqında mütəmadi qaydada məlumatlar verilir və bütün ictimaiyyət bunu bilir. Çünki bu vəsait xalqın sərvətidir. Neft milli sərvətimizdir. Neftdən əldə olunan vəsaitlər də bütün xalqa məxsusdur. Bu günə kimi orada 500 milyon dollara qədər pul yığılıbdır. Əlbəttə, gələcəkdə bu məbləğ artacaq və 2003-2005-ci illərdə milyardlarla ölçüləcəkdir. Əminəm ki, biz buna nail olacağıq. Amma neft bizim üçün heç vaxt məqsəd olmayıb və ancaq vasitə olubdur.



Mən bu barədə çox danışa bilərəm. Sadəcə olaraq, vaxtınızı çox almaq istəmirəm. Mən sizə bir söz deyə bilərəm. 1995-ci ildən sizinlə bir yerdəyəm və heç vaxt sizə hansısa boş vədlər verməmişəm. Ümumiyyətlə, mən vəd verməyi xoşlamıram. Həmişə çalışıram ki, nəsə edim, ondan sonra bu barədə məruzə edim. Amma inana bilərsiniz ki, yaxın gələcəkdə Azərbaycanın o qədər güclü iqtisadi potensialı olacaqdır ki, bunu ölkəmizin hər bir vətəndaşı hiss edəcəkdir. Buna heç bir şübhəniz olmasın.

Bu gün Azərbaycanda gedən proseslər haqqında danışıldı. Azərbaycanda siyasi vəziyyət haqqında müəyyən sözlər deyildi. Mən Azərbaycanda siyasi vəziyyəti çox yüksək qiymətləndirirəm. Azərbaycanda sivil siyasi münasibətlər qurulmalıdır. Hər halda iqtidar bunun tərəfdarıdır. Keçmişdə olan silahlı dəstələr artıq yoxdur. Onların gücü elə onların avtomatı idi. O dövr keçdi. Azərbaycan o çətin dövrlərdən böyük ləyaqətlə çıxa bildi, ölkəmizdə ictimai asayiş qorunur. İndi Azərbaycanda sabitlik mövcuddur. Yəni bir sözlə, Azərbaycanın hər bir vətəndaşı özünü çox rahat, sərbəst, azad hiss edir.

Azərbaycanda senzura yoxdur. Azərbaycanda söz azadlığı, vicdan, din azadlığı var. Təkcə qanunlarda yox, həyatda var və biz hamımız bunu görürük. Bu, böyük nailiyyətdir, bizim uğurumuzdur. Çünki istəyirik ki, Azərbaycanda sivil, dünyəvi, ən müasir, dünya standartlarına cavab verən dövlət yaradılsın. Bu istiqamətdə çox böyük işlər aparılır. Azərbaycanda bütün demokratik təsisatlar fəaliyyət göstərir. Azərbaycan demokratik, müasir dövlətə çevrilibdir və işlər bu istiqamətdə daha da sürətlə aparılır.

Azərbaycan Avropa Şurasının üzvü olubdur. Bu, ölkəmiz üçün çox böyük nailiyyətdir. Təkcə ona görə yox ki, biz orada öz sözümüzü deyək, halbuki bu da çox vacibdir. Azərbaycan üçün belə bir tribuna, belə bir kürsü lazım idi ki, biz orada sübutlarla, dəlillərlə erməni işğalçılarını ifşa edə bilək. Avropa Şurası bu məqsəd üçün çox münasib bir yerdir. Orada Avropanın bütün parlamentlərinin nümayəndələri iştirak edirlər. Orada 500 deputat iştirak edir və Avropa Şurasında qəbul olunan sənədlər rəsmi xarakter alır. Avropa Şurasına üzv olmaq bizə ona görə lazım idi ki, Azərbaycanda gedən proseslər

dünya standartlarına daha çox yaxınlaşacaqdır. Biz bunun şahidi olmuşuq. Azərbaycan Avropa Şurasına qəbul olunanda üzərinə müəyyən öhdəliklər götürmüşdü və o öhdəlikləri indi yerinə yetirir. Bu öhdəliklər bizə imkan verəcək ki, daha azad, demokratik cəmiyyətdə yaşayaq.

Yeni Azərbaycan Partiyasının məqsədi budur. Biz istəyirik ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyət qurulsun. Biz bunun tərəfdarıyıq. Çünki bilirik ki, bu Azərbaycan xalqının xeyrinədir, ölkəmizin gələcəyi üçün lazımdır. Biz istəyirik ki, Azərbaycanı həmişə çiçəklənən gözəl ölkə kimi görək. Eyni zamanda əminik ki, Yeni Azərbaycan Partiyası daim Azərbaycanın aparıcı siyasi qüvvəsi olacaqdır. Biz Yeni Azərbaycan Partiyası olaraq çalışırıq ki, həmişə iqtidarda olaq. Bizim buna haqqımız çatır. Partiyamızın keçdiyi son səkkiz il, iqtidarda olduğu dövr bunu deməyə və tələb etməyə imkan verir.

Biz bilirik ki, bu gün Heydər Əliyevdən başqa, YAP-dan başqa heç bir siyasi qüvvə Azərbaycanı idarə edə bilməz. İdarə edə bilsəydilər, edərdilər. Onlar, müxtəlif qruplar 1990-cı illərdə iqtidarda idilər. Amma dediyim kimi, iqtidarda bir ildən artıq qala bilmədilər. Çünki xalqda onlara qarşı o qədər nifrət hissi oyandı ki, onları siyasi səhnədən çıxartdı.

İqtidarda olmaq, yaxud da iqtidara gəlmək, əlbəttə, hər bir partiyanın arzusudur, o cümlədən Yeni Azərbaycan Partiyasının. Amma iqtidara gələn, yaxud iqtidarda olan qüvvə birinci növbədə, məsuliyyəti dərk etməlidir. Düşünməlidir ki, mən bu məsuliyyətin altına girə bilərəmmi? Mən bu məsuliyyətin altına girsəm, sabah özümü doğrultmasam, xalqım bundan zərər çəkməyəcəkmi? Təəssüf edirəm ki, müxalifət düşərgəsində cəmləşən insanlarda bu məsuliyyət hissini mən görmürəm. Əgər görsəydim, əgər olsaydı, onlar heç vaxt hakimiyyətə bu qədər iddialı olmazdılar. Onlar çox şeyləri bilməsələr də, hər halda, öz qabiliyyətlərini yaxşı bilirlər. Yaxşı bilirlər ki, onlardan heç vaxt, heç zaman Azərbaycan üçün layiqli iqtidar ola bilməz. Bu, həqiqətdir, bu, faktdır və hesab edirəm ki, bu, Yeni Azərbaycan Partiyasının üzvləri üçün aydındır. Eyni zamanda Azərbaycan xalqı da bunu çox gözəl dərk edir.

Bu gün ölkəmizdə Yeni Azərbaycan Partiyası ilə rəqabət apara biləcək heç bir qüvvə yoxdur. Mən bunu səmimi deyirəm. Məni düzgün başa düşün. Ona görə demirəm ki, kiminsə xətrinə dəysin. Yox. Bu, həqiqətdir. Bunu biz də bilirik, onlar da bilirlər. Amma təəssüf ki, onlar bunu etiraf etmək istəmirlər.

Yəqin ki, eşitmisiniz bəziləri müxalifət partiyalarına dərnək deyir. Bu, həqiqətdən o qədər də uzaq deyildir. Amma bir düzəliş edim, dərnəkdə heç olmasa, nə isə öyrənirlər. Onlar isə bu on il ərzində heç bir şey öyrənə bilmədilər. Əziz dostlar, bir sözlə, Azərbaycan və Yeni Azərbaycan Partiyası - hesab edirəm, siz də mənimlə razılaşarsınız bir-biri ilə ayrılmaz vahid bir qüvvədir. Mən Azərbaycanın və Yeni Azərbaycan Partiyasının gələcəyinə çox nikbinliklə baxıram və bunun üçün hər bir əsas var. Biz düzgün iş görürük. Azərbaycan rəhbərliyi, prezidenti ölkəmizi çətin, ağır, Azərbaycanın müstəqilliyi üçün çox təhlükəli dövrdən şərəflə çıxarıbdır. İndi Azərbaycan çox yüksək sürətlə inkişaf edir.

Əminəm ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə uzun illər Azərbaycan xalqına xidmət edəcəkdir. Bizim əsas məqsədimiz budur. Biz ümumxalq partiyasıyıq. Çünki xalqla birik, xalqa arxalanırıq və xalq üçün də xidmət edirik.

Əziz dostlar, mən çıxışımın əvvəlində dedim, çox şadam ki, yenə də Qaradağ rayonundayam. Məni Qaradağ rayonu ilə səmimi münasibətlər bağlayır. 1995-ci ildə siz mənə etimad göstərdiniz, Milli Məclisə deputat seçdiniz. Mən də çalışırdım və çalışıram ki, bu etimadı doğruldum. Görülən işlər haqqında burada deyildi. O adamlara minnətdaram ki, mənim xidmətlərimi belə yüksək qiymətləndirirlər.

Amma deyə bilərəm və dəfələrlə demişəm ki, bu mənim sizin qarşınızda borcum idi. Bir halda ki, siz məni seçmisiniz, etimad göstərmisiniz, gərək mən də sizin xidmətinizdə olam. Bunu da edirdim. Baxmayaraq ki, 2000-ci ildə Yeni Azərbaycan Partiyasının qərarı əsasında mən Milli Məclisə proporsional siyahı ilə seçilmişəm, mən yenə də özümü Qaradağ rayonunun deputatı kimi hiss edirəm və fəaliyyətimi bu istiqamətdə davam etdirirəm, bundan sonra da davam etdirəcəyəm.

Mən sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Əminəm ki, biz sizinlə çox-çox görüşlər keçirəcəyik.

Sağ olun.

**AzərTac**

# AVROPANIN MƏRKƏZİNDƏ AZƏRBAYCAN SAVAŞI

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin fəaliyyəti barədə daha ətraflı nümayəndə heyətinin rəhbəri, millət vəkili İlham Əliyev Azərbaycan Dövlət Televiziyasına müsahibəsində danışıb.

- Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Avropa Şurasının Parlament Assambleyasında fəaliyyətini uğurla davam etdirir. Artıq bu barədə kütləvi informasiya vasitələrində məlumatlar dərc olunur. Nümayəndə heyətinin sualına cavab olaraq Avropa Şurası Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini bir daha təsdiq etdi. Bu barədə bir qədər ətraflı məlumat verməyinizi xahiş edirik.

- Təşəkkür edirəm. Bəli, siz dediyiniz kimi, Avropa Şurası Azərbaycanın ərazi bütövlüyünü bir daha tanıdı. Mən hesab edirəm ki, bu, çox mühüm bir hadisədir, bizim böyük uğurumuzdur. Çünki bilirsiniz ki, Ermənistan tərəfi həmişə hər iki prinsipi, yəni ərazi bütövlüyü prinsipini və xalqların öz müqəddəratını təyinetməsi prinsipini qarşı-qarşıya qoyurdu. Belə bir mövqedən çıxış edirdilər ki, hər bir prinsip eyni dərəcədə dəyərlidir. Avropa Şurası tərəfindən qəbul olunmuş sənəd isə bütün bu məsələlərə böyük aydınlıq gətirir. Yəni xalqların öz müqəddaratını təyinetməsi prinsipi yalnız və yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Deməli, burada Azərbaycanın mövqeyi, ölkəmizin dəfələrlə bəyan etdiyi tələblər öz əksini tapır və beləliklə, Azərbaycanın mövqeyi üstünlük qazanmış olur. Mən hesab edirəm ki, bu, çox böyük uğurdur və bundan sonra müxtəlif səviyyələrdə danışıqlarda çox gözəl bir zəmin olacaq və danışıqlar prosesində öz rolunu oynayacaqdır.

- Ermənistanın nümayəndəsi Hovanesyan sentyabrın 25-də Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycanın ünvanına böhtan



xarakterli iddialarla çıxış etdikdən sonra siz ona tutarlı faktlarla layiqli cavab verdiniz. Bu məsələ ilə bağlı Avropa Şurasına əlavə faktlar və sənədlər təqdim olunacaqmı?

- Təqdim olunacaq. Mənim çıxışımda da kifayət qədər faktlar var idi. Bizdə əlavə siyahılar da vardır. Biz onları Avropa Şurasına təqdim edəcəyik.

Mən bir məsələni demək istəyirəm. Ermənistan nümayəndə heyəti başçısının çıxışına biz təəccüblə yanaşmamalıyıq. Çünki o, ermənidir və bilirsiniz ki, Ermənistanın Azərbaycana qarşı yönəlmiş bütün təbliğatı məhz yalan, iftira üzərində qurulur. Budəfəki də növbəti bir böhtandır, yalandır. Ona görə buna çox böyük reaksiya vermək lazım deyildir. Nəzərə alın ki, Ermənistanda bu ölkəni Avropa Şurasında təmsil edən nümayəndə heyətinə çox böyük təzyiqlər göstərilir. Onları ittiham edirlər ki, Ermənistan deputatları burada özlərini çox passiv aparırlar və ümumiyyətlə, Azərbaycan nümayəndə heyətinin qarşısında çox aciz görünürlər. Ona görə, hesab edirəm ki, bu amillər Ermənistan nümayəndə heyətini belə yalan söyləməyə vadar etdi. Amma deyə bilərəm ki, bu, Avropa Şurasında çox mənfi reaksiya ilə üzləşdi. Avropa Şurası Parlament Assambleyasının müxtəlif ölkələri təmsil edən bir çox deputatı bizə yaxınlaşaraq bildirirdilər ki, onlar Ermənistan nümayəndəsinin çıxışını çox mənfi qarşılayırlar. Ümumiyyətlə, hesab edirlər ki, Avropa Şurasının kürsüsü belə yalan, böhtan xarakterli ifadələr üçün məqbul sayıla bilməz.

Amma bununla bağlı mən bir məsələyə sizin diqqətinizi cəlb etmək istəyirəm. Təbiidir ki, Ermənistan nümayəndəsi belə bir çıxış edə bilər və elədi də. Mənim tərəfimdən layiqli cavabını da aldı. Bunu siz bilirsiniz. Amma sual olunur: bu yalan faktları həmin o erməni deputatı haradan götürübdür?

Məsələ bundadır ki, o, bu faktları Azərbaycanda çıxan müxalifət mətbuatından götürübdür. Erməni deputatına belə yalan faktları məhz müxalifət mətbuatı veribdir. O da burada onları səsləndiribdir. Məsələ bundadır. Sual etmək lazımdır: bəzi müxalifət mətbuatı, onları təsis edən, onlara bilavasitə və yaxud dolayısı ilə kömək göstərən şəxslər bu böhtan xarakterli, yalan məlumatları yaymaqla kimin dəyirmanına su tökürlər? Biz burada ciddi mübarizə aparırıq, Azərbaycanın mövqelərini çox qətiyyətlə bildiririk. Demək olar ki, hər gün burada mübarizə gedir. Arxadan isə bizə zərbələr vurulur. Hesab edirəm ki, bu yolverilməz haldır.

Azərbaycanda müxalifət Azərbaycan dövləti ilə mübarizə aparmamalıdır. Azərbaycanın imicinə zərbələr vurmamalıdır. Sual olunur: o Hovanesyanla bu böhtanları öz mətbuat orqanlarına sızdıran bizim müxalifət liderləri

arasında fərq nədədir? Mən o fərqi görmürəm. Sinələrinə vuraraq özlərini millətçi qüvvələr kimi təqdim etməyə çalışan adamlardan mən soruşuram: siz hansı milləti təmsil edirsiniz? Hər halda o şəxs Azərbaycan millətinin nümayəndəsi deyildir. Bu barədə düşünmək lazımdır. Hesab edirəm ki, belə hallara son qoyulmalıdır. Biz ermənilərin əlinə yalan faktları verməməliyik ki, onlar burada öz çirkin niyyətlərini həyata keçirmək istəsinlər.

- Siz Avropa Şurası Parlament Assambleyasının iclasında çıxış edərkən Amerika Birləşmiş Ştatlarında törədilmiş terror aktı ilə bağlı Azərbaycanın mövqeyini açıqladınız. Ölkəmizin qətiyyətli mövqeyi Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilat tərəfindən necə qiymətləndirilir?

- Çox yüksək qiymətləndirilmişdir. Deyə bilərəm ki, mənim çıxışımdan əvvəl də bu barədə, yəni Azərbaycanın mövqeyi haqqında burada - Avropa Şurasının deputatları arasında kifayət qədər məlumatlar var idi. Onlar bu məsələdən xəbərdar idilər ki, Azərbaycan birmənalı mövqeyini bildiribdir. Bilirsiniz ki, bizim ixtiyarımızda olan bütün vasitələri Amerika Birləşmiş Ştatlarının ifadəsinə verməyə, ona əlimizdən gələn bütün yardımları etməyə hazır olduğumuz bildirilmişdir. Bu isə burada çox yüksək qiymətləndirilmişdir. Bilirsiniz, mən çıxışımda demişdim ki, indi həqiqət anıdır. İndi hər kəsin, hər ölkənin real mövqeyi üzə çıxır. Yəni əgər bu dəhşətli hadisələrdən sonra hansısa ölkələr öz mövqelərini açıq bildirmir, yaxud da ikibaşlı oyun oynayırlarsa, indi artıq dünyada belə bir siyasətə yer yoxdur. Hər bir ölkə açıq, aydın şəkildə öz mövqeyini müəyyən etməlidir. Azərbaycan da bunu edib və deyə bilərəm ki, müxtəlif ölkələrdən olan deputatlar bizə öz təşəkkürlərini bildirirlər. Bizdən xahiş edirlər ki, onların minnətdarlığını ölkəmizin başçısına çatdıraq ki, belə bir anda çox cəsarətli, çox düzgün addım atılıbdır. Amma eyni sözləri Ermənistana şamil etmək olmaz. Çünki Ermənistan bugünə qədər öz mövqeyini bildirməyibdir. Mən çıxışımda dedim ki, artıq ikibaşlı mövqe tutmaq mümkün deyildir. Hər bir ölkə öz mövqeyini bildirməlidir. Azərbaycan da mövqeyini bildirmişdir, bildirib və dediyim kimi, bu da burada çox müsbət qarşılanıbdır.

- Avropa Şurasında ölkəmiz üçün əhəmiyyətli olan iki sənəd - Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurasında müzakirəsi, habelə qaçqın və köçkünlərin təhsil hüququ ilə bağlı sənədlər qəbul olunubdur. Bu barədə bir qədər ətraflı məlumat vermək mümkündürmü?

- Mən sizə deyə bilərəm, biz çoxdan çalışırdıq ki, Ermənistan-Azərbaycan münaqişəsini Avropa Şurasının müzakirəsinə çıxaraq. Təbiidir ki, Ermənistan tərəfi bunu istəmirdi. Səbəblər də aydındır. Çünki onlar məsələni ört-basdır etmək istəyirlər. Bu məsələnin müzakirəyə çıxarılması onlar üçün sərfəli deyildir. Çünki əgər bu məsələ müzakirəyə çıxarılarsa, onların kim olduğunu, Ermənistanın real işğalçı, təcavüzkar dövlət olduğunu bütün Avropa Şurası açıq-aydın görəcəkdir. Ona görə hər cəhdlə buna etiraz etməyə çalışırdılar. Bizim burada bir neçə ay apardığımız gərgin və düşünülmüş fəaliyyətimizin nəticəsində nail olmuşuq ki, Avropa Şurasının 51 deputatı bu sənədə qol çəkibdir. Nəzərə alsaq ki, sessiyada cəmi 150 deputat iştirak edir, deməli, deputatların üçdə bir hissəsi bu sənədə qol çəkib və beləliklə, yaxın gələcəkdə Ermənistan-Azərbaycan münaqişəsi burada müzakirə obyektinə çevriləcəkdir. Bu, bizim üçün çox vacibdir. Çünki bu məsələ nə qədər çox müzakirə olunarsa, dünya ictimaiyyəti Azərbaycanın haqlı, ədalətli mövqe tutduğunu bir o qədər çox görəcəkdir.

Ermənistanın isə başqa çarəsi yox idi. Ermənistan nümayəndəsi məcbur olub o sənədə qol çəkmək istəyirdi. Ancaq biz hesab etdik ki, bu, artıq lazım deyildir. Beləliklə, 51 nəfər bu sənədə qol çəkibdir.

İkinci sənəd təhsil məsələləri ilə bağlıdır. Bilirsiniz ki, Azərbaycanda işğal altında olan bölgələrdən minə qədər təhsil ocağı dağıdılıbdır və indi uşaqlar, qaçqın düşmüş ailələrdən olan şagirdlər çox böyük çətinliklər çəkirlər. O sənədə də 13 ölkəni təmsil edən 23 deputat qol çəkmişdir. Burada məsləhət görülmüşdür ki, bu məsələ də müzakirəyə çevrilsin. Hesab edirəm ki, biz kifayət qədər uğurlu işləmişik. Azərbaycan üçün çox vacib olan sənədlər hazırlamışıq, Avropa Şurasının dəstəyini tam şəkildə almışıq və gələcəkdə də fəaliyyətimizi bu sahədə davam etdirəcəyik.

- İlham müəllim, Siz ermənilərin yaşadığı, güclü erməni lobbisinin mövcud olduğu bir ölkədə "ASALA" erməni terrorçu təşkilatını çox kəskin şəkildə, cəsarətlə pislədiniz. Avropa Şurasında bu məsələni necə qarşıladılar? Bizim üçün bu, çox maraqlıdır.

- Bilirsiniz, məsələ bundadır ki, Ermənistanla bağlı hər hansı bir məsələ ortaya çıxanda erməni lobbisi çalışır ki, bu məsələni diqqətdən uzaqda saxlasınlar. Mən sizi inandırıram, bəlkə də deputatların əksəriyyəti heç bilmirdi ki, "ASALA" nə təşkilatdır. Halbuki "ASALA" terror təşkilatı dünyada minlərlə terror aktı törətmiş, on minlərlə günahsız adamları məhv etmişdir. Ancaq biz görürdük ki, burada o təşkilat haqqında kifayət qədər məlumat yoxdur. Ona görə mən çıxışımda bu barədə qəti şəkildə bildirirdim. Sonra da başqa ölkə-

ləri təmsil edən deputatlarla ikitərəfli danışıqlarda bu məsələnin təkcə Azərbaycan, Türkiyə üçün yox, ümumiyyətlə, Avropa, dünya üçün nə qədər təhlükəli və ciddi olduğunu onların nəzərinə çatdırdım.

Biz bu istiqamətdə öz işimizi davam etdirməliyik, işğalçı dövləti ifşa etməliyik. Özü də bizim bütün dəlillərimiz, sübutlarımız faktlar üzərində qurulubdur. Erməni deputatı kimi havadan götürülmüş, yaxud da hansısa şayiə xarakterli məlumatları vermirik, bunu özümüzə rəva bilmirik. Biz o cür mötəbər məclisi aldada bilmərik. Yəni bizim bütün faktlarımız realdır, həqiqətdir. Sadəcə olaraq, hərə öz yerində, hər təşkilatda, hər bir yerdə bu həqiqətləri dünyaya çatdırmalıdır. Əgər biz buna nail olsaq, onda mən sizi inandırıram ki, Ermənistanın terrorçu dövlət kimi artıq formalaşmaqda olan imicini yaxın gələcəkdə daha da gücləndirəcəyik.

- İlham müəllim, nümayəndə heyətimizin Avropa Şurasının rəhbərliyi, müxtəlif strukturları və digər ölkələrin nümayəndə heyətləri ilə əlaqələri Sizi qane edirmi?

- Bəli, qane edir. Bilirsiniz ki, Azərbaycan heç bir il deyil Avropa Şurasının tamhüquqlu üzvüdür. Bu müddət ərzində biz bütün səviyyələrdə çox işgüzar, çox gözəl əlaqələr yarada bilmişik. Avropa Şurasının bütün rəhbər işçiləri ilə bizim gözəl əlaqələrimiz vardır. Biz hər dəfə onlarla görüşürük, fikir mübadiləsi aparırıq. Münasibətlər çox yüksək səviyyədədir. Deyə bilərəm ki, həm rəhbər vəzifəli şəxslərlə eyni zamanda Avropa Şurasının komitələrinin nümayəndələri ilə, siyasi qruplarda, komitələrdə, həmçinin burada çalışan məmurlarla da gözəl əlaqələrimiz var. Əlbəttə ki, gələcəkdə bu, daha da yüksək səviyyədə olacaqdır. Amma indi də bu münasibətlər bizi qane edir. Ən önəmlisi odur ki, biz burada Azərbaycana çox böyük rəğbət görürük. Həqiqi mənada rəğbət görürük. Azərbaycanın mövqeyi burada öz dəstəyini alır. Azərbaycan nümayəndə heyəti çox səmərəli çalışır. Həm ölkəyə rəğbət var, eyni zamanda bizim nümayəndələrə, yəni deputatlara, burada Azərbaycanı təmsil edən deputatlara böyük rəğbət var. Bu, çox müsbət haldır. Bu amil imkan verir ki, bizə lazım olan, Azərbaycana lazım olan sənədlərə çoxlu imza toplaya bilək.



## AŞPA-da AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI MİLLİ MƏCLİSİN DEPUTATI İLHAM ƏLİYEVİN ÇIXIŞI

Əziz cənab sədr!

Xanımlar və cənablar!

Təəssüf ki, mən çıxışımı Ermənistandan olan həmkarımın çıxışına, guya Azərbaycanda bəzi adamların Ben Ladenlə əlaqəsinin olması haqqında onun əsassız sözlərinə cavabla başlamalıyam.

Tam məsuliyyətlə sizə deməliyəm ki, bu, tamamilə əsassız yalandır. Bu əsassız iddia heç kim tərəfindən təsdiq olunmayıb və mən bütün həmkarlarıma müraciətlə xahiş etmək istəyirəm ki, Avropa Şurasının yüksək kürsüsündən öz siyasi məqsədləri naminə böhtan yaymaq üçün istifadə etməsinlər.

Əziz cənab sədr!

Xanımlar və cənablar!

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları ilə bağlı bizim hamımız böyük sarsıntı keçirdik. Azərbaycan nümayəndə heyətinin adından mən istərdim ki, minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnmiş terror aktları ilə bağlı Birləşmiş Ştatların hökumətinə və Amerika xalqına səmimi başsağlığı verim.

Mən həm də istərdim ki, bu dəhşətli cinayəti törətmiş adamların tapılması və onların ədalət məhkəməsinə cəlb olunması ilə əlaqədar Azərbaycan hökuməti adından Birləşmiş Ştatlara tam dəstəyi bir daha bildirim.

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları aydın şəkildə göstə-

rir ki, hamımızın yaşadığı dünya nə dərəcədə kövrəkdir. Heç kim özünü tam təhlükəsiz hiss edə bilməz. Ona görə də beynəlxalq birlik dünyanın hər yerində terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir.

Haqq anı gəlib çatmışdır. Bəzi ölkələr üçün eyni zamanda ikili mövqe tutub həm terrorizm qurbanları, həm də terrorun təşkilatçıları ilə yaxşı əlaqələri qorumağa çalışmaq və bunu tarazlı siyasət adlandırmaq imkanı yoxdur. Bu halda belə siyasət tarazlı adlandırıla bilməz, belə siyasət kəskin tənqidə layiq siyasətdir. Terrorizmi birbaşa və ya dolayısı ilə dəstəkləyən hər bir ölkə və ya təşkilat beynəlxalq birlik tərəfindən məsuliyyətə cəlb olunmalıdır.

Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Ermənistanın təcavüzü başlandığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam öldürülmüş, on minlərlə adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, gəmilərdə, metro qatarlarında törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı "ASALA" Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırım siyasətində çox fəal rol oynamışdır.

Hazırda qondarma "Dağlıq Qarabağ Respublikası"nın ərazisi və eləcə də Azərbaycanın işğal olunmuş digər rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə erməni rəsmiləri təkcə Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların da hazırlanması üçün düşərgələr yaradıblar. Dağlıq Qarabağın ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və narkotiklərin istehsalından, daşınmasından əldə edilən külli miqdarda pul terrorçu məqsədlər üçün xərclənir.

Azərbaycan terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlarla bir alyansdadır. Biz bütün demokratik dünya ilə birik və dünyada terrorizmə son qoymaq üçün əlimizdən gələn töhfəni verməyə hazırıq. Azərbaycan prezidenti cənab Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına qarşı yönəldilmiş hücumlardan sonra etdiyi çıxışında Azərbaycanın Birləmiş Ştatlara tam dəstəyini ifadə etmişdir. Azərbaycan özünün hava məkanını Birləşmiş Ştatlar üçün açmışdır və Birləşmiş Ştatlarda terror aktları törədənlərin ədalət məhkəməsi qarşısında məsuliyyət daşıması üçün lazım ola biləcək infrastrukturları və kommunikasiyaları ABŞ-ın istifadəsinə verməyə hazırdır. Beynəlxalq birlik terrora qarşı mübarizədə çox vaxt itirmişdir. Lakin bu işə heç başlamamaqdansa, gec başlamaq yaxşıdır.

Təkcə ABŞ-da bu dəhşətli terror aktlarını törədənlərə qarşı deyil, dünyada terrorizmin bütün formalarına qarşı genişmiqyaslı antiterror kampaniyasına başlamağın və terrorizm ilə savaşda çox ciddi addımlar atmağın vaxtı gəlib çatmışdır.

Diqqətinizə görə sağ olun.

## ERMƏNİSTANLA İQTİSADİ ƏMKDAŞLIQ QEYRİ-MÜMKÜNDÜR

**İlham Əliyev azərbaycanın qarabağ probleminin həllində milli maraqlarımıza xələl gətirən heç bir şərtlə razılaşmayacağını bir daha xatırlatdı.**

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan parlamenti nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyev sentyabrın 28-də Strasburqda Ermənistanın UAravotf müstəqil qəzetinin müxbiri Armen Zərgəryana müsahibə vermişdir.

İlham Əliyevin Azərbaycan nümayəndə heyətinin AŞPA-da fəaliyyətinin əsas istiqamətləri barədə suala cavabında demişdir:

- Siyasətlə çoxdan məşğul oluram. Bilirsiniz ki, Ermənistan kimi, Azərbaycan da bu ilin yanvarından Avropa Şurasının üzvüdür və mənə Parlament Assambleyasında deputat qurupuna başçılıq etmək tapşırılmışdır. Ona görə də biz burada Azərbaycan nümayəndə heyətinin fəaliyyətini, ilk növbədə, Azərbaycan haqqında, onun problemləri, perspektivləri haqqında həqiqi Avropa ictimaiyyətinin geniş dairələrinə çatdırmağa yönəltmişik ki, Strasburqda olmağımızdan mənafelərimizi tam həcmdə irəlilətmək, Azərbaycanın istəklərinə nail olmaq üçün istifadə edək.



- Siz növbəti prezident seçkilərində namizədliyinizin irəli sürüləcəyini istisna etmirsinizmi?

- Əvvəla, mən bunu istisna edirəm, ona görə ki, prezident Heydər Əliyev 2003-cü ildə Azərbaycanda növbəti prezident seçkilərində səsə qoyulacaqdır. Əminəm ki, o, Azərbaycan xalqının böyük əksəriyyətinin səsini qazanacaqdır. Odur ki, bundan söhbət getmir. Prinsipcə isə, istənilən ölkənin hər bir siyasətçisi üçün başlıcası onun ölkənin daxilindəki fəaliyyətidir. Ona görə də burada olmağımdan hansısa şöhrət qazanmaq üçün istifadə etmək barədə düşünməyə vaxtım yoxdur.

Mənim Azərbaycanda həm parlamentdə, həm neft şirkətində, həm də Milli Olimpiya Komitəsində, indi burada, Avropa Şurasında o qədər vəzifələrim var ki. İşlə məşğul olmaq lazımdır.

- Heydər Əliyeviçin səhhəti necədir?

- Əladır, çox yaxşıdır, hər şey qaydasındadır.

- Ona cansağlığı, uğurlar arzulayırıq. Dünən burada sizin belə bir bəyanatınız səsləndi ki, Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in Minsk qrupunun xəttilə heç bir irəliləyiş yoxdur və təklif etdiniz ki, bu məsələ Avropa Şurasında müzakirə olunsun. Siz nə üçün belə bir qənaətə gəldiniz?

- Əvvəla, biz həmişə bunu əsas tutmuşuq və burada Avropa Şurasının rəhbərliyinə dəfələrlə bildirmişik ki, Avropa Şurasının və ATƏT-in fəaliyyətinin bir-birini əvəz etməsini əsla istəmirik və bunu yolverilməz sayırıq. ATƏT və onun Minsk qrupu çox faydalı funksiyanı yerinə yetirirlər. Doğrudur, Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən bu günədək heç bir qərar əldə olunmayıbdır. Ona görə də biz Azərbaycanda istəmirik ki, ATƏT bu münaqişənin nizama salınmasında özünün aparıcı rolunu zəiflətsin.

Digər tərəfdən, biz istəyirik ki, Avropa Şurası, ATƏT-i əvəz etməməklə, bu məsələ ilə fəal məşğul olsun. Çünki müxtəlif səviyyələrdə nə qədər çox müzakirələr aparılarsa, dünya ictimaiyyətinin bir o qədər çox dairələri Azərbaycanın ədalətli mövqeyini başa düşəcəklər.

Təəssüf ki, biz Ermənistan tərəfindən də belə bir istək olduğunu görmürük. Bizə elə gəlir ki, Ermənistan tərəfi hər vəchlə məsələnin əsl mahiyyətinin üstünü vurmamağa, yəni Azərbaycan torpaqlarının işğalını, Azərbaycana qarşı təcavüzü, bu təcavüz nəticəsində bir milyon qaçqınımızın evsiz-eşiksiz qalmasını açıb-ağartmamağa çalışır. Ermənistan diqqəti əməkdaşlıq üzərində cəmləşdirmək istəyərək deyir ki, gəlin, məsələnin mahiyyətinə varmayaq, qoy bununla kimsə,

haradasa məşğul olsun, gəlin, iqtisadi əməkdaşlıqdan danışaq. Lakin başa düşmək lazımdır ki, bu, mümkün deyildir. Ərazilərimiz azad edilməyincə, Azərbaycan heç bir əməkdaşlığa razılıq verməyəcəkdir.

Ona görə yenə də sualın əvvəlinə qayıdaq, demək istəyirəm, biz istəyirik ki, Avropa Şurası bu məsələ ilə ciddi və fəal məşğul olsun. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Avropa Şurası çərçivəsində müzakirə keçirilməsi barədə təklifimizi bu sessiyada müxtəlif ölkələrin 50 deputatı dəstəkləmişdir. Hesab edirəm ki, bu, bizim böyük uğurumuzdur. Biz bu istiqamətdə işləyəcəyik və istəyirik ki, Avropa Şurası bu məsələ ilə məşğul olsun, onu müzakirə etsin, məruzəçi təyin etsin, Ermənistana da, Azərbaycana da müvafiq ekspertlər gəlsin və onlar kimin təcavüzkar, kimin isə zərərçəkən tərəf olduğunu öz gözləri ilə bir daha görsünlər.

- İlham Heydəroviç, siz deyirsiniz ki, Avropa Şurası Qarabağ məsələsi ilə ciddi məşğul olsun. Amma görürsünüz ki, Ermənistan və Azərbaycan nümayəndə heyətləri bir-birilərini terrorizmdə, terrorçularla əlaqə saxlamaqda təqsirləndirirlər. Siz bu barədə nə deyə bilərsiniz? Ermənistan nümayəndə heyəti deyir ki, Ben Laden Azərbaycana 60 dəfə zəng vurmuşdur, Azərbaycan tərəfi isə deyir ki, Dağlıq Qarabağ nəzarət edilməyən ərazidir, orada narkobiznes genişlənir. Bu cür qarşılıqlı ittihamlar olduğu halda, hər hansı əlaqələr mümkündürmü?

- Mən bizim tərəfimizdən deyilənləri ittiham adlandırmazdım. Hər hansı ittiham faktlara əsaslanmalıdır. Bizdə erməni terrorçu təşkilatlarının Azərbaycanda törətdikləri əməllərin geniş siyahısı var. Çıxış üçün cəmi beş dəqiqə ayrıldığına görə, mən bütün bu siyahını oxuya bilmədim. Amma bu siyahı var və o, müvafiq strukturlara təqdim ediləcəkdir. 32 terror aktı, metroda partlayışlar, qatarlarda, avtobuslarda, gəmi-bərələrdə partlayışlar. Bütün bunlar nəticəsində 2 min azərbaycanlı həlak olmuşdur. Bu, faktdır. Bunu burada, Avropa Şurasında da bilməlidirlər. Biz buna son qoymaq, əhalimizi belə terror hərəkətlərinin təkrar olunmasından qorumaq istəyirik.

Ermənistan deputatlarının nə dedikləri, Ben Ladenin kimə zəng vurduğu barədə suala mən artıq cavab vermişəm. Lakin sizə də deyəcəyəm. O, bunu haradan götürübdür? Axı heç bir informasiya yoxdur. ABŞ-ın Azərbaycandakı səfirliyi belə yalan bəyanatdan sonra açıqlama vermişdir ki, onlarda bu cür faktlar yoxdur. Əgər Ermənistan deputatlarının Ben Ladenlə əlaqəsi varsa, onun telefon nömrəsini və kimə zəng vurduğunu bilirsə, qoy, bu informasiyanı müvafiq xüsusi xidmət idarələrinə versin. Özünü ən azı siyasətçi hesab



edən adama belə yalan şeylər danışmaq yaraşmaz. Hər şey faktlara əsaslanmalıdır. Bizim sözlərimizdə yalan yoxdur. Biz real faktlara əsaslanırıq. Real faktlar isə bundan ibarətdir ki, bu gün Dağlıq Qarabağ ərazisi nəzarətsiz zonadır.

- Orada seçilmiş hakimiyyət var.

Hansı hakimiyyət? Siz hansı hakimiyyəti nəzərdə tutursunuz?

- Mən prezidenti, parlamenti nəzərdə tuturam.

- Bu ərazidə heç bir qanun işləmir. Heç bir beynəlxalq təşkilat orada monitorinq keçirə bilmir, adi silahlar haqqında müqavilə orada qüvvəyə malik deyil, oradakı tankların və hərbi texnikanın sayı Azərbaycanda və Ermənistanda olduğundan xeyli çoxdur. Nəyə görə? Buna görə də, o tanınmamışdır, yəni o, sanki dünyada yoxdur, amma eyni zamanda o, var və qeyri-sabitlik ocağıdır. Axı heç bir ermənini, heç vaxt yaşamadığı 7 rayonun işğal olunması faktını inkar etməyəcəksiniz. Siz bu suala cavab vermək istəmirsiniz? Mən isə burada sizə bu sualı verirəm və cavab alıram ki, bəli, ərazi işğal edilmişdir, bir milyon insan çadırlarda yaşayır, ərazimizin 20 faizi işğal olunmuşdur. Bəs Ermənistan nə deyir? Deyir ki, biz ərazini işğal etmişik və ona görə də güc mövqeyindən danışırıq.

Dünya daha o dünya deyil, dünya dəyişmişdir. İndi güc mövqeyindən danışmaq mümkün deyildir, siz mənim sözlərimi yadda saxlayın, Ermənistanın vəziyyəti getdikcə ağırlaşacaq, bu cür qəsbkarlıq siyasətini aparmaq onun üçün daha çətin olacaqdır. Nə baş vermişdir? Əlbəttə, münaqişə nəticəsində Azərbaycan zərər çəkmişdir. Rayonlar dağıdılmışdır, insanlar ağır şəraitdə yaşayırlar. Amma iqtisadi inkişafa dair beynəlxalq statistikanı, ən başlıcası isə, Ermənistanla Azərbaycanın perspektivlərini müqayisə etsək, görərik ki, onların arasında uçurum dərinləşir. İndi Azərbaycanın təkcə valyuta ehtiyatı 1 milyard dollardır.

Ermənistan əsasən diasporun ABŞ konqresinin yardımı hesabına dolanır. Əhalinizin yarısı köçüb getmişdir. Bu, faktdır. Ermənistanda 1 milyon, Qarabağda 100 mindən artıq adam yaşayır və bu proses davam edir. Bəs sonra nə olacaq? Bir şeyi başa düşün: Azərbaycan bu cür vəziyyətlə heç vaxt razılaşmayacaqdır. Vaxt ötəcək, onda gec olacaqdır. Bu gün Ermənistan regional layihələrdən tamamilə təcrid olunmuşdur. Bütün neft və qaz kəmərlərinin çəkilməsi üçün iqtisadi cəhətdən ən sərfəli yol Ermənistandandır, amma bunlar oradan yan keçir. Başqa regional layihələr də var. Bəs sonra nə? Siyasətçilər çox vaxt bugünkü məsələlərin həlli ilə məşğul olurlar, halbuki onların vəzi-

fəsi öz xalqı barəsində çox-çox illər qabaqcadan düşünməkdən ibarətdir. Açığını deyəcəyəm, sizdə perspektiv barədə düşünən siyasətçilər görmürəm.

- Siz Avropa Şurası Parlament Assambleyası sədrinin jurnalistlər haqqında dünənki bəyanatını necə şərh edərdiniz?

- Bu gün Azərbaycanda müstəqil kütləvi informasiya vasitələri üçün hər cür şərait yaradılmışdır. Müsahibədən əvvəl sizinlə söhbət edərkən soruşdum ki, Ermənistanda nə qədər qəzet çıxır? Dediniz ki, 6-7 qəzet. Bizdə isə 100-dən artıq gündəlik qəzet var və onlar əsasən müxtəlif siyasi dairələri təmsil edirlər. Azərbaycanda senzura yoxdur, Hər qəzet istədiyini yazır, heç kim onlara nəzarət etmir. Bəzən görürsən ki, məmurlar haqqında məqalələr yazırlar və təbii ki, bu kimlərinsə xoşuna gəlmir. Buna görə də onlar qəzetləri məhkəməyə verirlər. Məqalələrdə yoxlanılmamış faktlar, çox vaxt da böhtan xarakterli faktlar olduğundan, məhkəmə qəzetin əleyhinə qərar çıxarır. Bu, demokratik mexanizmdir, başqa mexanizm yoxdur. Buna görə də indi Azərbaycanın kütləvi informasiya vasitələrində hansısa problemlərin olduğundan danışmaq, zənnimcə, əsla düzgün olmazdı. Bir neçə özəl televiziya kanalı, çoxlu müxtəlif kütləvi informasiya vasitələri var.

- Siz nəsə əlavə etmək istəyirsinizmi?

- Azərbaycan Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyir. Bu, Avropa Şurasına daxil olarkən bizim götürdüyümüz öhdəlikdir. Amma siz də başa düşməlisiniz ki, bu, daim davam edə bilməz, bu status-kvo həmişə qala bilməz. Ona görə də mən Ermənistandakı sağlam düşüncəli adamlara məsləhət görmək istərdim: Azərbaycan münaqişənin həlli ilə bağlı dövlətimizin ərazi bütövlüyünə xələl gətirən hər hansı qərarla heç bir şəraitdə razılaşmayacaq. Azərbaycan buna heç vaxt getməyəcəkdir. Ermənistanda bunu nə qədər tez anlasalar, münaqişənin həllinə bir o qədər tez nail olmaq mümkündür.

**AzərTac**



# İLHAM ƏLİYEVİN AŞPA-dakı ÇIXIŞI BÖYÜK MARAQLA QARŞILANMIŞDIR

**Heydər Əliyevin siyasi qüdrətinə və həqiqətin gücünə arxalanan İlham Əliyev sərt məntiqi ilə bizi bu mübarizələrdən qalib çıxartdı.**

**Səməd SEYİDOV** (Azərbaycan parlament nümayəndə heyətinin üzvü, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlər arası əlaqələr daimi komissiyasının sədri): Bu gün Parlament Assambleyasında ən vacib məsələlərdən biri - terrorizm və demokratiya mövzusu müzakirə olunmuşdur. Müzakirələr zamanı Ermənistanın nümayəndəsi Hovanesyan çıxış edərək əsassız və qərəzli mövqeyini bir daha nümayiş etdirdi. O, məhşur terrorist Ben Ladenin guya Azərbaycanla hansısa telefon əlaqələri olduğunu dedi. Bu gülünc bəyanatdan sonra Azərbaycan nümayəndə heyətinin başçısı ölkəmizdə terrorizmə qarşı aparılan məqsədyönlü işlər haqqında çıxış etdi, Ermənistan nümayəndəsinin əsassız və qərəzli iddialarına öz münasibətini bildirdi. O dedi ki, Azərbaycan məhz terrorizmin qurbanıdır, terrorizmdən əziyyət çəkən və terrorizmin nəticələrini əyani şəkildə görən bir ölkədir.

İlham müəllimin çıxışında məhz terrorizmin nəticəsinə görə bir milyon insanın

qaçqın düşməsi, torpaqlarımızın 20 faizinin zəbt olunması bir daha vurğulandı. Həmin çıxışda cənab İlham Əliyev Azərbaycanın bütün beynəlxalq normaları yerinə yetirməsi barədə də danışdı. Nümayəndə heyətimizin başçısı bir fikri də vurğuladı ki, Azərbaycan bütün beynəlxalq ictimai qurumlarla terrorizmə qarşı mübarizəyə hazırdır. Ona görə də Azərbaycan bu yaxınlarda imkanlarından istifadə edərək, Amerika Birləşmiş Ştatlarını tam dəstəkləyərək terrorizmə qarşı birgə mübarizəyə başlamağa hazır olduğunu bir daha nəzərə çarpdırdı.

Biz şahidi olduq ki, Avropa Şurasının Parlament Assambleyası Azərbaycan nümayəndə heyəti başçısının çıxışını həm alqışladı, həm də bəyəndi. Məhz ona görə ki, nümayəndə heyətimizin fikri Avropa Şurasında dəstəklənir və həqiqətə uyğundur.

**Rəfael HÜSEYNOV** (Azərbaycan nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı): Artıq üçüncü dəfədir ki, Azərbaycan həqiqi üzv kimi Avropa Şurası Parlament Assambleyasının iclaslarında iştirak edir. Azərbaycan 13-cü ildir ki, Ermənistan tərəfindən dövlət terrorizmin əsas hədəfidir və tale elə gətiribdir ki, Avropa Şurası Parlament Assambleyasının bu iclasında müzakirə olunan əsas məsələ terrorizm və demokratiya məsələsi idi. Bu məsələ bütün gündəliyi dəyişibdir. "Xain xoflu olar" deyərlər, erməni nümayəndə heyəti də terrorçu olduqlarını, Ermnistanın terrorçuluğa rəvac verən, terrorçular bəsləyən, yetişdirən bir ölkə olduğunu hər kəsdən daha çox bilir və ona görə də əvvəldən çox əl-ayağa düşmüşdülər.

Bu gün gözlənilirdi və bilirdilər ki, Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyevin çıxışı olacaqdır. Görünməmiş bir hadisədir ki, bu məsələ ilə əlaqədar, terrorizm və demokratiya məsələsi ilə əlaqədar çıxış etmək üçün 88 nəfər nümayəndə yazılmışdır.

Qəribədir ki, Ermənistan nümayəndələri bütün heyətlə çıxışlara yazılmışdılar. Yəni məqsədləri İlham Əliyevin çıxışında Ermənistanı ifşa edəcək məqamlara reaksiyalar verməkdən ibarət idi. Lakin elə oldu ki, əvvəlcə Ermənistan nümayəndəsi çıxış etdi və təbii ki, ermənilərin daim apardığı xəttə uyğun olaraq, böhtançı bir tərzdə çıxış etdi. Onun bu çıxışı şübhəsiz ki, insanlarda özləri haqqında reaksiyanı bir qədər də dərinləşdirdi. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin apardığı işlərin nəticəsindən qeyzlənən və çox süst vəziyyətdə olan Ermənistan nümayəndə heyəti AŞPA-ya müraciət etmişdir ki, Azərbaycan nümayəndə heyəti bizi burada biabır edir.



Ötən dəfə İlham Əliyev Müsahibə verərkən çox dəqiq dedi və sərrast ifadə etdi ki, Azərbaycan onları biabır etmir, onlar özləri-özlərini biabır edirlər. Azərbaycan, sadəcə olaraq, onları ifşa edir. İlham Əliyev bu günkü çıxışında erməniləri növbəti dəfə ifşa etdi. Son 13 il ərzində ermənilər Azərbaycanda 32 dəfə terror aktları törətmişlər, minlərlə insan bu terror aktlarının qurbanı olmuşdur.

İlham Əliyevin çıxışını iki hissəyə bölmək olar. Birinci hissədə, burada müzakirə olunan məsələnin ümumi fəlsəfəsi, dünya terrorizmə qarşı mübarizə və terrorizmin demokratiyaya qarşı arxadan sancılan xəncər olması ideyası ifadə olunurdu. Digər tərəfdən, İlham Əliyevin çıxışındakı vacib məqam bundan ibarət idi ki, Ermənistan işğal olunmuş ərazilərdən terrorçuların hazırlanması üçün mərkəz kimi istifadə edir. Yalnız Azərbaycana qarşı yox, dünyada olan ayrı-ayrı terrorist mərkəzləri üçün kadrlar yetişdirir.

İlham Əliyevin bu ilin aprel ayında işğal olunmuş ərazilərdə narkotiklərin yetişdirilməsi ilə bağlı çıxışı AŞPA-da çox ciddi reaksiya doğurmuşdur. Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının sədri Lord Rassel Conston Cənubi Qafqaza səfəri zamanı mətbuat nümayəndələri qarşısında açıq etiraf etmişdir ki, bəli, Ermənistan narkotiklərin yayılmasında, tranzitində bilavasitə iştirak edir.

Güman edirəm ki, cənab İlham Əliyevin bugünkü çıxışında yer alan məqam, Ermənistanın işğal etdiyi ərazilərdən terroristlərin hazırlanması və dünyanın ayrı-ayrı terrorist mərkəzlərinə göndərilməsi üçün bir məkan kimi istifadə etməsi faktı da lap yaxın zamanlarda Avropa Şurası Parlament Assambleyası, dünya birliyi tərəfindən etiraf olunacaqdır. Hesab edirəm ki, bugünkü müzakirələr Ermənistanın terrorçu siyasətinin ifşası istiqamətində onlara daha bir dərs olmalıdır.

**Rəşad MƏCİDOV** ("525-ci qəzet"in baş redaktoru): Avropa Şurası Parlament Assambleyasının hazırkı payız sessiyasının ilk günündə deputatlar öncə terrorizmlə mübarizə mövzusunda müzakirələr aparılmasını tələb etmişdilər. Nəhayət, bu gün müzakirələr aparıldı. Azərbaycan nümayəndə heyəti başçısının çıxışından əvvəl Ermənistan nümayəndəsi çıxış etdi. Onun çıxışı

gülüşlə qarşılandı. Bu mənada ki, o öz fikrini şayiələr əsasında izah edib dedi ki, Ben Ladenin Azərbaycanla əlaqəsi var, neçə dəfə Azərbaycana zəng edibdir. Bu, bir çox deputatlarda kinayə doğurdu.

Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev Ermənistan nümayəndəsindən sonra çıxış etdi və ilk öncə onun çıxışına münasibətini bildirdi. Bu cür şayiələrin belə nüfuzlu, mötəbər bir təşkilatda səslənməsinin qəbuledilməz olduğunu dedi. Əvəzində xeyli faktlar gətirdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzə başladığı vaxtdan terror aktları törətdiyini və bunun nəticəsində 2 min Azərbaycan vətəndaşının həlak olduğunu vurğuladı. Bundan əlavə, "ASALA" erməni terror təşkilatının Ermənistan hökuməti ilə sıx əlaqədə işlədiyini bildirdi. Ciddi faktlara əsaslanan çıxış bir sıra deputatlar tərəfindən böyük rəğbətlə və alqışlarla qarşılandı.

**Qulamhüseyn ƏLİYEV** (Azərbaycan nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı): Ermənistan nümayəndəsinin çıxışı növbəti erməni həyasızlığının təzahürlərindən biri idi. Hamıya məlumdur ki, əslində terrorçuluqla Ermənistan məşğuldur. Yəni o, Azərbaycanın işğal olunmuş ərazilərində terrorçuluqla məşğuldur. O cümlədən, ölkəmizin ayrı-ayrı yerlərində terror aktlarını ermənilər həyata keçirir və onların bir neçə terror təşkilatı vardır. Sadəcə olaraq, ermənilər diqqəti özlərindən yayındırmaq istəyirdilər. Ancaq yayındıra bilmədilər, Azərbaycan nümayəndə heyətinin layiqli cavabını aldılar. Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyevin real faktlara əsaslanmış çıxışı, mənə elə gəlir ki, ermənilər üçün layiqli cavab oldu.

Azərbaycan nümayəndə heyəti Avropa Şurasında həmişə normal fəaliyyət göstəribdir. Yəni görməli olduğu, həyata keçirməli olduğu işləri layiqincə yerinə yetiribdir. Nümayəndə heyəti bu gün də xeyli iş görübdür, bu iclasda bir neçə sənəd yaymağa müvəffəq olubdur. Eyni zamanda, terrorizmə qarşı mübarizə məsələsində də məhz erməni terrorçuluğu barədə faktların Avropa Şurası səviyyəsində səsləndirilməsinə nail olubdur.

**Hüseyn QALXAN** (Türkiyə Cümhuriyyətinin Avropa Şurasındakı nümayəndə heyətinin üzvü, Böyük Millət Məclisinin deputatı): Mən uşaqlıq illərindən etibarən, uzun illər Azərbaycandakı qardaşlarımızın müstəqillik qazanmasını arzu edən bir insanam. Allaha şükür ki, 1991-ci ildən sonra bu sevinci yaşadıq. Bundan sonra Azərbaycanın daha da inkişaf etməsini, insanların məmnun olmasını, işğal edilmiş torpaqlarının azad olunmasını və vətəndaşlarının sülh şəraitində yaşamasını arzulayıram.

Gördüyünüz kimi, bu gün Avropa Şurasında terrorizm məsələsi müzakirə olunur. Bütün dünya terrorizmlə üz-üzə gəlmişdir. Halbuki illərdən bəri Türkiyə bu terrorizmin sıxıntılarını yaşayır. Erməni terror təşkilatı olan "ASALA" 1960-cı ildən 1984-cü ilə qədər Avropada, hətta Amerikada bir çox türk təmsilçilərini öldürmüşdür. Amma dünyanın tükü tərpənmədi. "ASALA"-nın fəaliyyəti davam etdirilərək, Dağlıq Qarabağda azərbaycanlı qardaşlarımızı yurdlarından didərgin saldılar. Hazırda onlar qaçqın həyatı yaşayırlar. Dağlıq Qarabağda separatçı, terrorçu, işğalçı siyasəti həyata keçirən "ASALA"-dır, onun qalıqlarıdır. Biz bütün dünyanın bunu bilməsini istəyirik. Yəni oradakı işğal sadə məsələ deyildir. "ASALA" dəstəyini Ermənistan dövlətindən alan terror təşkilatıdır. Qarabağdakı işğal tamamilə terror faktıdır. Əgər dünya terrorizmə qarşıdırsa, onda bunu da nəzərə almalıdırlar. Bu işğala son qoyub, qaçqın vəziyyətində olan azərbaycanlı qardaşlarımızın öz doğma yurdlarına dönmələrini təmin etməlidirlər. Əgər bu sahədə bir hərəkət göstərmirlərsə, onda dünya boş-boşuna terrorla mübarizə apardığını deməsin. Mən terror deyəndə onun arxasında "ASALA"-nın olduğunu iddia edirəm. Onlar "ASALA"-nın təcrübəli terroristləridir.

Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyevin çıxışına diqqətlə qulaq asdım və onu təbrik etdim. Çox məmnun oldum. Mən Azərbaycan nümayəndə heyətinin bu fəaliyyətini böyük təqdirlə qarşılayıram və alqışlayıram. Onlar lazım olan və görülməli olan işləri ən yaxşı şəkildə həyata keçirdilər.

Azərbaycan Avropa Şurasına daxil olarkən böyük həyəcan keçirirdim, sevincdən göz yaşları tökürdüm. Hətta o zaman buradan telefon vasitəsilə Azərbaycanla danışanda da bunu bir daha bildirdim və bu sevincimizin mənasız olmadığını gördüm.

**AzərTac**

# HAQQ ANI GƏLİB ÇATMIŞDIR

**"Azərbaycan terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlarla alyansdadır. Biz bütün demokratik dünya ilə birik və dünyada terrorizmə son qoymaq üçün əlimizdən gələn töhfəni verməyə hazırıq.**

Sərbəst bazar iqtisadiyyatı və demokratiya yolu ilə irəliləyən ölkəmiz xarici siyasət sahəsində daim beynəlxalq hüquq və normalara sadiq qaldığını əməli şəkildə sübut etmişdir. Azərbaycan sülh bərabərhüquqlu və qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq tərəfdarıdır. O, heç kimin ərazisinə göz dikməyib və kimsəyə də öz torpağından bir qarışını belə vermək niyyətində deyil! Ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini sülh yolu ilə, ədalətlə və beynəlxalq təşkilatların obyektiv köməyinə və tərəfsiz mövqeyinə arxalanmaqla həll etmək istəyir. Bu məqsədlə ardıcıl iş aparır, dünya təşkilatları ilə səmərəli əməkdaşlığa çalışır. Avropa Şurasına tamhüquqlu üzv qəbul edilən Azərbaycan bu möhtəbər qurumdan da haqqın, ədalətin bərpası yolunda istifadəyə can atır. Azərbaycanın dövlət bayrağı Avropa sarayı qarşısında qaldırıldıqdan sonra AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyev jurnalistlərə verdiyi müsahibəsində demişdir: "Biz ümid edirik ki, bu quruma üzv



olmağımız Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərəcəkdir. Çünki həm Azərbaycan, həm də Ermənistan artıq Avropa ailəsinə qəbul ediliblər. Avropa ailəsində iki dövlət bir-biri ilə münaqişədə ola bilməz... Hesab edirik ki, Avropa Şurasının təsiri nəticəsində bu münaqişənin həllində müsbət dəyişikliklər ola bilər. Əlbəttə, biz çalışacağıq ki, Azərbaycan mövqeyi burada çox güclü səslənsin. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Artıq bütün dünya, bütün Avropa bilir ki, Azərbaycan bu münaqişənin qurbanıdır, ölkəmizin torpaqları işğal altındadır, respublikamızın əhalisi qaçqın vəziyyətindədir. Ona görə bununla nə biz, hesab edirəm ki, nə də Avropanın digər ölkələri barışa bilərlər. Əlbəttə, biz burada gündəlik fəaliyyətimizdə bu məsələni daim diqqət mərkəzində saxlayacağıq və Avropanın bütün nümayəndələri qarşısında qaldıracağıq. Hesab edirəm ki, bu, münaqişənin həllində öz rolunu oynaya bilər".

Nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev verdiyi sözə şərəflə əməl etmişdir. Artıq Ermənistan tərəfi Avropa Şurasına qəbul olunduğu üçün peşmançılıq hissi keçirməyə başlayıb. Çünki AŞPA-nın hər sessiyasında Azərbaycan tərəfi çox ciddi rəsmi sənədlər yayır, məsələlər qaldırır və deyilənləri konkret, təkzibedilməz faktlar və çıxışlarla sübuta yetirir. Beləliklə, Ermənistanın təcavüzkar və terrorçu siması get-gedə Avropa və dünya qarşısında açılaraq ifşa olunur.

Avropa Şurası Parlament Assambleyasının sentyabrın 25-də keçirilən iclasında terrorizm məsələsinin geniş müzakirəsi zamanı cənab İlham Əliyev salondakıların sürəkli alqışları ilə qarşılanan parlaq nitq söylədi. Nitqində belə bir məqamı xüsusi olaraq vurğuladı ki, "haqq anı gəlib çatmışdır". "Haqq anı" nədir və niyə indi gəlib çatmışdır?! Bu suallara bir qədər ətraflı cavab verməyə çalışacağıq.

Dağlıq Qarabağ münaqişəsi başlanan ilk günlərdən bu münaqişənin özəyində Ermənistanın Azərbaycana qarşı ərazi iddiası durduğunu, Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi məqsədi güdüldüyü hamıya bəlli idi. Ermənistan tərəfi bu istəyini həyata keçirmək üçün güc tətbiq edir, vaxtaşırı terror aksiyaları törədirdi. Münaqişə başlanandan bəri erməni terror qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmiş, nəticədə iki min Azərbaycan vətəndaşı öldürülmüş, on minlərlə insan yaralanmışdır. Ermənistanın silahlı qüvvələri

ərazimizin 20 faizini işğal etmiş, 20 min nəfər şəhid getmiş, bir milyondan çox insan doğma yurd-yuvasından didərgin düşmüşdür. Lakin ikili standartları əsas tutan beynəlxalq təşkilatlar və dünya dövlətləri bütün bunları görmək istəmir. Ermənistanın silahlandırılması prosesi davam etdirilir. Dağlıq Qarabağda gedən işğalçı proseslər isə "millətin öz müqəddəratını təyin etmək hüququ" kimi qələmə verilir. Odur ki, dünya birliyi tərəfindən qarşısına qətiyyətlə sədd çəkilməyən terrorizm azğınlaşaraq şişdi, harınlaşdı! Nyu-York və Vaşinqtonda dünyanın ən qüdrətli dövləti sayılan ABŞ-a qarşı çox qəddar, amansız və genişmiqyaslı terror aksiyaları törədildi. Minlərlə günahsız və dinc əhalinin qətlinə, külli miqdarda maddi tələfata səbəb olan belə vəhşi zorakılığın dadını görən Amerika onun kökünün kəsilməsi üçün qəti addımlar atılmasının vacibliyini göstərdi. Azərbaycan da daxil olmaqla dünyanın demək olar ki, bütün dövlətləri ABŞ-ın bu mövqeyini dəstəklədi. Cənab İlham Əliyev AŞPA-dakı çıxışında bu barədə demişdir: "Azərbaycan terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlarla alyansdadır. Biz bütün demokratik dünya ilə birik və dünyada terrorizmə son qoymaq üçün əlimizdən gələn töhfəni verməyə hazırıq. Azərbaycan prezidenti cənab Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına qarşı yönəldilmiş hücumlardan sonra etdiyi çıxışında Azərbaycanın Birləşmiş Ştatlara tam dəstəyini ifadə etmişdir. Azərbaycan özünün hava məkanını Birləşmiş Ştatlar üçün açmışdır və Birləşmiş Ştatlarda terror aktları törədənlərin ədalət məhkəməsi qarşısında məsuliyyət daşıması üçün lazım ola biləcək infrastrukturları və kommunikasiyaları ABŞ-ın istifadəsinə verməyə hazırdır. Beynəlxalq birlik terrora qarşı mübarizədə çox vaxt itirmişdir. Lakin bu işə heç başlamamaqdansa gec başlamaq yaxşıdır".

Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti isə əksinə, vaxt itirməmiş, erməni terrorizmi, erməni təcavüzü, vəhşiliyi barədə vaxtaşırı məsələ qaldıraraq rəsmi sənədlər yaymışdır. Təsadüfi deyildir ki, AŞPA-nın sədri Lord Rassel Conston Ermənistana səfərindən sonra həmin ölkənin ərazisində narkotik bitkilər becərildiyi və Ermənistanın nəzarəti altında olan ərazilərdən narkotik maddələrin tranziti üçün istifadə olunduğu faktını təsdiqləmişdir. AŞPA sədrinin söylədikləri ermənilərə xoş gəlməsə də, hətta onlar etiraz əlaməti olaraq parlamentin iclas zalını tərk etsələr də, həqiqət həqiqətliyində qalır və dünya bunu get-gedə daha çox və dərindən dərk edir! Gəlib çatan haqqın anı, bax budur! Əvvəla, dünya həqiqəti "standartsız" qəbul etməyə başlayır, digər tərəfdən terrorçulara və zor tərəfdarlarına qarşı ciddi mübarizəyə girişir. Bu məqamda cənab İlham Əliyevin Strasburqda verdiyi son müsahibəsindən bir məqamı diqqətə çəkmək istəyirik: "Biz bu kürsüdən çox səmərəli istifadə edirik. Azərbaycan haqqında və ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatları Avropa Şurasının vasitəsilə bütün dünya ictimaiyyətinə çatdırırıq və bundan sonra da çatdıracağıq. Əminəm ki, bizim buradakı fəaliyyətimiz öz bəhrəsini verəcəkdir".

Belə də olmuşdur. Sentyabrın 24-də AŞPA-nın sessiyası öz işinə başlamış, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti, ötən sessiyada olduğu kimi, bu dəfə də çox uğurlu fəaliyyət göstərmişdir. Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması barədə yazılı sual 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir. Beləliklə, Avropa Şurasının Nazirlər Komitəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə dəstəyini təsdiq etmişdir. Qərardan bir neçə məqamı nəzərə çatdırmaq istəyirik. 3-cü bənddə göstərilir: "Nazirlər bütün Avropada beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə, eləcə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, ATƏT-in Helsinki Yekun Aktında və digər müvafiq mətnlərdə əks olunmuş beynəlxalq hüquq proseslərinə hörmət edilməsinə dəstəklərini bir daha təsdiq edirlər". Erməni tərəfinin əlində daim bayraq etdiyi "millətin öz müqəddəratını təyin etmək hüququ" prinsipinin tətbiqinə də zəruri aydınlıq gətirmişdir: "Xalqların öz müqəddəratını təyin etmək hüququna Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn normalarına, o cümlədən dövlətin ərazi bütövlüyünə dair normalara uyğun olaraq hörmət olunmalıdır. Nəticə etibarilə bu hüquq yalnız sülh danışıqları əsasında həyata keçirilə bilər". Bu məqama bir daha diqqəti cəlb edirik: deməli, hər hansı millət öz müqəddəratını yalnız sülh yolu ilə, özü də mövcud olduğu dövlətin sərhədləri daxilində təyin edə bilər! Dağlıq Qarabağ erməniləri kimi, silaha əl atıb havadarlarının köməyi ilə münaqişə törətmək və sərhədləri dəyişdirmək niyyəti qəbuledilməzdir! Ən nəhayət, daha bir vacib cəhət: "Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni ta-

nına bilməz" -güman edirik ki, Avropa Şurası Nazirlər Komitəsinin qərarındakı bu cümlənin şərhə ehtiyacı yoxdur!

Avropa Şurası Parlament Assambleyasının sentyabrın 25-də keçirilən iclasında cənab İlham Əliyevin terrorizmlə bağlı çıxışı iki cəhətdən diqqəti cəlb edir. Birincisi, özündən əvvəl çıxış edən Ermənistan nümayəndəsinin iftira və yalanına verdiyi kəskin cavabıdır. Və salonda eşidilən gülüş səsləri erməni deputatının söylədiklərinə kimsənin inanmadığını bir daha təsdiqlədi. Çıxışın əsas hissəsi erməni terrorizminin ifşasına həsr olunmuşdur. Konkret rəqəmlər gətirən cənab İlham Əliyev dedi: "Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı "ASALA" Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırımın siyasətində çox bədnam rol oynamışdır".

Erməni terrorizmi bu gün dünyada intişar tapan terror hərəkatının ən fəal tərkib hissəsidir. Artıq onun cilovlanmaq vaxtıdır. Azərbaycan parlament nümayəndə heyətinin AŞPA-dakı daha bir uğurlu fəaliyyəti erməni azğınlığının cilovlanacağına, torpaqlarımızın tezliklə sülh yolu ilə qaytarılacağına inam yaradır. Bunu terrorizmlə bağlı dünyada yaranmış hazırkı durum da açıq-aydın göstərir. Sözümüzü cənab İlham Əliyevin AŞPA-dakı çıxışından bir sitatla bitirmək istəyirik: "Təkcə ABŞ-da bu dəhşətli terror aktlarını törədənlərə qarşı deyil, dünyada terrorizmin bütün formalarına qarşı genişmiqyaslı antiterror kampaniyasına başlamağın və terrorizm ilə savaşda çox ciddi addımlar atmağın vaxtı gəlib çatmışdır". Doğrudan da əgər dünya rahat və sakit yaşamaq istəyirsə, terrorun, o cümlədən erməni terrorunun kökünü kəsməlidir. Son olaylardan sonra dünyanın bu arzuda olması isə heç bir şübhə doğurmur.

**Bəxtiyar Sadıqov,**
Milli Məclisin üzvü



# "NÜMAYƏNDƏ HEYƏTİMİZİN BAŞÇISI CƏNAB İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ AVROPA ŞURASINDA DAHA MÜHÜM SƏNƏDLƏRİN YAYILMASINA NAİL OLACAĞIQ"

Strasburqda Avropa Şurası Parlament Assambleyasının dördüncü sessiyasında İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Parlamenti nümayəndə heyətinin üzvləri fəal iştirak etmiş və mühüm sənədlərin Avropa Şurası tərəfindən yayılmasına nail olmuşlar. Əməkdaşımız nümayəndə heyəti rəhbərinin müavini, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası daimi komissiyasının sədri Səməd Seyidovla görüşüb bu barədə ətraflı məlumat verməsini xahiş etmişdir. O demişdir:

**Hüquqi baza isə ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü dəyişilməzdir və hər bir məsələ ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.**

- Azərbaycan parlamentinin nümayəndə heyəti bu il sentyabr ayının 24-dən 28-dək Strasburqda Aropa Şurası Parlament Assambleyasının dördüncü sessiyasında iştirak etmiş və bir neçə istiqamətdə səmərəli işlər görmüşdür. Nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin peşəkar siyasətçilik qabiliyyəti və uzaqgörənliyi öz gözəl bəhrəsini vermişdir. Nümayəndə heyətinin üzvləri yeni sənədlərin qəbul olunması istiqamətində iş aparmış və buna nail ol-

muşlar. Sonra Avropa Şurasının Parlament Assambleyasında, siyasi komitələrdə və qruplarda fəal iştirak etmişlər. Nümayəndə heyətinin üzvləri ayrı-ayrılıqda müxtəlif görüşlər keçirmiş, Azərbaycan həqiqətlərinin olduğu kimi çatdırılmasına nail olmuşlar. Biz ermənilərin Avropa Şurasındakı "fəaliyyətini" də nəzarətsiz buraxmırdıq. Onlar həmişə olduğu kimi, bu dəfə də Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq üçün dəridən-qabıqdan çıxırdılar.

Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında nümayəndə heyətimizin üzvü Gültəkin Hacıyeva Avropa Şurası Nazirlər Komitəsinə Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması ilə əlaqədar sorğu vermişdir. Həmin məsələ müzakirə olunarkən biz çox fəallıq göstərdik. Azərbaycanın Fransadakı fövqəladə və səlahiyyətli səfiri Aqşin Mehdiyev də müzakirədə yaxından iştirak edirdi. Başda cənab İlham Əliyev olmaqla nümayəndə heyətimizin bütün üzvləri - Vaqif Vəkilov, Gültəkin Hacıyeva, Rəfael Hüseynov, Naira Şaxtaxtinskaya, Qulamhüseyn Əliyev və nümayəndə heyətinin katibi Azər Qasımov hazırlanmış sənədlərin Avropa Şurası Parlament Assambleyası tərəfindən yayılması üçün son dərəcə gərgin fəaliyyət göstərmişlər. Sentyabrın 24-də sessiyanın birinci günü artıq biz ilk diplomatik uğur qazandıq. Çox vacib və əhəmiyyətli olan bu sənədin müzakirəsi Azərbaycanın xeyrinə həll olundu. Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması" barədə qərar çıxardı. Bunun əsas məğzi ondan ibarətdir ki, güc vasitəsilə, silahlı yolla zəbt olunmuş torpaq heç bir qanun çərçivəsinə salına bilməz. Dağlıq Qarabağ və ətraf rayonlar silahlı münaqişə yolu ilə işğal olunduğundan burada heç bir müstəqillikdən söhbət gedə bilməz. Bu məsələ konkret olaraq Avropa Şurası Parlament Assambleyasının qərarında öz əksini tapmışdır. Bundan sonra ermənilər yeni bir bəhanəyə əl ataraq millətlərin öz müqəddaratını təyin etmək prinsipini əsas gətirmək istədilər. Ancaq buna da nail ola bilmədilər. Çünki qərarda yazılırdı ki, millətlərin öz müqəddaratını həlletmə prinsipi yalnız və yalnız dövlətin ərazi bütövlüyü çərçivəsində olmalıdır. Bu məsələni dövlət yalnız özü həll etməlidir.

Nümayəndə heyətimizin üzvləri çalışırlar ki, Avropa Şurası Parlament Assambleyasında həmişə Azərbaycanın ən ağrılı problemlərindən bəhs edən sənədlər yayılsın. Keçmiş sessiyalar tərəfindən yayılmış doqquz sənəd məhz bu xarakterdədir. Bu dəfə də elə oldu. Rafael Hüseynov tərəfin-








AZƏRBAYCAN










MİLLİ OLİMPİYA






AZƏRBAYC








dən təqdim olunmuş sənədə 23 dövlətin nümayəndəsi imza atmışdır. Həmin sənəd belə adlanırdı: "Avropada təhsilin gələcək inkişafı kontekstində Azərbaycanda qaçqınların və məcburi köçkünlərin təhsil hüquqları". Bu, xüsusi əhəmiyyət kəsb edən bir sənəd idi. Bundan başqa, Azərbaycan - Ermənistan (Dağlıq Qarabağ) konflikti ilə əlaqədar bir sənədin qəbul olunmasına da nail olduq. Bu sənədi 50 deputat imzalamışdır. Onlar Avropa Şurasının ən nüfuzlu deputatlarındandır. Bu məsələ barədə bir qədər ətraflı məlumat vermək istərdim. Biz dəfələrlə Avropa Şurası və Avropa Şurası komitələrində məsələ qaldırmışdıq ki, Dağlıq Qarabağ məsələsi müzakirəyə çıxarılsın. Ancaq ermənilər isə hər dəfə buna mane olmağa çalışırdılar. Avropa Şurası siyasi komitəsinin sədri Terri Devis bizi və erməniləri dəvət edərək Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar müzakirələrin başlanmasını təklif etmişdir. Ancaq ermənistanlı nümayəndələr "biz Yerevanla məsləhətləşməliyik" deyib getdilər və sonradan bu məsələyə qayıtmadılar. Biz isə bu sənədin yayılmasında məqsədli idik. Əsas məqsəd ondan ibarət idi ki, Avropa Şurasında hüquqi baza yaradaraq və ondan sonra Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar müzakirəyə nail olaq. Hüquqi baza isə ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü dəyişilməzdir və hər bir məsələ ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bundan sonra bizim tərəf Dağlıq Qarabağ probleminin Avropa Şurasında müzakirəsinə hazırdır. Ermənilər isə bu müzakirələrdən qaçırlar. Ona görə ki, onlar Avropa Şurası Parlament Assambleyasının sessiyasında bu məsələ müzakirə olunan zaman Azərbaycan torpaqlarını işğal etmələrini etiraf etmək məcburiyyətində qalacaqlar. "İşğal" sözü Avropa ailəsi tərəfindən qəbul oluna bilməz. Ermənilər bunu çox gözəl dərk edirlər. Ona görə də müzakirələrdən boyun qaçırırlar. Biz onları Avropa Şurasının prosedur qaydalarına uyğun şəkildə müzakirələrə dəvət edəcəyik.

Digər bir sənəd ermənilər tərəfindən təqdim olunmuşdur. Ermənistan nümayəndəsi Ovanesyan belə bir sualla müraciət etmişdir ki, niyə 5 sentyabr 2001-ci il tarixdə Dağlıq Qarabağda keçirilən yerli özünüidarə seçkiləri qeyri-legitim hesab edilir. Bəs onlar özlərini necə idarə etsinlər? Dağlıq Qarabağ erməniləri hər hansı bir seçki keçirmək hüququna malik deyillərmi? Ermənilər bu suala cavab almaqdan ötrü Avropa Şurasının rəhbərliyinə rəsmi müraciət etmişlər. Onlar Avropa Şurasından çox tutarlı bir cavab aldılar. Həmin cavabı olduğu kimi xatırlatmaq istərdim: "Dağlıq Qarabağdan xeyli əhali qovulub. Onlar bu ərazilərdə yaşamır, Azərbaycanın ayrı-ayrı rayonlarına səpələ-

niblər. Belə bir seçkinin bu şəkildə keçirilməsi legitim ola bilməz. Lokal seçkiləri Dağlıq Qarabağda Azərbaycan dövləti özü keçirməyə tam səlahiyyətlidir. Belə seçkilər sülh əldə olunmasına çox mənfi təsir göstərir". Ermənistan nümayəndəsi çox pərt halda yerindən dedi ki, siz nə danışırsınız, belə sərt cavab vermək olar? Siz demək istəyirsiniz ki, onda Dağlıq Qarabağdakıların hamısı hərbçilərdir, orada diktaturadır? onun sualına cavab olaraq bildirildi ki, bəli hərbçilərdir, diktaturadır, qeyri-qanuni rejimdir. Bundan sonra ermənilərin deməyə heç bir sözü qalmadı.

Bizdən tez-tez soruşurlar ki, gələcəkdə hansı sənədləri təqdim edəcəksiniz? Biz isə deyirik ki, gələcəkdə daha mühüm sənədlər təqdim edəcəyik. Çünki Azərbaycanın həllini gözləyən o qədər vacib problemlər var ki, onlar tədricən aradan qaldırılmalıdır. Ancaq ermənilər nə desinlər. Onlar işğalçı bir dövlətdir. Bunu Avropa və dünya ölkələri də çox yaxşı bilir.

Mən Azərbaycan nümayəndə heyəti üzvlərinin Avropa Şurası Parlament Assambleyasındakı çıxışları barədə də məlumat vermək istərdim. Bunu özümə mənəvi borc hesab edirəm. Çünki həmkarlarım o qədər mənalı, o qədər tutarlı faktlarla çıxış etdilər ki, bu barədə mütləq məlumat verməliyəm. Nümayəndə heyətinin hər bir üzvü həm Parlament Assambleyasında, həm komitələrdə, həm də siyasi qruplarda çıxış etmişlər. Onu da qeyd edim ki, Parlament Assambleyasının gündəliyinə terrorizmin müzakirəsi ilə bağlı məsələ qəbul edilməmişdi. Lakin sonradan demokratiya və terrorizm mövzusu müzakirə olundu. Bu müzakirədə ən kəskin, ən açıq real faktlarla əsaslandırılmış çıxışı nümayəndə heyətimizin rəhbəri İlham Əliyev etdi. Çıxışların əksəriyyəti "Terrorizmlə mübarizə apararaq", "Terrorizm pisdir","Gəlin terrorizmə qarşı birgə mübarizə aparaq" kimi ümumi tezislərdən ibarət idi. Ancaq cənab İlham Əliyev açıq şəkildə bəyan etdi ki, terrorizmlə mübarizə etmək lazımdır, Azərbaycan dövləti buna hazırdır. Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq üçün həm sərhədlərini, həm infrastruktura, həm də xüsusi xidmət orqanlarını tam hazır vəziyyətdə saxlayaraq Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq etməyə hazırdır. Cənab İlham Əliyevin çıxışının çox yaxşı qarşılanması və xüsusi əhəmiyyət kəsb etməsini bir faktla əsaslandırmaq istərdim. Onun çıxışından bir gün sonra bizim Fransadakı fövqəladə və səlahiyyətli səfirimiz Aqşin Mehdiyev dedi ki, cənab İlham Əliyevin çıxışının mətnini təcili olaraq Amerikadan istəyirlər. Mətni göndərdik. Sonra bizə məlum oldu ki, Amerika Birləşmiş Ştatlarının mövqeyini yüksək səviyyədə müdafiə edən çıxışların mətnləri toplanılır. Demək, cənab İlham Əliyevin də çıxışı Amerika hökuməti tərəfindən yüksək qiymətləndirilmişdir. Bu Amerika-Azərbaycan münasibətlərinin yaxşılığa doğru getməsinə təkan verəcək.



Cənab İlham Əliyev öz çıxışına Ermənistan nümayəndəsinə cavab verməklə başladı. Onu da deyim ki, Ermənistan nümayəndəsi çıxış edərək deputatları özünə güldürdü. O dedi ki, dünyanın bir nömrəli terrorçusu Ben Ladenin Azərbaycanla əlaqəsi var. Guya Ben Laden tez-tez Bakı ilə telefon əlaqəsi saxlayır. İlham Əliyev həm çıxışında, həm keçirdiyi mətbuat konfranslarında, həm də Gürcüstan və Ukrayna televiziyalarına, habelə Ermənistan müxbirinə verdiyi müsahibələrində dedi ki, əgər ermənilərdə belə "faktlar" varsa, deməli, iki qənaətə gəlmək olar: ya ermənilərin Ben Ladenlə əlaqələri var, ya da ermənilər öz hiyləgər niyyətlərini Avropa Şurasında yeritmək istəyirlər. İlham Əliyev öz çıxışında Azərbaycanın terrora məruz qaldığını, erməni terror təşkilatı olan "ASALA" tərəfindən neçə dəhşətli terror aktının törədilməsi və bu terror hadisələri zamanı iki mindən artıq dinc əhalinin öldürülməsi barədə açıqlama verdi.

Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında nümayəndə heyətinin bütün üzvləri çıxış edirdi. Bildiyimiz kimi, 2001-ci il "Dil ili" elan olunmuşdu. Bununla əlaqədar olaraq Rəfael Hüseynov çıxış etdi. O dedi ki, biz burada terrorizm müzakirə edirik, ancaq ermənilər indiyə qədər demokratiya dilində danışmağı bacarmır, təcavüzkar dildə danışırlar. Vaqif Vəkilov Gürcüstanın mövqeyini çox güclü şəkildə müdafiə etdi, Makedoniyadakı hadisələrlə, gənc alimlərlə, terrorizmlə, habelə digər məsələlərlə bağlı müzakirələrdə nümayəndə heyətimizin üzvləri çox fəal iştirak etdilər.

Biz qazandığımız diplomatik uğurları təkcə nümayəndə heyətinin adı ilə bağlamaq fikrində deyilik. Yola düşməzdən əvvəl dövlət rəhbəri, Milli Məclisin spikeri və digər əlaqədar nazirliklərlə, şöbələrlə dəfələrlə götür-qoy etmişik. Erməni terrorçularının törətdikləri terror aktları barədə Milli Təhlükəsizlik Nazirliyi tərəfindən bizə təqdim olunan sənədlərdə hadisələrin törədilmə tarixi tam dəqiqliklə göstərilib. Bütün bunların hamısının qazandığınız siyasi uğurlarda mühüm əhəmiyyəti olub.

Bəzən müxalifət nümayəndələri bizim diplomatik uğurlara qısqanclıqla yanaşırlar. Axı bu, yalnız nümayəndə heyətinin müvəffəqiyyəti deyil, bu, dövlətçiliyin, ümumilikdə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu deməkdir. Buna qısqanclıqla yanaşmağın özü müstəqilliyimizin inkişafına, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artmasına sevinməməkdir. Nümayəndə heyətimizin rəhbəri cənab İlham Əliyev bir neçə dəfə görüşlər keçirdi. Bu gö-

rüşlərin nəticəsi Azərbaycanın mövqeyini Avropa və dünya ölkələri tərəfindən daha da möhkəmləndirirdi. Müxtəlif ölkələrdən gəlmiş deputatlar özləri yaxınlaşıb müsahibələr verir, Azərbaycanın mövqeyini dəstəklədiklərini deyirdilər.

Ermənilər belə bir şayiə də yayırlar ki, guya Azərbaycan nümayəndələri Azərbaycan-Gürcüstan-Ermənistan işçi qrupunda iştirak etməkdən yayınıblar. Onların bu görüş barədə heç bir məlumatları yoxdur. Həmin işçi qrupunun yaradılması Avropa Şurası Siyasi Komitəsinin rəhbəri cənab Terri Devis tərəfindən təşkil edilib. Bizim nümayəndə heyətinin üzvlərindən mən və Rəfael Hüseynov həmin işçi qrupunun işində iştirak etmiş, Dağlıq Qarabağda və Ermənistanda girov saxlanılan azərbaycanlı əsgərlərin azad edilməsi barədə məsələ qaldırmışıq. Bu ilin dekabr ayının 12-də Fransada xüsusi görüş keçirəcəyik və həmin görüşə beynəlxalq təşkilatların nümayəndələri də dəvət olunacaq.

Bu sessiyada ermənilər Avropa Şurasına belə bir sənəd təqdim etdilər ki, son vaxtlar Azərbaycan işğal olunmuş torpaqlarının azad edilməsi üçün niyə hərbi dillə danışır? Niyə Azərbaycan "hərb" sözünü tez-tez işlətməyə başlayıb? Əgər ermənilər işğal etdikləri ərazilərimizi sülh yolu ilə azad etmək istəmirlərsə, bəs Azərbaycan hansı variantdan istifadə etməlidir? Sonra belə bir müraciət də təqdim etdilər: niyə Türkiyə bizi blokada edir? Bir neçə ay bundan əvvəl Türkiyənin xarici işlər naziri cənab İsmayıl Cəm demişdir:

- Biz Türkiyə olaraq niyə Ermənistanla əlaqələr yaratmamışıq? Bunun dörd səbəbi var: ermənilərin türk diplomatlarına qarşı törətdikləri terror aktları, Ermənistanın Azərbaycanın ərazilərini zəbt etməsi, Ermənistanın konstitusiyasında həm Türkiyəyə, həm də Azərbaycana ərazi iddiası olması, Ermənistanın Türkiyəyə qarşı əsassız genosid, soyqırımı məsələsini qaldırması.

Bu səbəblər aradan qaldırılsa, Türkiyə Ermənistanla əməkdaşlıq etməyə hazırdır. Mənə elə gəlir ki, bu, ermənilərin təqdim etdiyi suala tutarlı cavab oldu.

Azərbaycan nümayəndə heyəti bundan sonra da Avropa Şurası Parlament Assambleyasında öz fəallığını daim davam etdirəcək, Azərbaycanın beynəlxalq aləmdə gündən-günə artan nüfuzuna təkan verəcək, nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin dəstəyi ilə ölkəmizin suverenliyi və müstəqilliyi naminə daha mühüm sənədlərin yayılmasına nail olacağıq.

**Ə.Bədəlov**



# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ONA GÖRƏ UĞUR QAZANIR Kİ, ONLAR AVROPALILAR ÜÇÜN ALİ OLAN DƏYƏRLƏR MÜSTƏVİSİNDƏ MÜBARİZƏ APARIRLAR

**(BUNU AMERİKADA ÇIXAN QƏZETLƏRİN BİRİ YAZIB)**

**Müsahibimiz Milli Məclisin deputatı, professor Rəfael Hüseynovdur**

**İlham Əliyevin rəhbərliyi ilə 6 vacib bəyannamənin qəbul olunmasında böyük fəallıq göstərmişik. Bir neçə digər mühüm sənədlər də qəbul olunub. Azərbaycanın yeni tarixində görünməyib ki, hər hansı bir beynəlxalq təşkilatda bu qədər mühüm əhəmiyyətli sənədlər qəbul edilsin.**

- Rəfael müəllim, Azərbaycan parlamentarları Avropa Şurası Parlament Assambleyasının ilk sessiyalarından fəallıq göstərmiş, mühüm əhəmiyyətli sənədlərin qəbul edilməsinə və yayılmasına nail olmuşlar. Bu barədə bir qədər ətraflı məlumat vermənizi xahiş edirik.

- Məlum olduğu kimi, Avropa Şurası Parlament Assambleyasının payız sessiyası da öz işini başa çatdırdı. Bu, 2001-ci ildə dördüncü sessiya idi. Bu ilin yanvar ayından Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvü olduqdan sonra öz uğurlu diplomatik fəaliyyətinə başladı. İlk addım atılan gündən biz ermənilərdən irəlidə getdik. Azərbaycan Avropa Şurasına qəbul olunan

zaman tələb olunan sənədləri ermənilərdən qabaq hazırladıq və ölkəmiz Avropa Şurasına rəsmən ilkin olaraq qəbul edildi. Bildiyimiz kimi, ermənilərin qəbulu bir neçə aydan sonra gerçəkləşdi. Avropa Şurasında fəaliyyətə başlayan kimi ermənilərin 150 il ərzində mətbuat səhifələrində, KİV yolu ilə, diasporu vasitəsilə və müxtəlif məkrli üsullarla azərbaycanlılara və türklərə qarşı apardıqları soyqırımı siyasətinin əleyhinə olan çox vacib bir sənəd qəbul etdirdik. Çünki ermənilər olmamış soyqırımı barədə çoxlu kitablar yazmış, sənədlər tərtib etmiş, mənbələr yaratmış, dünyanın ən müxtəlif ölkələrində özlərinə tərəfdarlar toplamışdılar. Məqsədləri də birdir: guya türklər ermənilərə qarşı soyqırımı törədiblər. Halbuki tarixdə belə bir hadisə olmayıb. Ermənilərin isə türklərə qarşı, xüsusən də azərbaycanlılara qarşı, ələlxüsus Ermənistan-Azərbaycan münaqişəsi zəminində törətdikləri soyqırımı hadisələrinin saysız-hesabsız örnəkləri var. Təəssüf ki, bu barədə rəsmi sənəd ortaya qoyulmamışdır. İlk dəfə olaraq biz Avropa Şurası Parlament Assambleyasında bu sənədi ortalığa çıxartdıq. Bunun ardınca xeyli sənədlər hazırlandı. Amma bu sənədlərin məzmunu ilə bağlı danışmaq istəmirəm. Bu barədə mətbuatda çox yazılıb. Təkcə bir sənədin timsalında Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasında gördüyü işin mənasını və Avropa fəlsəfəsini oxuculara çatdırmaq istəyirəm. Qoy bilsinlər ki, bu mötəbər qurumun sessiyasında qəbul edilən hər bir sənəd arxivə qoyulacaq bir sənəd deyil. Bu, daim fəaliyyət göstərən, bu gün də, sabah da fəaliyyətdə olan bir sənəddir. Həmin sənədi qəbul etdirmək və yaydırmaq çox çətin idi. Bu, ermənilərin azərbaycanlılara qarşı soyqırımı törətmələrindən bəhs edirdi. Məlum olduğu kimi, ermənilər guya türklər tərəfindən soyqırımına məruz qaldıqları barədə kitablar yazıblar. Onlar tarix boyu həmişə çalışıblar ki, guya soyqırımına məruz qalmalarını həmişə avropalılar təsdiq etsin. Müxtəlif yollarla da olsa, buna qismən nail olublar. İndi ermənilər soyqırımına məruz qalmaları barədə hər hansı bir sənəd hazırlayanda əvvəlcə həmin kitabları ortalığa atır və sübut etməyə çalışırlar ki, onlar soyqırımına məruz qalıblar. Hətta Avropanın bir neçə ölkəsi də bunu təsdiqləyib. Bu sənədə baxanlar daha bilmirlər ki, ermənilərin göstərdikləri mənbələrin hamısı saxtadır. Baxmayaraq ki, bizim real faktlarımız daha çoxdur, amma həmişə çətinliklərlə qarşılaşırıq. Müxtəlif ölkələrdən gələn deputatları inandırmaq üçün onlarla xeyli söhbətlər aparırıq və həqiqətləri olduğu kimi çatdırırıq. Biz fotoşəkillərdən də istifadə edirik. Çətinliklə



də olsa, istəyimizə nail oluruq.

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı barəsindəki sənədə 40-a yaxın imza atıldı. Bu, Avropa Şurası Parlament Assambleyasında rəsmi sənəd kimi qəbul edildi. Sənədin əsas mahiyyəti ondan ibarətdir ki, ilk dəfə olaraq beynəlxalq təşkilat çərçivəsində vacib həqiqəti qəbul etdirdik. Ermənilər dünyanın müxtəlif ölkələrinin parlamentlərinə müraciət edirdilər ki, türklərin onlara qarşı törətdikləri soyqırımı müzakirə edilsin və buna münasibət bildirilsin. İndi dünyanın hansı ölkəsinin parlamentində ermənilərin təqdim etdiyi sənəd müzakirə olunsa, buna cavab olaraq bizim də təqdim etməyə sənədimiz var. Avropa Şurası Parlament Assambleyası artıq ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı təsdiq edib. Təəssüf edirəm ki, bu gün də elə qəzetlər var ki, onlar yalan və böhtan yazmaqdan çəkinmirlər. Həmin qəzetlərin birində yazılmışdı ki, türklərin ermənilərə qarşı törətdiyi soyqırımı barədəki sənədə 80 imza atılıb. Ermənistanın azərbaycanlılara qarşı törətdiyi soyqırımı barədəki sənəddə isə 40 imza var. Guya ermənilər bizə nisbətən daha fəal olublar. Bunu da şad xəbər kimi yayıblar. Əgər söhbət millətin mənafeyindən gedirsə, kimliyindən asılı olmayaraq hamı bir amal uğrunda mübarizə aparmalı, yekdil olmalıdır. Biz haqqında söhbət gedən sənədi təqdim edəndə və Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edəndən sonra assambleyanın katibliyi belə bir qərar qəbul etdi ki, artıq bu barədə imza toplamaq kampaniyası dayandırılsın. Bizim təqdim etdiyimiz bu sənəd təkcə Azərbaycanın yox, qonşu Türkiyənin də ali dövlət mənafelərini müdafiə etdi. Odur ki, Avropa Şurasındakı fəaliyyətlərə adi bir iclasa gedib-gəlmək kimi baxmaq düzgün deyil. Orada Azərbaycanın milli mənafeyi, dövlət mənafeyi, Azərbaycan xalqının gələcəyi uğrunda mübarizə aparılır. Bir tərəfdən siyasi problemlərin həllinə yol tapılır, digər tərəfdən isə gələcəkdə qarşılaşa biləcək fəsadların qarşısı qabaqcadan alınır. Bizim qəbul etdiyimiz 6 bəyannamənin hər birinin çox ciddi əhəmiyyəti var. Komitələrdə Parlament Assambleyasında 40-a yaxın çıxışlar olub. Bunların hamısı Azərbaycanın mövqeyinin möhkəmlənməsinə çox ciddi təsir edib.

- "Avropada təhsilin gələcək inkişafı kontekstində Azərbaycanda qaçqınların və məcburi köçkünlərin təhsil hüquqları barədə" sənədi Siz təqdim etmisiniz. Belə bir sənədin təqdim olunması hansı zərurətdən yaranmışdır?

- Bu sənəd belə də adlandırıla bilərdi: "Azərbaycan qaçqınlarının və

məcburi köçkünlərin təhsil hüquqları". Bununla biz demək istəyirdik ki, əgər Avropanı müasir, elmli, maarifli görmək istəyiriksə, bu yalnız çox yüksək mədəni inkişaf etmiş ölkələrə şamil edilməməlidir. Avropanın müxtəlif guşələri problemlərlə doludur. Bu problemlərdən biri də Azərbaycanın problemidir. Axı Azərbaycan da Avropanın bir parçasıdır. Məlumdur ki, ölkəmizdə bir milyondan artıq qaçqın və məcburi köçkün var, torpaqlarımız işğal olunub. Bu işğal təhsil sahəsində də böyük bəlalar yaradıb. Təbii ki, qaçqın uşaqlarının da digər ölkələrin uşaqları kimi mükəmməl təhsil almaq hüququ var. Onların normal təhsil almaları Avropanın təhsil sisteminə də pis təsir edər. Sənədin adının mahiyyəti də elə budur. Ümumiyyətlə, təqdim etdiyimiz hər bir sənədin siyasi aksenti ondan ibarətdir ki, Ermənistan təcavüzkar dövlətdir, Azərbaycanın ərazisini işğal edib və bu işğal nəticəsində Azərbaycan böyük fəlakətlərlə üzləşib. Qaçqın düşmüş insanlar arasında məktəblilər də çoxdur. Həmin sənəddə göstərilirdi ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın təhsil sisteminə 1,5 milyard dollar zərər vurulub. Qaçqın düşmüş şagirdlər Azərbaycanın 48 bölgəsindəki məktəblərdə yerləşdirilib. Çadır düşərgələrində olan ayrıca məktəblər də var. Buna baxmayaraq, təhsil sistemində yenə də çətinliklər mövcuddur. Bu problemlərin hamısı həmin sənəddə sadalanır. Dünyanın 12 ölkəsinin nümayəndəsi təbii ki, bu sənədi imzalayıb. Bu sənəd Avropa Şurası Parlament Assambleyasının elm, təhsil, mədəniyyət komissiyasında da müzakirə olunacaq. Müzakirələr zamanı ermənilərin təcavüzkar olması bir daha sübut olunacaq. Düşünürəm ki, haqqında söhbət gedən sənədin böyük faydası olacaq.

Amerikada çıxan qəzetlərin birində yazılıb ki, Azərbaycan nümayəndə heyəti Avropa Şurasında uğurlar qazanıblar. Ona görə ki, onlar Avropa səviyyəsində mübarizə aparırlar. Yəni hay-küylə, qara-qışqırıqla yox, Avropa mədəniyyəti səviyyəsində, avropalılara yaxın olan dəyərlər çərçivəsində. Biz deyirik ki, erməni işğalçıları təhsilə, mədəniyyət abidələrinə böyük ziyan vurub. Bu, Avropa üçün də böyük faciədir.

- Rəfael müəllim, 2001-ci il "Dil ili" elan olunub. Siz bu barədə Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxış etmisiniz. Çıxışınızın məğzi barədə məlumat verməniz xahiş edirik.

- Sentyabrın 11-də Nyu-Yorkda və Vaşinqtonda baş verən faciəli hadisələr Avropa Şurası Parlament Assambleyasının gündəliyində xeyli dəyişiklik etdi. Bir sıra məsələlər gündəlikdən çıxarıldı. Ancaq "2001-ci il Avropa dilləri ilidir" məsələsi saxlanıldı. Çünki sentyabr ayının 26-sı "Avropa dilləri günü" kimi elan olundu. Çox maraqlı məruzə oldu. Müzakirələrdə Azərbaycan tərəfindən mən çıxış etdim. 2001-ci ildə Avropa dillərinin Azərbaycanda yayılması, həm Azərbaycan dilinin inkişafı istiqamətində, həm də YUNESKO-nun Avropa Birliyi və Avropa Şurasının elan etdiyi tədbirin çərçivəsində Azərbaycanda görülən işlərdən söhbət açdım. Çıxışımda Azərbaycanın Avropaya daha yaxın olmasını faktlarla göstərdim. Qrafika, əlifba məsələsi sadə bir məsələ deyil, bu, həm də siyasi məsələdir. Sovet hakimiyyəti dağıldıqdan sonra zorən tətbiq edilən Kirill əlifbasından imtina edən ilk ölkə Azərbaycan oldu və latın qrafikasına keçdi. Bu Avropanın istədiyi qrafikadır və Avropa üçün doğmadır. Azərbaycan bu qrafikaya keçməklə Avropa ailəsinə doğma olduğunu sübut etdi. Digər tərəfdən qeyd etdim ki, Azərbaycanda milli azlıqların dillərinə daima qayğı göstərilir. Belə bir təklif irəli sürdüm ki, Avropa Şurasının üzvü olan 43 ölkə arasında əlaqələri inkişaf etdirmək üçün Avropa Şurası müəyyən maliyyə dəstəyi verməklə bu ölkələrin qarşılıqlı lüğətini təşkil etsin. Bu, gələcəkdə həm elmə xidmət edər, həm də xalqların bir-biri ilə əlaqəsini möhkəmlədər. Çıxışımı belə qurtardım: "Hazırda dünyada 3 mindən artıq dil var. Bu dillərin böyük əksəriyyəti Avropada danışılır. Amma bir dil də var ki, bu dildə Avropa Şurasında danışılır. Bu, sülh, demokratiya, qanun dilidir. Dünya və Avropa ölkələri bu dili yaxşı mənimsədikcə yaşamaq da rahat olacaq. Arzu edirəm ki, dünyanın müxtəlif yerlərində təcavüzlə danışan, o cümlədən 13 ildən bəri Azərbaycanla "terror və təcavüz dili ilə" danışan Ermənistan da sülh, demokratiya və qanun dilində danışmağı tez öyrənsin". Məndən sonra çıxış edən erməni nümayəndəsi bu barədə heç nə deyə bilmədi. Çünki onlar ölkələrində olan milli azlıqların hamısını uzaqlaşdırıblar.

- Müxalifətin bəzi nümayəndələri cənab İlham Əliyevin rəhbərliyi ilə parlamentarlarımızın Avropa Şurası Parlament Assambleyasındakı uğurlarına qısqanclıqla yanaşırlar. Onlar deyirlər ki, guya ziyalılarımız Avropa Şurası Parlament Assambleyasında İlham Əliyevlə yanaşı oturmaq, bahalı kostyum geymək istəyirlər. Bu, nə dərəcədə doğrudur?

- Azərbaycan nümayəndə heyətinin qazandığı uğurlara kimin necə yanaşması onun öz problemidir. Hər halda, mən bilən həqiqət ondan ibarətdir ki, biz Avropa Şurasında Azərbaycanın haqları uğrunda mübarizə aparırıq. Mən orada olarkən qəzetlərin birinin əməkdaşı mənimlə telefon əlaqəsi yaratdı və soruşdu ki, Türkiyə yığma futbol komandasının Fransada oyunu olacaq, ona baxacaqsınızmı? Bizim belə şeylərə baxmağa vaxtımız yox idi. Səhər saat 7-dən başlanan iş günümüz axşam saat 20.30-da qurtarırdı. Sonra rəs-

mi ziyafətlər başlayırdı. Bu ziyafətlərdə də diskussiyalar davam etdirilirdi. Saat 23.00-24.00-da işimizi qurtarırdıq. Nümayəndə heyətimizin hər bir üzvü eyni səviyyədə işləyirdi. O cümlədən, nümayəndə heyətinin rəhbəri İlham Əliyev. Əgər o da bizimlə bərabər səhərdən axşama qədər işləməsəydi, bu komanda formalaşa bilməzdi. Hər bir sənədi sətirbəsətir oxuyub redaktə edirdik. Biz bilirdik ki, Azərbaycanın milli mənafeyinə xidmət edirik. Bizim hamımızı bir xüsusiyyət birləşdirirdi. Hansı partiyaya mənsub olmağımıza baxmayaraq, heç kim Azərbaycanın mənafeyinə zidd olan bir addım da atmırdı. Hamımız Azərbaycanın suverenliyi, müstəqilliyi naminə işləyirdik. Başda nümayəndə heyətinin rəhbəri İlham Əliyev olmaqla 6 vacib bəyannamənin qəbul olunmasında böyük fəallıq göstərmişik. Bir neçə digər mühüm sənədlər də qəbul olunub. Azərbaycanın yeni tarixində görünməyib ki, hər hansı bir beynəlxalq təşkilatda bu qədər mühüm əhəmiyyətli sənədlər qəbul edilsin. Bunların hamısı Azərbaycanın gələcəyinə, milli mənafeyinə xidmət edir. O cümlədən, bu işlər həmin fikirləri söyləyənlərin özlərinin və uşaqlarının gələcəyi üçün edilib. İndi qoy özləri nəticə çıxarsınlar. Biz gələcəkdə də öz işimizi uğurla davam etdirəcəyik. Xatırlayırsınızsa, ermənilər həmişə fəal olurdular. Ancaq göründüyü kimi, Avropa Şurası Parlament Assambleyasının sessiyalarına İlham Əliyevin rəhbərlik etdiyi heyət gedəndən sonra biz onları qat-qat üstələmişik. İlham Əliyev yüksək şəxsi potensiala malikdir, xarici dilləri mükəmməl bilir, yüksək siyasi düşüncəsi, təfəkkürü və diskussiya mədəniyyəti var. Bununla bərabər, Avropa ölkələrinin rəhbərləri çox yaxşı bilirlər ki, İlham Əliyev Azərbaycan prezidentinin oğludur. Bunun da müəyyən mənada təsiri var. Çünki təqdim olunan sənədlərə həm də Azərbaycan rəhbərinin mövqeyi kimi baxılır. İstər-istəməz bizim mövqelərə daha hörmətlə yanaşılır. Heyətin bütün üzvləri çox böyük zəhmətlə işləyiblər. Qəbul etdirdiyimiz sənədlərdə üst-üstə 150 deputat imzası var. Bu, təxminən 30 ölkəni əhatə edir. Yüzdən artıq nüfuzlu deputat da sənədləri imzalamasa da, bizimlə həmrəy olduqlarını bildiriblər. Biz diplomatik fəaliyyətimizi daha uğurla davam etdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Ə.Bədəlov**



## "İLHAM ƏLİYEV BEYNƏLXALQ ALƏMDƏ ÇOX BÖYÜK NÜFUZA MALİKDİR"

Milli Məclisin üzvü İlham Əliyevin başçılıq etdiyi parlament nümayəndə heyəti AŞPA-nın payız sessiyasında fəal iştirak etmiş, bir sıra mühüm sənədlərin qəbuluna nail olmuşdur. **Nümayəndə heyətinin katibi, Milli Məclis aparatı beynəlxalq münasibətlər şöbəsinin müdiri Azər Qasımov** bu uğurlar və onları yaradan səbəblər barədə dedi:

- Bu ilin sentyabrında AŞPA-nın dördüncü sessiyasında Azərbaycan nümayəndə heyətinin iştirakını yenə də uğurlu saymaq olar. Nailiyyətlərimizin ən başlıca səbəbi nümayəndə heyətinin başçısı cənab İlham Əliyein AŞPA-dakı fəaliyyətidir - bu, danılmaz faktdır. Azərbaycan AŞ-nin tamhüquqlu üzvü olandan bəri İ.Əliyev AŞPA-nın sessiyasında erməni separatizmi, Dağlıq Qarabağdakı separatçılıq əməlləri barədə çıxış etdi və bu, bizim sonrakı fəaliyyətimiz üçün çox böyük əsas yaratdı. Etiraf edək ki, İ.Əliyevin ilk çıxışından sonra Parlament Assambleyasındakı mühit dəyişdi. Artıq Azərbaycana qarşı işləyən deputatlar həmkarlarını bizə əks istiqamətdə səfərbər etməkdə aciz qaldılar.

Bildirirəm ki, AŞPA-nın öz dəst-xətti, daxili və yazılmış qanunları var. Bu, spesifiklik həm də ondan ibarətdir ki, Avropanın çox nüfuzlu dövlətlərinin, qədim, konservativ parlamentarizm ənənələrinə malik ölkələrin nümayəndələri orada təmsil olunublar. Yəni müxtəlif spektrlər, müxtəlif siyasi baxışlar fonunda edilən çıxış o səviyyədə idi ki, AŞPA-dakı psixoloji durumu dəyişdirdi. Halbuki biz orada tamam yeni idik, erməni lobbisinin güclü təsiri-

ni hər an hiss edirdik. Erməni təbliğatının havası ilə yaşayan deputatlar Azərbaycan həqiqətlərini eşidəndə faktlar qarşısında qaldılar. İ.Əliyev müasir Avropa, ümumiyyətlə, dünya üçün ən ciddi təhlükələrdən sayılan separatçılıq və narkotik vasitələrin qanunsuz dövriyyəsi mövzusuna toxunaraq Dağlıq Qarabağdakı mövcud rejimin fəaliyyətinin AŞ-nin üzvü olan bütün ölkələrə, bəşəriyyətə ziyan vurduğunu açıb göstərdi. Qeyd etdi ki, bu, sivil dünyanın bəlalarından ən birincisidir. Dünyanın hər hansı nöqtəsində baş qaldıran separatçılıq hərəkətlərinin qarşısı vaxtında alınmasa, zəncirvari reaksiya kimi bütün Avropada, dünyada sabitliyin pozulmasına səbəb olar.

Biz görürdük ki, bu məntiq öz təsirini göstərdi, böyük dövlətlərin nümayəndələri razılıqlarını bildirdilər. Azərbaycan üçün etibarlı zəmin yaradıldıqdan sonra nümayəndə heyətimiz çox mühüm, hətta mən deyərdim, tarixi əhəmiyyətli sənədlərin qəbuluna nail oldu. Əlavə edim ki, bu ilin may ayında AŞPA-nın Qaçqınlar və Miqrasiya Komitəsinin Bakıda konfrans keçirməsi bilavasitə cənab İlham Əliyevin əməyinin nəticəsidir, onun apardığı söhbətlərin, nümayəndə heyətlərinin başçıları ilə görüşlərinin bəhrəsidir. Bundan əvvəl aprel ayında, AŞPA-nın yaz sessiyasında konfransın Bakıda keçirilməsi məsələsi tam həllini tapmaq ərəfəsində bəzi dövlətlərin nümayəndələri tədbirin baş tutmasına mane olmaq istəyirdilər. Lakin nümayəndə heyətinin rəhbərinin gərgin səyləri nəticəsində konfransın Azərbaycanda keçirilməsi qərarı təsdiq olundu.

Bilirsiniz, AŞPA-nın qaçqınlarla bağlı konfransının Azərbaycanda keçirilməsi o demək idi ki, bu təşkilat respublikamızın problemlərindən, bir milyon soydaşımızın çadırlarda ağır vəziyyətdə yaşamasından, bir sözlə, erməni təcavüzündən xəbərdardır və bu məsələnin rəsmən elan edilməsi üçün ciddi addımlar atmağa hazırdır. AŞPA-nın payız sessiyasında qəbul edilən sənədlər, nümayəndə heyəti tərəfindən Nazirlər Komitəsinə ünvanlanan sorğuya verilən cavab, həmçinin erməni deputatının Dağlıq Qarabağda keçirilən seçkilərin legitimliyinin təsdiq olunması üçün göstərdiyi uğursuz cəhd, qaçqınların təhsil problemini əks etdirən sənəd... belə qərara gəlməyimizə əsas verib.

Bu ay Ermənistanda AŞPA-nın Elm, Təhsil və Mədəniyyət Komitəsinin iclası keçirilməlidir. Əlavə edim ki, ermənilər hər vəchlə çalışırlar ki, Azərbaycanın gördüyü işlərin müqabilində hansısa bir sanballı tədbirlər planlaşdırsınlar. Lakin bu dəfə də onlar istəklərinə nail ola bilmədilər. Çünki Parisdə sentyabrın əvvəlində həmin komitənin iclası keçirilmişdi və orada hörmətli akademik, deputat Əli Abbasov komitənin Cənubi Qafqaz üzrə məruzəçisi təyin olunmuşdu. Cənubi Qafqaz üzrə məruzəçinin AŞ-nin üzvü olan ölkələrin monitorinq məsələlərinə, ümumiyyətlə, digər məsələlərə aid rəyi müəyyən sənədlərin qəbulunda mühüm rol oynayacaq.



Vətənə qayıtdıqdan sonra özlərini müxalifətçi sayanların çox təəssüf, belə bir fikrini eşitdim ki, AŞ-nin qəbul etdiyi sənədlərin heç bir siyasi, hüquqi qüvvəsi yoxdur, bu sənədlərə müxtəlif terminlərin doldurulması onların gücünü artırmır. Bu adamlar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə istinad etməyi daha üstün sayırlar. Onda mən sual edirəm: BMT-nin dünyada həllini tapmamış münaqişələrə dair qəbul etdiyi çox böyük qətnamələrlə dünya diplomatiyası niyə kifayətlənməyib? Təkrar edirəm ki, AŞ-nin rəsmi sənədi kimi yayılan sənədlər Azərbaycanın mövqeyini gücləndirir, daha tutarlı sənədlərin qəbuluna təkan verir. Beynəlxalq aləm dinamik bir orqandır. Populist, gülməli çıxışlar edənlər hətta Avropa İttifaqı ilə Avropa Parlamentini, Avropa Parlamenti ilə AŞPA-nı qarışdırırlar. Hansısa ölkədə, torpaqlarımıza təcavüz edən bədnam qonşularımızda elə bir fakt tapıla bilərmi ki, hər hansı uğur qazanılanda daxildə bir siyasi qüvvə onun əleyhinə çıxış etsin. Çox heyf ki, biz haradasa uğur qazananda geri qayıdıb içəridə, vətəndə bunların həqiqətən uğur olduğunu sübut etmək üçün vaxt və enerji sərf edirik. Halbuki bunu Azərbaycan naminə daha bir iş görməyə sərf etmək olardı. Bizim nail olduğumuz müsbət addımlar Azərbaycan üçün ən önəmli problem olan erməni təcavüzü və bununla əlaqədar yaranmış vəziyyətlə bağlıdır. Bu məsələlərin əleyhinə çıxmaq bilavasitə düşmənlərimizlə iş birliyi yaratmaq deməkdir. Soruşuram, nəyin əleyhinə çıxırsınız? Azərbaycanın ərazi bütövlüyünün, soyqırımda həlak olan ata-babalarımızın ruhunun, yaxud Azərbaycanın işğal olunmuş bölgələrində ekoloji tarazlığın pozulmasının, tarixi mədəni abidələrimizin dağılmasının? Bildiyimiz kimi, nümayəndə heyətinin gərgin fəaliyyəti nəticəsində məhz bu mövzuda sənədlər qəbul olunmuşdur.

Yeri gəlmişkən, nümayəndə heyətinin başçısı İ.Əliyevin AŞPA-nın sessiyasında, müxtəlif tədbirlərdə çıxışı barədə danışmaq istəyirəm. Əvvəla, ingilis dilində çox yüksək səviyyədə səlis çıxışın fonunda erməni nümayəndələrinin rus dilində, həm məntiqsiz, reallıqlara əsaslanmayan çıxışları çox sönük görünürdü. Hər çıxışında nümayəndə heyətimizin başçısı avropalılara erməni təcavüzünün mahiyyətini açıqlayırdı, faktlarla sübut edirdi ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası bizim ölkəmizə nə kimi təhlükə yaradıb və Avropaya necə təhlükə yarada bilər. Hesab edirəm ki, Azərbaycan nümayəndə heyətinin nailiyyətlərini gözü götürməyən daxildəki bəzi adamları

AŞPA-nın əzəmətli binasından içəri salsalar, onlar özlərini itirərlər. Müxtəlif təzyiqlər, erməni lobbisinin təsiri altında vurnuxan nüfuzlu deputatlar qarşısında tribunadan erməni terrorizmini ifşa etmək siyasi cəsarət, siyasi iradə tələb edir.

Hələ inidiyədək ermənilərin ən sərbəst fəaliyyət göstərdiyi Fransa kimi ölkənin siyasi mərkəzi sayılan Strasburqda Avropa parlamentarları qarşısında heç kəs "ASALA" terrorçu təşkilatını ifşa etməyə cəsarət göstərməyib. Bu, bir faktdır ki, AŞPA-da nümayəndə heyətimizin rəhbərinə çox böyük maraq göstərilirdi. İ.Əliyevlə görüşmək istəyənlərin qrafikini çatdırmaq olmurdu, iclaslararası qısa fasilələr zamanı çoxlu nümayəndə heyətlərinin üzvləri görüş üçün növbə gözləyirdilər. Azərbaycan nümayəndə heyətinin başçısı Böyük Britaniya, Fransa, Danimarka, Hollandiya, Rusiya, Ukrayna, Gürcüstan, Çexiya, Macarıstan və s. nümayəndə heyətləri ilə görüşlər keçirdi. Burada Azərbaycanın təşkilatdakı perspektivləri barədə müzakirələr aparılırdı, danışıqlar ölkələrarası münasibətlərin daha da dərinləşməsi səviyyəsinə gəlib çıxırdı. Müxtəlif ölkələrdən olan deputatlar bizim nümayəndə heyətinin başçısına artıq AŞ çərçivəsində yox, daha geniş mövzuda suallar verirdilər, ikitərəfli əməkdaşlığa dair fikirlər söyləyirdilər. Deməк lazımdır ki, nümayəndə heyətinin rəhbəri fasiləsiz olaraq çalışırdı. Hətta iclasların qısa fasilələri zamanı o, müxtəlif görüşlər keçirir, çıxışları üçün ingilis dilində tezislər hazırlayır, ona müraciət edən müxtəlif telekanallara və jurnalistlərə müsahibələr verərək Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı. Tamamilə səmimi deyirəm ki, nümayəndə heyətinin başçısına peşəkar siyasətçi kimi çox böyük maraq vardı. Əvvəllər biz hər hansı sənədin qəbulu üçün başqa ölkənin nümayəndələrindən dəstək istəyirdiksə, indi onlar İ.Əliyevə yaxınlaşıb Azərbaycan nümayəndə heyətinin başçısından öz problemləri üçün dəstək alırdılar. Ümumiyyətlə, cənab İ.Əliyevin beynəlxalq aləmdə nüfuzu çox böyükdür. AŞ kimi mötəbər beynəlxalq təşkilatda bu, özünü əyani surətdə göstərirdi. Bütün bunları görmək, müşahidə etmək bir Azərbaycan vətəndaşı kimi mənim üçün çox fərəhli idi.

**Validə İsmayılova**



## MİLLİ MƏCLİSİN AŞPA-dakı NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı İlham Əliyev yanvarın 24-də gecə respublika televiziyasına müsahibə vermişdir. Həmin müsahibənin mətnini oxuculara təqdim edirik.

**JURNALİST:** İlham müəllim, axşamınız xeyir.

**İlham ƏLİYEV:** Axşamınız xeyir.

**JURNALİST:** İlham müəllim, demokratlar qrupunun iclasında siyasi məhbuslar məsələsinin ilkin müzakirəsi haqqında məlumat verməyinizi xahiş edirik.

**İlham ƏLİYEV:** Deyə bilərəm ki, demokratlar qrupunun toplantısında Azərbaycana tam şəkildə dəstək verilmişdir. Demokratlar qrupu bugünkü müzakirələrdə yekdilliklə Azərbaycanı dəstəkləməyi qərara almışdı və bu məqsədlə xüsusi məruzəçi də müəyyən edilmişdi. O məruzəçi bu gün müzakirələrdə çıxış edərək, Azərbaycanın mövqeyini dəstəkləmişdir. Hesab edirəm, bu, çox sevindirici haldır ki, Avropa Şurasının ən nüfuzlu bir siyasi qrupundan biri, demokratlar qrupu Azərbaycana yekdilliklə dəstək verdi.

**SUAL:** Avropa Şurası Parlament Assambleyasının sessiyasında siyasi

məhbuslar məsələsinin müzakirəsi zamanı Corc Klerfaytın məruzəsinə münasibət necə oldu, yəni hansı dəlillər ön plana çəkildi?

**CAVAB:** Bilirsiniz, münasibət müxtəlif oldu. Amma deyə bilərəm ki, müzakirələrdə iştirak edən deputatların əksəriyyəti cənab Klerfaytın məruzəsinin əleyhinə çıxış etdilər. Səhv etmirəmsə, 14-15 deputat çıxış etmiş, onlardan cəmi 3 nəfər Klerfaytın məruzəsinə dəstək vermişdir. Qalanları isə öz çıxışlarında müxtəlif dəlillər gətirərək, deputatların nəzərinə çatdırdılar ki, məruzə qeyri-obyektivdir, qərəzlidir, Azərbaycana qarşı bir növ təzyiq forması daşıyır, yəni, bu məruzə qəbul oluna bilməz.

Deyə bilərəm ki, səsvermədə də bu ənənə öz əksini tapmışdır. Fəqət, bir neçə deputat, o cümlədən məlum deputat Andreas Qross hansı ki, daim Azərbaycanın əleyhinə müəyyən tədbirlər görür - və Ermənistandan olan bir deputat bu fürsətdən istifadə edərək, cənab Klerfaytın fəaliyyətini çox yüksək dəyərləndirmişdir və Azərbaycana qarşı növbəti böhtan, iftira ilə dolu çıxış etmişdir. Ancaq mən öz çıxışımda onların layiqli cavabını verdim və dedim ki, bir ölkədə ki, siyasi opponentlərini parlamentdə güllələbaran edirlər, o ölkənin nümayəndəsinin bu mövzu barəsində danışmağa, yaxud kimisə ittiham etməyə haqqı yoxdur.

Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Müzakirələr qurtarandan sonra Parlament Assambleyasında Azərbaycana qarşı olan xoş ab-havanı duyaraq və bəlkə də müəyyən narahatlıq hissləri keçirərək, Avropa Şurasının baş katibi cənab Şvimmer söz istədi. Halbuki, keçmişdə burada belə hallara rast gəlinmirdi. Baş katib, adətən, nadir hallarda çıxış edir, çıxış edəndə də səsvermədən öncə heç zaman çıxış etmir və etməməlidir. O isə səsvermədən qabaq söz istəmiş və öz çıxışında faktiki olaraq, çox kobud bir şəkildə deputatlara təzyiq göstərmişdir. Söyləmişdir ki, o, Klerfaytın məruzəsi ilə razıdır və beləliklə, dolayısı ilə deputatlara işarə etmişdir ki, onlar bu məruzəni dəstəkləsinlər. Mən hesab edirəm ki, bu, çox qəbulolunmaz bir haldır. Bu, Avropa Şurasının rəhbərliyindən, baş katib tərəfindən deputatlara göstərilən birbaşa təzyiqdir. Bu təzyiqin nəticəsində biz istədiyimizə tam şəkildə nail ola bilmədik.

Bilirsiniz ki, bizim qarşımızda iki məqsədimiz dururdu. Birinci vəzifə bizim hazırladığımız düzəlişləri qətnaməyə salmaq idi. Biz buna qismən nail olduq, bəzi düzəlişlər qəbul edildi. İkinci vəzifə, biz buna maksimum proqram deyirdik, ümumiyyətlə, qətnamənin əleyhinə səs verilməsinə, onun qəbul edilməsinə nail olmaq idi. Biz ikinci məqsədə nail ola bilmədik. Halbuki, iclasda iştirak edən 90 nəfərdən 40-a yaxın deputat bizim lehimizə səs vermişdi. Təxminən 8 səs çatmadı ki, Klerfaytın təqdim etdiyi ədalətsiz qətnamə qəbul olunmasın. Bir daha qeyd etmək istəyirəm, bunun əsas səbəbi o oldu ki, Avropa Şurasının baş katibi bu məsələyə gözlənilmədən müdaxilə etdi. Səsvermədən öncə deputatlara çox açıq və kobud şəkildə təzyiq göstərdi. Bununla da müzakirələr başa çatdı və hesab edirəm ki, məsələ bitmiş hesab oluna bilər.



Təbii ki, Azərbaycana qarşı hər hansı bir tədbir görülmədi, hər hansı bir sanksiya tətbiq olunmadı. Yəni biz əvvəldən bilirdik ki, belə bir şey olmayacaqdır. Ancaq təəssüf edirəm ki, bəzi müxalifət mətbuat orqanları bu məsələni çox qabardırdılar, proqnozlar verirdilər ki, orada Azərbaycana qarşı sanksiyalar tətbiq olunacaq, Azərbaycan səsvermə hüququndan məhrum ediləcəkdir, ümumiyyətlə, Azərbaycanı cəzalandıracaqlar. Ancaq bunların heç biri olmadı. Fəqət, yenə də deyirəm, təəssüflər edirəm ki, bizim müxalifətimizin mövqeyi Ermənistan nümayəndələrinin mövqeyi ilə üst-üstə düşür. Yəni ermənilər burada bu fürsətdən istifadə edərək Azərbaycanı ləkələmək istəyirlər.Müxalifət isə Azərbaycanda oturub Azərbaycan dövlətinin əleyhinə işlər aparır. Çalışır ki, Azərbaycanı burada gözdən salsın. Bu da mümkün olmayacaqdır.

**SUAL:** İlham müəllim, siz Avropa Şurası Parlament Assambleyasının yeni seçilmiş prezidenti Piter Şiderlə görüşmüsünüz. Görüşdə hansı məsələlərə toxunmusunuz?

**CAVAB:** Cənab Piter Şider bu sesiyada Avropa Şurası Parlament Assambleyasının prezidenti seçilmişdir. O, bu gün xahiş etmişdi ki, biz onunla görüşək. Yəni bu görüş onun xahişi ilə təşkil olunmuşdur. Bir neçə məsələ müzakirə edildi. Əlbəttə, yəqin cənab Şider Azərbaycan nümayəndə heyyətinin başçısı ilə tanış olmaq istəyirdi. Eyni zamanda biz Azərbaycan və Avropa Şurası arasında olan əməkdaşlıq haqqında söhbət apardıq. Gələcək əməkdaşlıq haqqında çox geniş fikir mübadiləsi etdik. Cənab Şider mənə onu da bildirdi ki, bu günlərdə o, Azərbaycandan gəlmiş qeyri-hökumət təşkilatları nümayəndələri ilə görüşmüşdür. O mənə söylədi ki, özünə borc bilir ki, bunu Azərbaycan nümayəndə heyətinə bildirsin, eyni zamanda Azərbaycan nümayəndə heyətinin başçısı ilə də görüşsün.

Mən cənab Şiderə öz minnətdarlığımı bildirdim və onu əmin etdim ki, Azərbaycan indi olduğu kimi, bundan sonra da Avropa Şurasının dəyərli üzvü olacaqdır. Əlbəttə, biz istəyirik ki, Avropa Şurası ilə əməkdaşlıq edək, qar-

şıdurmaya getməyək. Fəqət, əgər Klerfayt kimi, Rustamyan kimi və başqaları kimi insanlar bizi bu qarşıdurmaya cəlb etmək istəyirlərsə, biz buna da hazırıq.

Mən müzakirə zamanı öz çıxışımda söylədim ki, biz istəyirik bu müzakirələr, ümumiyyətlə, bu mövzu Azərbaycanla Avropa Şurası arasında olan münasibətlərə gözəl bir təkan versin. Yəni biz istəyirik əməkdaşlıq olsun, qarşıdurma istəmirik. Amma biz buna da hazırıq. Çünki bizim üçün ilk yerdə Azərbaycanın milli maraqları, Azərbaycanın dövlətçiliyi durur. Bəzi insanlar hesab edirlər ki, burada hansısa imicdən söhbət gedə bilər. Heç bir imicdən söhbət gedə bilməz. Biz burada ilk növbədə Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə edirik. Bundan sonra da müdafiə edəcəyik.

**SUAL:** Azərbaycanın Avropa Şurasına daxil olmasının ildönümü münasibətilə keçirilən sərgi və konsert proqramı digər nümayəndə heyətləri tərəfindən necə qarşılandı?

**CAVAB:** Çox yüksək dəyərləndirildi. Konsertdən və sərgidən sonra biz dünən axşam ildönümü münasibətilə böyük bir ziyafət verdik. Bu ziyafətə 500-ə qədər insan toplaşmışdı. Bizim incəsənət ustalarımız ziyafətdə də çıxış etmişlər, çox gözəl ab-hava yaranmışdı. Bu tədbirlər çox yüksək səviyyədə keçdi. Azərbaycana layiq olan səviyyədə keçdi. Biz çalışırdıq və buna nail olduq ki, burada, Avropa Şurasında Azərbaycanın sənət əsərləri göstərilsin, Azərbaycan haqqında daha dolğun, daha geniş məlumat olsun.

Əlbəttə, belə tədbirlər buna böyük kömək göstərir. Deputatlar bizə yaxınlaşaraq öz minnətdarlıqlarını bildirirdilər, bəziləri çox təəccüb edirdilər ki, Azərbaycan belə böyük mədəniyyətə malikdir. Biz isə onlara deyirdik ki, Azərbaycan qədim bir ölkədir. Onun çox böyük tarixi, mədəniyyəti, milli ənənələri var. Sadəcə olaraq, biz çalışmışıq ki, imkan daxilində Azərbaycanın bu cəhətlərini Avropa Şurası qarşısında təqdim edək və Azərbaycan haqqında həqiqətləri Avropanın bütün nümayəndələri bilsinlər.

**JURNALİST:** İlham müəllim, çox sağolun. Verdiyiniz məlumata görə minnətdarlığımızı bildiririk.

**AzərTAc**



# MİLLİ MƏCLİSİN AŞPA-dakı NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab sədr!

Xanımlar və cənablar!

11 sentyabr faciəsindən sonra bütün dünya, ayrı-ayrılıqda hər bir ölkə dərk etdi ki, terror aktlarından tam sığorta olunmuş dövlət yoxdur. Hamı anlayır ki, bütün beynəlxalq icma bu dəhşətli şər qüvvəsinə qarşı birləşmədən beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq mümkün deyildir.

Terrorizmə qarşı mübarizə aparmaq çox çətindir. Düşmənin kimliyini bilmək də olar. Lakin onu tapmaq və məhkəmə qarşısında məsuliyyətə cəlb etmək çətin olur. Bəzən bilinmir ki, terrorçu yeni zərbələri nə zaman və hansı formada həyata keçirəcəkdir. Ona görə də beynəlxalq əməkdaşlıq, güclü beynəlxalq nəzarət olmasa, terrorizmə qarşı mübarizənin səmərəsi də olmayacaqdır.

Avropada, bizim ümumi evimizdə elə ölkələr vardır ki, onlar terrorizmdən dəhşətli əziyyət çəkmişlər. Azərbaycan bu ölkələrdən biridir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 1 milyon sakini qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın hərbi qüvvələri tərəfindən işğal olunmuşdur. Yüzlərlə şəhər və kənd tamamilə dağıdılmışdır.

Bundan əlavə, erməni terrorçu təşkilatları Azərbaycan ərazisində dəfələrlə terror aktları törətmişlər. Metroda, avtobuslarda, qatarlarda, bərələrdə

və digər yerlərdə törədilmiş terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı, o cümlədən qadınlar və uşaqlar qətlə yetirilmiş, 10 minlərlə adam xəsarət almışdır.

Elə bilirəm ki, Avropa Şurası bu məsələyə və eləcə də Avropa Şurasının bir üzvü olan bir dövlətin, yəni Ermənistanın Avropa Şurasının üzvü olan digər dövlətin - Azərbaycanın ərazisinin 20 faizini işğal altında saxlaması faktına öz münasibətini bildirməlidir.

Terrorizmə qarşı necə mübarizə aparmalı? Bu, indi beynəlxalq icma üçün ən vacib mövzudur. Terrorizmə qarşı ən yaxşı mübarizə yollarından biri qanunsuz zonaların ləğv edilməsidir. Məlum olduğu kimi, bu zonalar terrorçuların gizlənməsi, düşərgələr və bazalar yaradılması üçün ən əlverişli ərazilərdir.

Bu qanunsuz zonaların biri özünü "respublika" elan etmiş Dağlıq Qarabağ ərazisidir ki, onu da beynəlxalq icma tanımayıbdır. Dağlıq Qarabağ ərazisi uzun müddət müxtəlif terrorçu təşkilatlar tərəfindən istifadə edilmişdir. Dağlıq Qarabağ ərazisi qanunsuz silah satışı, narkotik xassəli bitkilərin və narkotiklərin daşınması üçün istifadə olunur.

Dağlıq Qarabağ ərazisi tamamilə nəzarətsiz ərazidir.

Bu ərazi Avropa məkanında qara ləkədir və beynəlxalq hüquq qanunları bu ərazidə işləmir.

Bu ərazi bütün region üçün daimi təhlükədir.

Buna görə də terrorizmə qarşı mübarizə haqqında danışarkən, biz ayrılıqda götürülmüş hər hansı bir terrorçu təşkilatı deyil, dünyadakı bütün terrorçu təşkilatları nəzərdə tutmalıyıq.

Bugünkü günün mövzusu terrorizmə qarşı mübarizə və insan haqlarına hörmətdir. İlk əvvəl biz terrorçuların qurbanları, onların məhrum olduğu əsas hüquqları haqqında düşünməliyik. Biz qaçqınları, ölkə daxilində daimi yaşayış yerlərindən məhrum olmuş adamları və onların insan hüquqlarını düşünməliyik. Bir qədər əvvəl qeyd etdiyim kimi, Ermənistanın Azərbaycana qarşı tacavüzü və terror aktları nəticəsində 1 milyon Azərbaycan sakini qaçqın vəziyyətinə düşmüşdür və onlar ən adi insan haqlarından məhrumdurlar. Avropanın digər ölkələrində də 100 minlərlə qaçqın vardır. Biz onların qayğısına qalmalıyıq. Biz terrorizmə qarşı, onun bütün formalarına qarşı hər bir ölkədə mübarizə aparmalı, tam qələbəyədək birgə vuruşmalıyıq.

* * *



Milli Məclisin nümayəndə heyyətinin başçısı İlham Əliyev həmin gün Avropa Şurası Parlament Assambleyasının yeni prezidenti Piter Şiderlə görüşmüşdür. İ.Əliyev yüksək və məsuliyyətli vəzifəyə seçilməsi münasibətilə cənab Şideri təbrik etmişdir.

Səmimilik şəraitində keçən görüşdə AŞPA ilə Azərbaycan arasında müxtəlif sahələrdə gələcək əməkdaşlıq məsələlərinə toxunulmuşdur.

Günün ikinci yarısında AŞPA-nın sesiyasında Azərbaycanda "siyasi məhbuslar" məsələsinə baxılmışdır. Azərbaycan üzrə məruzəçi Corc Klerfaytın çıxışı geniş müzakirəyə səbəb olmuşdur. Məruzə ətrafında çıxış edən deputatların əksəriyyəti Klerfaytın məruzəsinin qərəzli olduğunu, heç bir məntiqə sığmadığını vurğulamış və bildirmişlər ki, Avropa Şurasına üzv olduğu bir il ərzində Azərbaycan öz öhdəliklərinə layiqincə əməl etmişdir. Bu müddətdə ölkənin istər siyasi, istərsə də iqtisadi həyatında böyük dəyişikliklər baş vermiş, demokratik dövlət quruculuğunda müsbət irəliləyişlər olmuşdur.

Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin başçısı İlham Əliyev sessiyada çıxış etmişdir.

# AZƏRBAYCAN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz cənab sədr!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl mən bu gün məsələnin gündəliyə bu adla, yəni "Azərbaycanda siyasi məhbuslar" adı ilə çıxarılmasının əleyhinəyəm. Avropa Şurasına qəbul olunduğu zaman Azərbaycan öz üzərinə öhdəlik götürmüşdür ki, insan hüquqlarının müdafiəsi ilə məşğul olan təşkilatların siyasi məhbus hesab etdiyi şəxsləri azad edəcək və ya onların işi ilə bağlı yeni məhkəmə prosesi keçirəcəkdir. "Siyasi məhbuslar" ifadəsi dırnaq arasında verilmişdir. (Qətnamə layihənin birinci paraqrafı),lakin bu gün gündəliyə çıxarılan sənəddə biz "siyasi məhbusların" adı çəkilən yerdə dırnaq işarəsinə rast gəlmirik və bundan belə başa düşmək olar ki, Azərbaycanda siyasi məhbuslar vardır.

Yumşaq desək, bu kiçicik səhv məsələni tam başqa tərzdə göstərir.

Vurğulamaq istəyirəm ki, bir il əvvəl Avropa Şurasına qəbul olunarkən Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklər, o cümlədən məhbuslar barədə öhdəliklər yerinə yetirilir. Ona görə də Azərbaycanda biz anlaya bilmirik ki, Azərbaycanın öhdəlikləri yerinə yetirməsi nə üçün ümumi kontekstdə deyil, ayrıca götürülmüş məhbuslar kontekstində müzakirə olunur. Yeri gəlmişkən, Azərbaycan bu məsələ üzrə öhdəliyi də yerinə yetirmişdir.

Azərbaycanda siyasi məhbuslar yoxdur. Burada siyasi məhbus kimi təqdim olunan şəxslər müxtəlif cinayətlər, o cümlədən terror aktları, qətl, təcavüzkar seperatçılıq kimi cinayətlər törətmişlər. Onlar heç zaman siyasətlə məşğul olmamışlar və indinin özündə də siyasətçi deyillər. Onların çoxu polisdə, milli təhlükəsizlik orqanlarında, orduda xidmət etmişdir. Azərbaycan qanunvericiliyinə görə isə, bu qurumlarda çalışan şəxslər heç bir partiyanın üzvü ola bilməzlər və onlara siyasi fəaliyyətlə məşğul olmaq yasaqdır.

Qeyri-dövlət təşkilatlarının siyasi məhbus kimi təqdim etdikləri şəxslər arasında isə təyyarə qaçırmağa cəhd göstərənlər, qatillər, terrorçular, separatçılar, iqtisadi cinayətlər, yol-qəza hadisəsi törətmiş şəxslər və bu kimi adamlar vardır.

Bu gün onları siyasi məhbus hesab etmək, bu, yalnız Azərbaycanı yox, hamımızı uçuruma sürükləyəcəkdir. Ona görə ki, əgər bu meyar bu gün Azərbaycana qarşı tətbiq olunursa, sabah hər hansı başqa ölkəyə qarşı da tətbiq edilə bilər və onda da tələb edəcəyik ki, terrorçular azad olunsunlar və yeni terror aktları törətsinlər.

Meyar məsələsinə toxunaraq deməliyəm ki, ümumiyyətlə, dünyada "siyasi məhbus" məfhumunu müəyyən edən meyar yoxdur. Biz əvvəlcə universal meyar işləyib hazırlamalı və yalnız bundan sonra onu tətbiq etməliyik.

Əks təqdirdə, Azərbaycanla bağlı məsələdə olduğu kimi, anlaşılmazlıqlar davam edəcəkdir. Belə çıxır ki, məruzəçi istədiyi şəxsləri siyasi məhbus hesab edəcək, xoşuna gəlməyənləri isə hesab etməyəcəkdir.

Hətta məruzəçi də olsa belə, ayrıca bir şəxs bu cür böyük məsuliyyəti öz üzərinə götürüb kiminsə siyasi məhbus olub-olmaması haqqında qərar verə bilməz.

Biz bununla çox təhlükəli nümunə yarada bilərik. Belə çıxır ki, terrorçular terror aktları törədib deyəcəklər ki, bunları siyasi məqsədlər naminə etmişlər. Beləliklə, onları məsuliyyətə cəlb etmək mümkün olmayacaqdır. Yaxud da cinayət törətmiş şəxs hər hansı siyasi partiyaya qoşulub məsuliyyətdən yayına biləcəkdir. Azərbaycanda biz belə halları çox müşahidə etmişik.

Bu gün bizə təqdim olunan ziddiyyətli məruzə artıq Azərbaycan cəmiyyətində gərginlik yaratmışdır. Bu cür hallar Azərbaycan ilə Avropa Şurası arasında gələcək əməkdaşlığı təmin etmir və Avropa icmasına daha sıx inteqrasiya olunmaq yolunda Azərbaycan hökumətinin göstərdiyi səyləri heçə çıxarır.

Beləliklə, bütün bunları, habelə bu ədalətsiz, ziddiyətli məruzənin və qətnamə layihəsinin əməkdaşlığı deyil, qarşıdurmaya gətirib çıxardığını nəzərə alaraq, mən həmkarlarımızdan xahiş edirəm ki, qətnamə layihəsinin əleyhinə səs versinlər.

Mən həmkarlarımdan xahiş edirəm ki, Ermənistan nümayəndəsinin çıxışını nəzərə almasınlar.

Birincisi, ona görə ki, Ermənistan Azərbaycanla müharibə vəziyyətindədir, Azərbaycana qarşı hərbi təcavüz etmişdir və Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır. Ona görə də bu məsələdə obyektiv ola bilməz.

İkincisi, siyasi opponentlərin gah cəzaçəkmə yerlərində, gah da parlamentdə öldürüldüyü Ermənistan kimi ölkənin nümayəndələri yaxşı olar ki, bu cür məsələlərin müzakirəsi zamanı dinməzcə otursunlar.

Sağ olun.

**Əsgər Əliyev,**
Azər TAc-ın xüsusi müxbiri
Strasburq



# MÜNDƏRİCAT


ÖN SÖZ ... 3
İLHAM ƏLİYEV ÖLKƏNİN ICTİMAİ-SİYASİ HƏYATINDA BÖYÜK NÜFUZA MALİK SİYASƏTÇİDİR ... 12
YENİ ƏSRİN LİDERİ ... 16
XALQ MƏƏBBƏTİ ... 21
HEYDƏR ƏLİYEV ZƏKASINDAN VƏ QƏTİYYƏTİNDƏN PƏRVAZLANAN YENİ AZƏRBAYCAN PARTİYASI ... 25
İLHAM ƏLİYEVİN LİDERLİK KEYFİYYƏTLƏRİ HEYDƏR ƏLİYEV SİYASİ MƏKTƏBİNDƏ FORMALAŞIB ... 29
ATA YOLUNUN DAVAMÇISI ... 37
İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV MƏKTƏBİNİN YETİRMƏSİDİR ... 40
VƏTƏN SEVGİSİNİN YOLU ... 44
QURUB-YARATMAQ MİSSİYASI ... 51
GƏNCLİYİN ÜMİD ÇIRAĞI ... 56
İLHAM ƏLİYEVLƏ GÖRÜŞ QISA, YADDAQALAN OLDU ... 58
BİZİ UĞURLU GƏLƏCƏK GÖZLƏYİR ... 60
MƏRDLİK VƏ MƏHƏBBƏT IŞIĞINDA ... 63
SÖZÜNÜN SAHİBİ ... 67
GƏNCLİYİMİN BAYRAQDARI ... 68
NURTƏK AYDIN, KÜRTƏK COŞQUN ... 69
BU ONUN ƏSRİDİR ... 70
ARDNŞ-IN BİRİNCİ VİTSE-PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI İLHAM ƏLİYEVİN QARADAĞ RAYONUNDA ÇIXIŞI ... 73
AVROPANIN MƏRKƏZİNDƏ AZƏRBAYCAN SAVAŞI ... 80
AŞPA-DA AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI MİLLİ MƏCLİSİN DEPUTATI İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 85
ERMƏNİSTANLA İQTİSADİ ƏMƏKDAŞLIQ QEYRİ-MÜMKÜNDÜR ... 88
İLHAM ƏLİYEVİN AŞPA-DAKI ÇIXIŞI BÖYÜK MARAQLA QARŞILANMIŞDIR ... 93
HAQQ ANI GƏLİB ÇATMIŞDIR ... 98
"NÜMAYƏNDƏ HEYƏTİMİZİN BAŞÇISI CƏNAB İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ AVROPA ŞURASINDA DAHA MÜHÜM SƏNƏDLƏRİNYAYILMASINA NAİL OLACAĞIQ" ... 103
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ONA GÖRƏ UĞUR QAZANIR Kİ, ONLAR AVROPALILAR ÜÇÜN ALİ OLAN DƏYƏRLƏR MÜSTƏVİSİNDƏ MÜBARİZƏ APARIRLAR ... 109
"İLHAM ƏLİYEV BEYNƏLXALQ ALƏMDƏ ÇOX BÖYÜK NÜFUZA MALİKDİR" ... 115
MİLLİ MƏCLİSİN AŞPA-DAKI NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏSİ ... 119
MİLLİ MƏCLİSİN AŞPA-dakı NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 123
AZƏRBAYCAN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 126

*Yığılmağa verilmişdir: 10.04.2002*
*Çapa imzalanmışdır: 20.04.2002.*
*Kağız formatı 60x84 1/8.*
*Fiziki çap vərəqi 9. Tiraj 235.*